RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 219 (9964) 11 oktyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan MDB məkanında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə töhfəsini verir



Oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbədəki "Millət" sarayına gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.

Sonra MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.

MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Oktyabrın 10-da Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

2-3

## XXI əsr türk əsrinə çevrilir

İlham ƏLİYEV: "Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir"




Dövlət rəhbərimizin TDT-yə üzv təşkilatların 2026-cı ildə Azərbaycanda birgə hərbi təlimlər keçirilməsini təklif etməsi də son dərəcə mühüm məqam kimi türk dövlətlərinin birgə təhlükəsizlik gücü ilə regional sülhə doğru yeni bir addım niyyətidir. Belə bir təşəbbüs TDT-nin müstəqil təhlükəsizlik gündəliyi formalaşdırmaq əzmində olduğunu göstərir. Məlumdur ki, bu gün qlobal miqyasda sülh və təhlükəsizlik hər bir ölkənin davamlı inkişafının əsas şərtinə çevrilib. 2009-cu ildə TDT-nin təməlini qoyan Naxçıvan Sazişi də məhz bu prinsiplər - sülhün qorunması və təhlükəsizliyin təmin olunması üzərində qurulmuşdu.

5

## Türk yolu olan Orta dəhliz dünyanın ümidinə çevrilib



Prezident İlham Əliyevin dediyi kimi, Türk Dövlətləri Təşkilatı həm də ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilat mükəmməl mexanizmlər quraraq müəyyən etdiyi hədəflərə çatmaq üçün dəqiq yol xəritəsi hazırlayıb. Bu hədəflər bizi nə qədər qürurlandırırsa, bizə qarşı olanları bir o qədər qorxudur. İndidən bir sıra ölkələrin kütləvi informasiya vasitələri TDT-yə qarşı qarayaxma kampaniyasına başlayıblar. Bu, ilk növbədə, uzun illər türk dünyasını istədikləri kimi idarə edən və onun böyüklüyünü, tarixi keçmişini və əzəmətini unutdurmağa çalışanları rahatsız edir. Çünki onların yuxarıdan aşağı baxmağa alışdıqları türk dünyası siyasi, iqtisadi, maliyyə imkanları ilə yanaşı, hərbi gücə də çevrilir.

Xəritəyə nəzər saldıqda bütün türk dövlətlərinin dünyanın ən önəmli tranzit ölkələri olduqlarını görməmək mümkün deyil. Türk dövlətləri həmçinin logistik imkanları ilə dünyanın vaz keçə bilmədiyi bir coğrafiyadır. O üzdən birliyin yerləşdiyi coğrafiya həm də geosiyasi baxımdan o qədər əhəmiyyətlidir ki, iki qütbə bölünən siyasi və hərbi güclər TDT ölkələri ilə əməkdaşlıq münasibətləri qurmaq zorundadırlar.

6

## Azərbaycan-Rusiya münasibətlərində yeni səhifə



Dövlət başçıları arasındakı görüş təkcə iki liderin təmas nöqtəsi deyil, Azərbaycan-Rusiya münasibətlərində gərginliyin yumşaldılması və yeni diplomatik mərhələnin başlanğıcı deməkdir. Sözsüz ki, bu, Azərbaycanın şərtlərinin qəbulu kimi yox, ədalətin zəfəri kimi qəbul edilməlidir.

Azərbaycan və Rusiya prezidentlərinin görüşü və aparılmış müzakirələr ikitərəfli münasibətlərin artıq normal məcraya yönəldiyini göstərdi. Düşənbə görüşü bir daha təsdiq etdi ki, Rusiya və Azərbaycan aralarında olan istənilən problemi həll etmək iqtidarındadırlar və Azərbaycan kimi, Rusiya da qonşusu ilə normal münasibətlərin saxlanılmasında maraqlıdır.

7

## Bu həm enerji layihəsi, həm də qarşılıqlı etibar idi



20 il əvvəl oktyabrda və 21 il əvvəl həmin ayda BTC-nin salnaməsinə yazılmış iki sözügedən hadisə Gürcüstanın tranzit ölkə kimi statusunu möhkəmləndirdi və daha neçə qlobal layihəyə yol açdı. Söhbət daha sonra istifadəyə veriləcək Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən, Bakı-Tbilisi-Qars dəmir yolundan, TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) və digər layihələrdən gedir. Bu layihələr indi bir çox ölkənin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Məlum olduğu kimi, hazırda dünya "yaşıl enerji"yə keçid edir. Azərbaycanın "yaşıl gündəliy"i hər yanda rəğbət doğurur. Bu sahədə də Gürcüstanla sıx əməkdaşlıq edirik. Belə ki, yaxın gələcəkdə ölkəmizdən Avropaya uzanacaq "yaşıl enerji" dəhlizinin də uzun yolu Gürcüstandan keçəcək. Bu layihə 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə əsasən reallaşmaqdadır.

11

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

9

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri

# Azərbaycan MDB məkanında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə töhfəsini verir

## Prezident İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbədəki "Millət" sarayına gəlib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbədəki "Millət" sarayına gəlib. AZƏRTAC xəbər verir ki, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon dövlətimizin başçısını qarşılayıb.




## İlham Əliyevin Emoməli Rəhmon ilə təkbətək görüşü





**Oktyabrın 10-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı iki ölkənin dövlət başçılarının Azərbaycanda və Tacikistanda, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşləri məmnunluqla xatırlandı, yüksəksəviyyəli qarşılıqlı səfərlərin müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi işinə verdiyi töhfəyə toxunuldu.

MDB Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən iclasının aktual məsələlərin müzakirəsinə yaxşı imkan yaratdığı qeyd edildi.

Görüşdə Azərbaycan və Tacikistan prezidentləri əlaqələrimizin uğurla inkişaf etdiyini vurğuladılar və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi apardılar.

## Prezident İlham Əliyev Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edib

**Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Emoməli Şərifoviç!

Hörmətli həmkarlar!

Əvvəlcə qonaqpərvərliyə, tədbirimizin yüksək səviyyədə təşkilinə görə Tacikistan Prezidenti hörmətli Emoməli Şərifoviç Rəhmona təşəkkürümü bildirmək istərdim.

Qardaş Tacikistan xalqını Prezidentin rəhbərliyi ilə əldə olunmuş uğurlar və nailiyyətlər münasibətilə təbrik etmək istərdim.

Düşənbədə dəfələrlə olarkən ölkənin paytaxtının necə sürətlə inkişaf etdiyini, yeni binaların tikildiyini görürəm. Bütün bunlar bizi dost kimi çox sevindirir. Şəhərsalma sahəsində uğurlar münasibətilə təbrik edirəm və Düşənbənin ildən-ilə gözəlləşdiyinə şadam.

Bu gün həmçinin Tacikistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin ardıcıl inkişafını qeyd etmək istərdim. Onlar qardaşlıq, dostluq, qarşılıqlı dəstəyə əsaslanır və böyük inkişaf potensialına malikdir.




Bugünkü iclasda humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi məsələlərinə toxunmaq istərdim. Azərbaycanın Şərqi Zəngəzur bölgəsinin Laçın şəhərinin bu il MDB-nin mədəniyyət paytaxtı kimi namizədliyini dəstəklədiklərinə görə MDB dövlət başçılarına təşəkkürümü bildirirəm. Bu ilin iyununda Laçında "MDB-nin mədəniyyət paytaxtı ili"nin açılış mərasimi keçirildi, Azərbaycanın bu qədim torpağının tarixi, mədəni irsi haqqında məlumat verildi. Tədbirin qonaqları Laçının Ermənistanın 30 illik işğalından azad ediləndən sonra sürətli dirçəlişinin əyani şəkildə şahidi oldular. Tamamilə dağıdılmış şəhər bir neçə il ərzində ən gözəl və yaşayış üçün rahat şəhərlərdən birinə çevrilib.

Birliyin həyatında daha bir mühüm hadisə sentyabrın 28-dən oktyabrın 8-dək qədim Gəncə şəhərində - XII əsrin dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətənində keçirilən III MDB Oyunları oldu. Gəncə ilə yanaşı, Azərbaycanın daha altı şəhərində - Qəbələ, Göygöl, Yevlax, Mingəçevir, Xankəndi, Şəkidə 13 ölkədən - həm MDB üzvləri olan, həm də qonaq ölkələrdən 1600-dən çox idmançı qəbul edildi. Bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir.

Diqqətinizə görə təşəkkür edirəm.

Prezident **Emoməli RƏHMON:** İlham Heydər oğlu, sağ olun.



◆ Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri

# Azərbaycan MDB məkanında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə töhfəsini verir

## Azərbaycan Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə keçirilən iclasında iştirak edib






**Oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.** AZƏRTAC **xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.**

Tədbirdə Tacikistan Prezidenti Emoməli Rəhmon, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Müstəqil Dövlətlər Birliyinin (MDB) baş katibi Sergey Lebedev və Birliyin MDB İnsan hüquqları komissiyasının sədri, Rusiyanın insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova çıxış ediblər.

Sonra tədbirin yekun sənədləri imzalanıb.

İclasda Tacikistan Prezidenti Emoməli Rəhmona "Humanitar əməkdaşlığın inkişafında xidmətlərə görə" medalı təqdim olunub.






## Prezident İlham Əliyev Düşənbədə MDB dövlət başçılarının şərəfinə təşkil olunan rəsmi qəbulda





Oktyabrın 10-da Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Milli Məclisin iclasında

# "Dövlət xidmətləri haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı

**Oktyabrın 10-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılıq etdiyi nümayəndə heyətinin oktyabrın 1-dən 3-dək Cənubi Afrika Respublikasının Keyptaun şəhərində işgüzar səfəri barədə məlumat verib.**



Spiker qeyd edib ki, səfərdə məqsəd "Böyük iyirmilik" ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammitində iştirak etmək idi. Oktyabrın 1-də sammitin açılış mərasimində etdiyi çıxışda beynəlxalq münasibətlər sistemində Azərbaycanın müdafiə etdiyi prinsiplər haqqında danışıb, ölkəmizin qlobal çoxtərəfli əməkdaşlığa verdiyi töhfələri nəzərə çatdırıb. Bildirib ki, Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi, humanitar yardım fəaliyyətləri onun bu istiqamətdə kollektiv səylərə sadiqliyini əks etdirir.

Milli Məclisin Sədri çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti haqqında da məlumat verib.

Oktyabrın 2-də keçirilən sammitdə "Fəlakətlərə qarşı dayanıqlığın və cavab tədbirlərinin gücləndirilməsi" mövzusunda müzakirələrdə çıxış etdiyini deyən Milli Məclisin Sədri fəlakətlərə və iqlim təsirlərinə qarşı zəruri cavab tədbirlərinin görülməsində parlamentlərin rolu haqqında fikirlərini bölüşüb, Milli Məclisin bu sahədə çoxsaylı qanunlar qəbul etdiyini bildirib.

Səfərdəki çıxışda spiker ötən ilin noyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın COP29-a uğurla evsahibliyi etdiyini xatırladıb, tədbirin mühüm nəticələri barədə məlumat verib. Həmçinin nəzərə çatdırıb ki, Parlamentlərarası İttifaqla birlikdə Milli Məclis COP29 çərçivəsində keçirilən parlament iclasına da evsahibliyi edib.

Parlament Sədrlərinin 11-ci Sammiti çərçivəsində bir sıra ikitərəfli görüşlərinin olduğunu deyən Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, İspaniya, Avstraliya, Sinqapur, Cənubi Afrika Respublikası, Zimbabve parlamentlərinin sədrləri, Braziliya parlament nümayəndə heyətinin rəhbəri ilə söhbətlərində Cənubi Qafqaz regionunda vəziyyət, Azərbaycanla Ermənistan arasında sülh prosesi, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verdiyini qeyd edib.

Görüşlərdə ölkələrimiz və parlamentlərimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi də aparılıb.

Çıxışına yekun vuran Milli Məclisin Sədri Cənubi Afrika Respublikasına işgüzar səfərinin də uğurlu olduğunu diqqətə çatdırıb.

Sonra plenar iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədri Zahid Oruc, deputatlar Vasif Qafarov, Günay Əfəndiyeva, Hikmət Məmmədov, Elman Nəsirov, Rəşad Mahmudov, Tural Gəncəliyev, Razi Nurullayev, Əli Məsimli, Ceyhun Məmmədov, Səyyad Aran çıxış ediblər. Çıxışlarda oktyabrın 7-də Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün tarixi əhəmiyyəti barədə də söhbət açılıb. Bu Zirvə görüşünün türk birliyinin gələcək inkişafında yeni mərhələnin başlanğıcı olduğu bildirilib. Qeyd edilib ki, Azərbaycan bu birliyin ideoloji və strateji baxımdan lokomotivi, türk dünyasının həmrəyliyini reallaşdıran əsas qüvvə kimi çıxış edir. Habelə vurğulanıb ki, 12-ci Zirvə görüşü türk dünyasının qlobal arenada mühüm siyasi, iqtisadi və mədəni güc mərkəzinə çevrildiyini bir daha göstərdi. Türk dövlətlərinin Qarabağın və Şərqi Zəngəzurun bərpasına verdiyi dəstək türk həmrəylinin təzahürü kimi dəyərləndirilib.

Millət vəkilləri Qəbələ Zirvə görüşündə Azərbaycan Prezidentinin 2026-cı ildə ölkəmizdə TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsi, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin təntənəli şəkildə qeyd olunması ilə bağlı təşəbbüslərinin, tədbirdə səsləndirilən ortaq türk mədəniyyətinin inkişafına yönəlmiş digər təşəbbüslərin həyata keçirilməsinin türk xalqlarının bir-birinə daha da yaxınlaşmasına mühüm töhfələr verəcəyini vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyevin oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirakı, keçirdiyi ikitərəfli görüşlər regionda qarşılıqlı hörmət, strateji tərəfdaşlıq mühitinin davam etdiyini göstərdi. Deputatlar regionda sabitliyin təmin edilməsi baxımından münasibətlərin qarşılıqlı etimad, bərabərhüquqlu dialoq əsasında inkişafının önəmindən bəhs ediblər.

Müzakirələr zamanı Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli, balanslı və uzaqgörən siyasət sayəsində Azərbaycanın beynəlxalq səviyyədə nüfuzunun daha da yüksəldiyi, ölkəmizin həm regional, həm də qlobal miqyasda sülhün, təhlükəsizliyin, əməkdaşlığın təminatçısı kimi qəbul olunduğu vurğulanıb.

İclasda parlamentin Sədri deputat Ramil Həsənin Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) baş katibi seçildiyini diqqətə çatdırıb.

Çıxış edən deputat Ramil Həsən ona etimad göstərilərək, Azərbaycan tərəfindən TÜRKPA-nın baş katibi vəzifəsinə namizədliyinin təqdim edildiyini deyib. O, qalib ölkənin parlamentinin millət vəkili olmasından məmnunluğunu bildirərək, gələcək fəaliyyətini TÜRKPA-nın baş katibi olaraq davam etdirəcəyini söyləyib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatların hüquqi mexanizminin inkişaf etdirilməsində parlamentin önəmli rolunu qeyd edib.

Sonra parlamentin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 13 məsələnin daxil edildiyini bildirib. O, ilk dörd məsələnin bir oxunuşda qəbul ediləcək qanun layihələri olduğunu söyləyib.

Parlamentin Hüquq siyasət və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Komitə sədri "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclisin öz üzərinə düşən vəzifələri şərəflə yerinə yetirdiyini, o cümlədən parlamentin xüsusi iclasının, beynəlxalq konfransın, ictimai dinləmələrin keçirildiyini diqqətə çatdırıb. O, bununla yanaşı, Prezidentin müvafiq sərəncamı ilə təsdiq edilmiş Tədbirlər planında "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsinin nəzərdə tutulduğunu qeyd edib. Bildirilib ki, bu məqsədlə hazırlanmış qanun layihəsində "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" yubiley medalı" sözlərinin əlavə edilməsi təklif olunur, "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri"nin təsdiq edilməsi ilə bağlı müddəalar təsbit edilir.

Müzakirələrdə deputatlar Sahib Alıyev, Hikmət Məmmədov, Aydın Mirzəzadə fikirlərini bölüşüblər. Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, komitə sədri Əli Hüseynli qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə layihəni təqdim edib. Komitə sədri bildirib ki, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" qanunda dəyişiklik edilməsi haqqında" 2024-cü il 27 dekabr tarixli qanuna əsasən, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların adı dəyişdirilərək uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar kimi müəyyən olunub. Həmçinin komissiyaların səlahiyyətlərində müvafiq dəyişikliklər edilərək, himayədar ailəyə verilmiş uşaqlar, habelə Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar istisna olmaqla, digər hallarda uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyaları komissiyalara həvalə edilib. Qeyd olunub ki, bununla əlaqədar bir sıra qanunlarda uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənəd barədə bu komitələrin müsbət rəylərini səsləndiriblər.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair məlumat verib. O qeyd edib ki, bu qanun layihəsi mülki müqavilələr əsasında kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mövsümi işlərə cəlb edilən fiziki şəxslərin əməyinin ödənilməsi mexanizmini tənzimləyir. Bildirilib ki, "Nağdsız hesablaşmalar haqqında" qanunun 3.3-1-ci maddəsi bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki-hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üzrə gündəlik hər bir belə fiziki şəxs üçün nağd qaydada ödənilə bilən məbləğin yuxarı həddini müəyyən edir. Dəyişiklik həmin şəxslərə nağd qaydada ödənilə bilən gündəlik ödənişin yuxarı həddinin artırılaraq, hazırkı iyirmi manatdan otuz manata çatdırılmasını nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyəti barədə danışıb. Qeyd edib ki, layihədə təklif olunan dəyişiklik qanunun təkmilləşdirilməsi və normanın daha aydın və dəqiq ifadə edilməsi məqsədi daşıyır. Belə ki, qanunun 9.8-ci maddəsində edilən dəyişikliyə əsasən, prospekt, küçə, meydan və müvafiq ərazi vahidinin digər tərkib hissələrinə ad verilməsi və onların adlarının dəyişdirilməsi həmin ərazinin əhalisinin rəyi ilə yanaşı, həm də dövlət dilinin normaları nəzərə alınmaqla həyata keçirilir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin növbəti 7 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu qeyd edib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Dövlət xidmətləri haqqında" qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, qanun layihəsi "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində hazırlanıb. Sənəd dövlət xidmətləri sahəsində yeni keyfiyyət standartı yaradan "ASAN xidmət" modeli əsasında hazırlanıb. Diqqətə çatdırılıb ki, 5 fəsil və 20 maddədən ibarət qanun layihəsi dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin bu xidmətlərin göstərilməsi sahəsində münasibətləri tənzimləyir. Sənəddə dövlət xidmətinə, dövlət xidmətinin göstərilmə yerinə, vahid xidmət mərkəzinə, dövlət xidmətinin dizaynı ilə bağlı qanunvericiliyə anlayışlar gətirilir. Bununla yanaşı, xidmət istifadəçilərinin dairəsi, onların hüquq və vəzifələri müəyyən edilir. Dövlət xidmətlərinin göstərilməsində korrupsiya risklərinin azaldılması məqsədilə qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət xidmətinə müraciətlərin ardıcıllıqla həyata keçirilməsi üçün növbəlilik prinsipi təsbit olunur. Sənəddə, qeyd olunur ki, dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanılması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması, dövlət xidmətlərinin göstərilməsi sahəsində çevikliyin təmin edilməsi və xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılması məqsədilə Dövlət Xidmətlərinin Elektron Reyestri (DXER) təşkil edilir. DXER vasitəsilə dövlət xidmətlərinin qeydiyyata alınması, dövlət xidmətləri barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən edilən məlumatların DXER-ə daxil edilməsi, daxil edilmiş məlumatlarda dəyişiklik edilməsi, dövlət xidmətlərinin DXER-dən çıxarılması təmin edilir.

Layihədə xidmət istifadəçilərinin dövlət xidmətlərinə əlçatanlığının təmin edilməsi ilə bağlı tələblər, dövlət xidmətlərinin formaları, dövlət xidmətlərinin fiziki və elektron formada göstərilməsi qaydaları, dövlət xidmətlərinin qiymətləndirilməsi, qiymətləndirilmənin məqsədləri, dövlət xidmətlərinin keyfiyyətinə nəzarət və bir sıra digər məsələləri əhatə edən müddəalar öz əksini tapıb. "ASAN xidmət indeksi" üzrə qiymətləndirilmə mexanizmi daha da təkmilləşdirilərək, qiymətləndirilmə aparıldıqdan sonra dövlət xidmətinin keyfiyyətinə nəzarət üçün əsaslardan hesab ediləcək.

Komitə sədri Fazil Mustafa, deputatlar Aydın Mirzəzadə, Nigar Məmmədova sənəd barədə fikirlərini, bəzi qeyd və təkliflərini açıqlayıblar. Deputat Kamal Cəfərov qaldırılan məsələlərə münasibət bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova xarici səfərlər zamanı "ASAN xidmət"lə bağlı sualların verildiyini və bir çox ölkələrdə model kimi "ASAN xidmət" layihələrinin həyata keçirildiyini söyləyərək, bir sıra məqamlarla bağlı öz qeydlərini də səsləndirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev çıxış edərək, son illər ərzində "ASAN xidmət" tərəfindən görülən işlər barədə məlumatı diqqətə çatdırıb. O, hazırda BMT tərəfindən "ASAN xidmət"in dövlət xidmətləri sahəsində ən yaxşı model kimi qiymətləndirildiyini və 30-dan çox ölkəyə ixrac olunduğunu, 6 ölkədə isə "ASAN xidmət" əsasında mərkəzlərin fəaliyyət göstərdiyini bildirib. O, Azərbaycan Prezidentinin "ASAN xidmət" qarşısında qoyduğu vəzifələrin uğurla həyata keçirildiyini və bir çox nailiyyətlərin əldə edildiyini vurğulayıb.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edib. Komitə sədri əvvəlcə daxili qoşunların hərbi qulluqçularının Birinci Qarabağ müharibəsində və 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qəhrəmancasına vuruşduğunu diqqətə çatdırıb.

Qanun layihəsi barədə məlumat verən Arzu Nağıyev bildirib ki, hal-hazırda ölkəmizin daxili qoşunlarının hüquqi statusu 1994-cü il 8 fevral tarixində qəbul edilmiş "Daxili qoşunların statusu haqqında" qanunla tənzimlənir. Təklif olunan yeni qanun layihəsində daxili qoşunların funksiyaları və səlahiyyətləri daha da təkmilləşdirilərək müasir təhlükəsizlik çağırışlarına uyğunlaşdırılıb. Nəzərə çatdırılıb ki, qanun layihəsi preambula, 6 fəsil və 30 maddədən ibarətdir.

Arzu Nağıyev qanun layihəsi ilə bağlı ətraflı məlumat verib. Bildirilib ki, bu qanunun qüvvəyə mindiyi gündən "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 781 nömrəli Qanununun ləğv edilməsi təklif olunur.

Müzakirələrdə komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, Əli Hüseynli, deputat Bəhruz Məhərrəmov fikirlərini və bəzi qeydlərini açıqladıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Qısa fasilədən sonra iclas öz işini davam etdirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinin mahiyyəti barədə məlumat verib. O qeyd edib ki, qanun layihəsi yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılmasının məcburiliyini təsbit edir, eyni zamanda pasportlaşdırılmanın məcburiliyi istisna olunan bina kateqoriyalarını müəyyən edir.

Qanun layihəsinə əsasən, dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar (tikililər), yardımçı və müvəqqəti tikililər, istixanalar və anbar binaları, istehsalat binaları, fərdi yaşayış evləri, Şəhərsalma və Tikinti Məcəlləsinin 81.1-ci maddəsində göstərilən reklam qurğuları və həmin məcəllənin 89.1-ci maddədə göstərilən ekspertizadan keçirilməsi tələb olunmayan tikinti obyektləri istisna olmaqla, digər yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi xarakter daşıyacaq. Pasportlaşdırma bu qanun qüvvəyə mindikdan sonra yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binaları üçün məcburi olacaq, istismarda olan binalara şamil olunmayacaq.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirib ki, qüvvədə olan qanunvericiliyə əsasən, Bakı şəhərinin inzibati ərazisində müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərinin müəyyənləşdirilməsi, onların quraşdırılması və idarə olunması Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin, Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla, digər ərazilərdə zəruri olan infrastrukturun yaradılması işini təşkil etmək, həmçinin sərnişin nəqliyyatı vasitələri üçün dayanacaqların yerləşdirilməsi sxemlərini təsdiq etmək və nəzarəti həyata keçirmək səlahiyyəti isə yerli icra hakimiyyəti başçılarının səlahiyyətindədir. Müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsinin, onların quraşdırılmasının, idarə edilməsinin və saxlanılmasının vahid qurum tərəfindən təmin edilməsi bölgələrdə əhaliyə göstərilən sərnişindaşıma xidmətinin keyfiyyətinin artmasına, bu sahədə ölkə üzrə vahid standartların tətbiqinə xidmət edəcək.

Digər dəyişikliklə bağlı qeyd olunub ki, Azərbaycan Respublikası "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola 21 oktyabr 2022-ci il tarixli qanun ilə qoşulmuşdur. Sözügedən qoşulma ilə beynəlxalq yük daşımalarında yükgöndərən, daşıyıcı və yükalan arasında öhdəlikləri müəyyən edən və hüquqi münasibətləri tənzimləyən ənənəvi beynəlxalq nümunəli kağız əmtəə-nəqliyyat qaiməsinin (CMR) elektron formatda da tərtib edilməsinə imkan yaradılması, sənədlərin asan idarə edilməsi, qorunması, sürətli mübadiləsi, daşımalarda xərclərin azaldılması, təhlükəsizlik və etibarlılığın təmini kimi bir çox üstünlüklər təqdim edir. CMR-in elektronlaşdırılması, həmçinin avtomobil nəqliyyatı sahəsində qlobal rəqəmsallaşmanı təmin etməklə, sektor iştirakçılarının çevikliyinin və şəffaflığının artmasına ciddi töhfə verəcək.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə, Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, müzakirəyə çıxarılan layihənin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edildiyini, Vəkillər Kollegiyasının fəaliyyətinin əsaslarını təkmilləşdirmək məqsədilə hazırlandığını nəzərə çatdırıb. Bildirilib ki, təklif olunan dəyişikliklərdə vəkillər işdə iştirak edən şəxs olduqda (mülki prosesdə) kassasiya instansiyasında özlərini təmsil etməsi və cinayət prosesində Cinayət-Prosessual Məcəlləsinin 92.3.6-cı, 92.3.7-ci, 92.3.9 - 92.3.11-ci maddələrində nəzərdə tutulan şübhəli və ya təqsirləndirilən şəxs qismində çıxış etdikdə müdafiəçinin təmin edilməsindən imtina etmək və özü-özünü təmsil etmək hüququnun müəyyən edilməsi nəzərdə tutulur. Habelə vəkillik fəaliyyətinin həyata keçirilməsinin ümumi qaydalarına dair müddəalar dəqiqləşdirilir. Bununla yanaşı, sənəddə Vəkillər Kollegiyasının orqanlarının dairəsinə vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas Komissiyası əlavə edilməklə onların hüquq və vəzifələri müəyyən edilir. Həmçinin qeyd olunur ki, Vəkillər Kollegiyası tərəfindən regional qurumlar (mərkəzlər), hüquqi yardım mərkəzləri və tədris mərkəzləri təsis oluna bilər.

Layihədə eyni zamanda vəkilliyə qəbul oluna biləcək şəxslərə aid tələblər və bəzi kateqoriya şəxslər üçün ümumi qaydadan fərqli prosedur müəyyən edilir. Belə ki, vəkillik üçün tələb edilən hüquqşünas ixtisası üzrə iş stajının müddəti üç ildən bir ilə endirilir. Habelə dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış şəxsin yenidən vəkil kimi fəaliyyət göstərməsinin hüquqi əsasları təsbit olunur.

Dəyişikliklərə əsasən, iki dəfədən artıq təkrarən Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri seçilə bilmək məhdudiyyəti götürülür, vəkillər barəsində tətbiq edilən intizam tənbehləri dəqiqləşdirilir, vəkilin fəaliyyətinə xitam verilməsi qaydası (bundan sonra yalnız Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə) təkmilləşdirilərək, həmin qərardan və həm də intizam tənbehlərindən məhkəməyə şikayət vermək hüququ müəyyən edilir.

Parlamentin komitə sədrləri Siyavuş Novruzov, Fazil Mustafa, Zahid Oruc, deputatlar Aydın Mirzəzadə, Erkin Qədirli qeyd və təkliflərini səsləndiriblər. Millət vəkili Bəhruz Məhərrəmov müzakirələrdə qaldırılan bəzi məqamlara aydınlıq gətirib.

Milli Məclisin Sədri Sahibə Qafarova Vəkillər Kollegiyasının Milli Məclislə sıx əməkdaşlıq etdiyini bildirib, Vəkillər Kollegiyasının üzvləri tərəfindən mütəmadi olaraq rayonlarda vətəndaşlara hüquqi yardım göstərildiyini deyib.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək, qanun layihəsinin mühüm əhəmiyyəti barədə söhbət açıb. O, ötən illər ərzində vəkillik institutunun təkmilləşdirilməsi istiqamətdə islahatların həyata keçirildiyini, bu institutun müasir məhkəmə-hüquq sisteminin inkişafında, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində fəal iştirak etdiyini bildirib.

Gündəliyin onuncu məsələsi - "İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. O bildirib ki, sənəd ipoteka münasibətlərində hüquqi mexanizmlərin təkmilləşdirilməsinə xidmət edir. Komitə sədri qanun layihəsində təklif olunan ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi müqaviləsinin notarial qaydada təsdiqlənməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması qaydaları barədə ətraflı məlumat verib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Növbəti məsələni - Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (birinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə təqdim edib. Bildirib ki, təqdim edilən qanun layihəsi Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar hazırlanıb. Əminə Ağazadə deyib ki, yeni Rəqabət Məcəlləsinin qəbulu ilə bazarda sağlam rəqabətin təmin olunması, inhisara qarşı mübarizə və qiymətlərin optimallaşdırılması istiqamətində əvvəlki qanunvericilikdən fərqli bir sıra mühüm yeniliklərin əsası qoyulub.

Bu səbəbdən də təqdim edilən layihə Cinayət Məcəlləsinə uyğun dəyişikliklərin edilməsini nəzərdə tutur. Təklif olunan dəyişikliklərdə Məcəllənin "İnhisarçılıq hərəkətləri və rəqabəti məhdudlaşdırma" maddəsinin həm adı, həm də dispozisiyası Rəqabət Məcəlləsinin müddəalarına uyğunlaşdırılıb, həmçinin xeyli, külli və xüsusilə külli miqdarda anlayışlarına da yeni tərif verilib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

**Çox geniş bir coğrafiyanı və insan potensialını əhatə edən türkdilli ölkələrin bir-birinə yaxınlaşması, getdikcə qlobal proseslərə təsir imkanlarını genişləndirməsi Türk Dövlətləri Təşkilatında (TDT) bir araya gəlmiş dövlətlərin böyük uğurudur. Təşkilatın qurulmasında, addım-addım inkişafında, güc mərkəzinə çevrilməsində Azərbaycanın tarixi rolu çox böyükdür. Bu da ölkəmizin gələcəyə strateji baxışından, xarici siyasət prioritetlərindən irəli gəlir. Belə ki, dövlətimizin xarici siyasət prioritetlərinin müəyyən edilməsi zamanı türk dünyasının gücləndirilməsi, türk dövlətləri ilə əlaqələrin inkişafı əsas istiqamət kimi müəyyənləşib.**




## XXI əsr türk əsrinə çevrilir

### İlham ƏLİYEV: "Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir"

Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərinə malikdir. Onları birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı fəaliyyətinin əsasını təşkil edir. Azərbaycan təşkilatın güclədirilməsinə xidmət edən siyasəti uğurla aparır. Türk dünyası bu gün planetimizin mənzərəsinə müsbət yöndə həlledici təsir göstərməkdən ötrü çox böyük potensialı özündə birləşdirir. Bu potensiala türk dövlətlərinin əhatə etdiyi böyük coğrafiya, sarsılmaz hərbi güc, iqtisadiyyat, zəngin təbii sərvətlər, geniş və şaxələnmiş nəqliyyat yolları, gənc və getdikcə sayı artan əhali daxildir.

6-7 oktyabr 2025-ci ildə Qəbələ şəhərində baş tutan Türk Dövlətləri Təşkilatının (TDT) XII Zirvə Görüşü, bu görüşdə verilən bəyanatlar artıq TDT-nin qlobal arenada mühüm güc mərkəzi kimi formalaşmasının tarixi təsdiqi oldu. "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilən tədbir təkcə ortaq etnik və mədəni irsə əsaslanan inteqrasiya nümunəsi kimi deyil, eyni zamanda siyasi suverenliklərin uzlaşdırıldığı, iqtisadi potensialların birləşdirildiyi və təhlükəsizlik sahəsində strateji koordinasiyanın təmin olunduğu çoxşaxəli əməkdaşlıq platforması kimi TDT-nin müasir dünyamızdakı potensialını ön plana çıxardı.

Dünya nizamında qüvvələr balansının yenidən qurulduğu, yeni güc mərkəzlərinin meydana çıxdığı və regional ittifaqların beynəlxalq sistemdə artan təsir imkanları ilə səciyyələnən çağımızda TDT-nin varlığı və getdikcə daha da güclənməsi son dərəcə əhəmiyyətli faktordur. Yeni dünya nizamında TDT artıq sırf mədəni yaxınlığa əsaslanan təsisat deyil, qlobal miqyasda yeni geosiyasi aktor və strateji müttəfiqlik modeli kimi formalaşmaqda olan kompleks inteqrasiya strukturudur.

"Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir" - Azəbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündəki çıxışında bəyan etdi.

### Müstəqil təhlükəsizlik gündəliyi

Dövlət rəhbərimizin TDT-yə üzv təşkilatların 2026-cı ildə Azərbaycanda birgə hərbi təlimlər keçirilməsini təklif etməsi də son dərəcə mühüm məqam kimi türk dövlətlərinin birgə təhlükəsizlik gücü ilə regional sülhə doğru yeni bir addım niyyətidir. Belə bir təşəbbüs TDT-nin müstəqil təhlükəsizlik gündəliyi formalaşdırmaq əzmində olduğunu göstərir. Məlumdur ki, bu gün qlobal miqyasda sülh və təhlükəsizlik hər bir ölkənin davamlı inkişafının əsas şərtinə çevrilib. 2009-cu ildə TDT-nin təməlini qoyan Naxçıvan Sazişi də məhz bu prinsiplər - sülhün qorunması və təhlükəsizliyin təmin olunması üzərində qurulmuşdu.

Cənab İlham Əliyevin də xatırlatdığı kimi, müasir geosiyasi çağırışlar fonunda təşkilatın ötən il Şuşada qəbul edilmiş Qarabağ Bəyannaməsi və cari Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusu türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsinin vacibliyini bir daha ortaya qoyur.

Təhlükəsizlik təmin edilmədən inkişafın mümkün olmadığı artıq hamıya bəllidir, bu aksiomdur. Beynəlxalq hüququn tez-tez pozulduğu indiki dövrdə türk dövlətləri arasında hərbi və hərbi-texniki əməkdaşlığın gücləndirilməsi strateji zərurətə çevrilib. Bu sahədə Azərbaycan və Türkiyə arasında dərin müttəfiqlik münasibətləri parlaq nümunədir, yalnız son bir ildə iki ölkə arasında 25-dən çox birgə hərbi təlim keçirilib.

Azərbaycanın bu əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə 2026-cı ildə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin ölkəmizdə keçirilməsi təşəbbüsündən çıxış etməsi bir daha təsdiqləyir ki, türk dövlətlərinin ortaq təhlükəsizlik platforması regionda sabitlik, inkişaf və sülh üçün mühüm strateji dayağa çevrilə bilər.

### Azad yurdların bərpa və quruculuğuna qardaş töhfəsi

Belə təşəbbüslər müvafiq Zirvə görüşünün yalnız formal protokol tədbiri deyil, türk dünyasının gələcək konturlarının, ortaq strateji hədəflərinin və birgə fəaliyyət mexanizmlərinin müəyyənləşdiyi tarixi hadisə olduğunu nümayiş etdirir. Bu baxımdan TDT-nin Qəbələdə keçirilmiş Zirvə görüşü iştirakçı dövlətlər arasında siyasi koordinasiyanı və institusional əməkdaşlığı dərinləşdirən mühüm mərhələ kimi tarixə düşdü. Zirvə görüşü çərçivəsində təşkilata üzv və müşahidəçi statusuna malik ölkələrin dövlət və hökumət başçıları son görüşdən bəri həyata keçirilmiş fəaliyyət istiqamətlərini təhlil etdilər, əldə olunmuş nəticələri qiymətləndirdilər, gələcək əməkdaşlıq üçün prioritet istiqamətləri müəyyənləşdirdilər.

Görüşün yekununda qəbul edilmiş rəsmi sənədlər, xüsusilə XII Zirvə Görüşünün Bəyannaməsi Türk Dövlətləri Təşkilatının siyasi-institusional inkişafının növbəti mərhələyə transformasiyasını təsdiqlədi. Bu sənəd təşkilatın normativ əsaslarının möhkəmləndirilməsi, qərar qəbuletmə mexanizmlərinin səmərəliliyinin artırılması və inteqrasiya proseslərinin institusional sabitliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Zirvə görüşünün əsas nəticələrindən biri kimi TDT-yə sədrlik funksiyasının Qırğızıstandan Azərbaycana keçməsi xüsusilə böyük rəmzi və strateji məna ifadə edir. Bu dəyişiklik Azərbaycanın təşkilat daxilində artan rolunun və liderlik potensialının rəsmi tanınması ilə yanaşı, ölkənin regional əməkdaşlıq gündəliyinin formalaşmasında əsas aktora çevrildiyini də nümayiş etdirir.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi bir sıra ikitərəfli görüşlər, həmçinin TDT Xarici İşlər Nazirləri Şurasının iclası yeni təşəbbüslərin irəli sürülməsi, ortaq qərarların qəbul olunması və türk dünyasının gələcək inteqrasiya modelinin strateji parametrlərinin müəyyənləşdirilməsi üçün platforma rolunu oynadı.

Zirvə görüşü zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və görüşdə iştirak edən digər dövlət və hökumət başçılarının Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoymaları da türk dünyasının mənəvi birliyinin ifadəsi kimi tarixə düşdü.

Azərbaycan Prezidenti çıxışında Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək vermis qardaş ölkələrə bir daha təşəkkürünü bildirdi: "Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi - bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq".

### Ailəmiz türk dünyasıdır

TDT 2009-cu ildə Naxçıvanda imzalanmış tarixi Naxçıvan Sazişi ilə rəsmi şəkildə təsis olunub. Təşkilatın ideyası türkdilli xalqlar arasında əsrlərlə formalaşmış siyasi, mədəni və hərbi həmrəyliyə əsaslanır. TDT-nin qurucu dövlətləri Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstandır. 2019-cu ildən isə Özbəkistan da TDT-yə üzv kimi qəbul olunub. 2018-ci ildən Macarıstan, 2021-ci ildən Türkmənistan, 2022-ci ildə isə Şimali Kipr Türk Respublikası TDT-nin müşahidəçi üzvləridir. 2023-cü ildə isə İqtisadi Əməkdaşlıq Təşkilatına TDT-nin müşahidəçi statusu verilib.

TDT dinamik inkişaf edərək fəaliyyət miqyasını sürətlə genişləndirir və bu gün dünyada mövcud olan ənənəvi regional əməkdaşlıq formatlarının heç birinə bənzəmir. Təşkilatın gündəliyi yalnız mədəni və humanitar sahələri əhatə etmir, eyni zamanda strateji təhlükəsizlik, enerji diplomatiyası, innovasiya və texnoloji inkişaf, nəqliyyat-logistika infrastrukturunun inteqrasiyası, kənd təsərrüfatı siyasətinin koordinasiyası, kosmik tədqiqatların təşkili və qlobal ticarət marşrutları üzərində təsir imkanlarının genişləndirilməsi kimi çoxşaxəli istiqamətləri əhatə edir. Bu tendensiya TDT-ni tədricən regional identiklikdən qlobal strateji aktorluğa keçid mərhələsində olan institusional platforma kimi səciyyələndirir.

Azərbaycan Türk Dövlətləri Təşkilatının (TDT) ən fəal və strateji baxımdan həlledici üzvlərindən biri kimi bu qurumun həm təşəkkül tapmasında, həm də müasir mərhələdə institusional inkişafı prosesində mühüm rola malikdir. Ölkə rəhbərliyi səviyyəsində nümayiş etdirilən ardıcıl siyasi iradə Azərbaycanın TDT çərçivəsində həm ideoloji-mənəvi birliyin möhkəmləndirilməsi, həm də praktiki əməkdaşlıq mexanizmlərinin dərinləşdirilməsi istiqamətində aparıcı mövqe tutduğunu təsdiqləyir.

Prezident İlham Əliyev demişdir: "Bizim üçün Türk Dövlətləri Təşkilatı əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır". Dövlətimizin başçısı bu bəyanatı 2024-cü il fevralın 14-də keçirilmiş andiçmə mərasimində səsləndirərək Azərbaycanın türk dünyasına yönəlik xarici siyasət prioritetlərini və identiklik əsaslı geosiyasi mövqeyini qlobal auditoriyaya nümayiş etdirmişdir. Bu fikirlər Azərbaycanın TDT-yə verdiyi mənəvi dəyərin və strateji önəmin ən parlaq ifadəsidir.

Azərbaycan hazırda bu birlik platformasının əsas hərəkətverici qüvvəsi və strateji lokomotivi rolunda çıxış edir. Ölkəmiz təşkilatın çərçivəsində siyasi təşəbbüslərin irəli sürülməsi, yeni əməkdaşlıq istiqamətlərinin formalaşdırılması, eləcə də ortaq layihələrin maliyyələşdirilməsi və idarə olunmasında fəal iştirakı vasitəsilə inteqrasiya prosesinə konkret töhfə verir. Azərbaycanın təşkilatın işinə dəstək məqsədilə TDT Katibliyinin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürməsi də bunun bariz nümunələrindəndir.

Prezident İlham Əliyevin çoxşaxəli təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas konturlarını müəyyənləşdirərək, təşkilatın fəaliyyətinə yeni məzmun və istiqamət qazandırır. Məhz bu ardıcıl və sistemli yanaşma nəticəsində TDT tədricən formal əməkdaşlıq platformasından real təsir gücünə malik beynəlxalq subyektə çevrilir, regional və qlobal miqyasda strateji aktor statusunu möhkəmləndirir.

### Azərbaycanın strateji liderliyi

2024-cü ilin iyul ayında Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və onun nəticəsi olaraq qəbul edilmiş Qarabağ Bəyannaməsi Azərbaycanın Türk Dövlətləri Təşkilatında ideoloji və strateji liderlik rolunu bir daha təsdiqlədi. Həmin sənəd TDT-nin gələcək inkişafı üçün vahid siyasət və qərar qəbuletmə mexanizminin formalaşdırılmasına ehtiyac olduğunu da aydın şəkildə ortaya qoydu. Şuşada keçirilən Zirvə görüşü zamanı Prezident İlham Əliyevin səsləndirdiyi "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməlidir... XXI əsr türk dünyasının inkişaf əsri olmalıdır" fikirləri təşkilatın gələcək missiyasını müəyyən edən strateji vizyon bəyanatı kimi dəyərləndirilir. Bu çıxış türk dövlətləri qarşısında təkcə regional deyil, qlobal miqyasda tarixi hədəflər müəyyənləşdirmişdir.

Həmin Zirvə görüşünün ardınca keçirilən tədbirlər də bu xəttin davamı olmuş, 2024-cü ilin noyabrında Bişkekdə təşkil olunmuş XI Zirvə Görüşü və 2025-ci ilin mayında Budapeştdə baş tutan qeyri-rəsmi Zirvə görüşü TDT-nin institusional yetkinliyinin və geosiyasi nüfuzunun artmasına mühüm töhfə vermişdir. Xüsusilə Budapeşt zirvəsi üzv dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsi, strateji koordinasiyanın genişləndirilməsi və Avrasiya məkanında birgə maraqların qorunması baxımından xüsusi əhəmiyyət daşıyır.

TDT çərçivəsində nəqliyyat və kommunikasiya əlaqələri son dərəcə önəmlidir. Türk dünyasının nəqliyyat, tranzit və kommunikasiya potensialından səmərəli istifadə məqsədilə atılan addımlar beynəlxalq səviyyədə mühüm layihələrin reallaşmasına şərait yaradır.

Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı və regionun ən böyük yükdaşıma aviaşirkəti ilə Azərbaycan beynəlxalq nəqliyyat mərkəzlərindən biri kimi bu prosesə mühüm töhfə verir. Ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısı olaraq, Türkiyə ilə Mərkəzi Asiya arasında iqtisadi, coğrafi və nəqliyyat sahələrində körpü rolunu oynayır. Bunun xoş nəticələrindən biri 2022-ci ildən etibarən Orta dəhlizlə yük daşımalarının təqribən 90 faiz artması, tranzit müddətlərinin isə əhəmiyyətli dərəcədə azalmasıdır.

Bu sahədə daha bir mühüm addım isə Zəngəzur dəhlizinin (TRIPP) açılmasıdır. Dəhliz Orta dəhliz və "Şimal-Cənub" dəhlizlərinin inteqrasiyasını təmin edən yeni nəqliyyat arteriyası qismində regional iqtisadi əlaqələrin gücləndirilməsində xüsusi əhəmiyyət daşıyır. Hazırda Azərbaycan Orta Asiya, Türkiyə və Avropa arasında "yaşıl enerji" dəhlizi üzərində fəal şəkildə çalışır.

Azərbaycan TDT-yə üzv ölkələrlə iqtisadi əməkdaşlığı da gücləndirib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyulmuşdur, əsas hissəsi Türkiyə iqtisadiyyatına yatırılmışdır. Eyni zamanda Azərbaycan Özbəkistan, Qazaxıstan və Qırğızıstanla birgə sərmayə fondları yaradaraq bir sıra layihələrin icrasını təmin edir.

### Tarixi-mənəvi bağlar

Ümumilikdə, həyata keçirilən tədbirlər türk dünyasında iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində əməkdaşlığın dərinləşməsinə və regionun dayanıqlı inkişafına xidmət edir. Ortaq tarixi, etnik və dil kökləri bu əlaqələri daha da möhkəmləndirir. Bu baxımdan Azərbaycan Prezidentinin 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın tarixi əhəmiyyətini xüsusi qeyd etməsi, gələn il I Türkoloji Qurultayın 100 illik yubileyinin TDT çərçivəsində təntənəli şəkildə keçirilməsi təklifini irəli sürməsi Zirvə görüşünün əlamətdar faktlarından oldu. Cənab İlham Əliyevin də bəyan etdiyi kimi, bu tədbir yalnız tarixi irsimizin qeyd edilməsi deyil, həm də türk dünyasında mədəni və elmi inteqrasiyanın simvolu olacaq. Çünki TDT-yə üzv ölkələrin digər sferalar kimi, mədəniyyət, təhsil və informasiya sahələrində əməkdaşlığı da son dərəcə önəmlidir və Azərbaycan bu məsələyə də yüksək diqqət yetirir. Mənzilqərargahları Bakıda yerləşən Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA), Türk Mədəniyyəti və İrsi Fondunun (TMİF) uğurlu fəaliyyəti buna nümunədir.

Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilmiş XII Zirvə Görüşü bir daha göstərdi ki, TDT artıq bu günün və gələcəyin güc mərkəzi kimi qlobal siyasi arenadadır və XXI əsrin türk əsrinə çevrilməsi üçün real, təsirli addımlar atır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

### Vişne KORKMAZ: "Qəbələ Zirvə görüşündə regional sülhə dair konkret təkliflərin irəli sürülməsi mühüm addımdır"

**"Türk Dövlətləri Təşkilatı (TDT) çoxtərəfli əməkdaşlığın bariz nümunəsidir və bu baxımdan liberal qlobal nizam daxilində regional əməkdaşlıq modeli kimi çıxış edir. TDT orta və kiçik dövlətlərin təsir gücünü artırmaq məqsədilə regional koalisiya qurmağa əsaslanan rasional strategiyanın bir hissəsidir. Bu ölkələr "Şimal-Cənub" və "Şərq-Qərb" qlobal ticarət marşrutlarının mərkəzində yerləşdikləri, həmçinin xammal, texnoloji bilik və insan resursu baxımından həm təchizatçı, həm keçid, həm də istehlak bazarı rolunu oynadıqları üçün birlikdə fəaliyyət göstərdikcə qlobal sistemdə təsir güclərini artıracaq, danışıqlardakı mövqelərini isə əhəmiyyətli dərəcədə gücləndirəcəklər".**

Bu sözləri AZƏRTAC-a məxsusi açıqlamasında Türkiyənin İstanbul Nişantaşı Universitetinin professoru Vişne Korkmaz deyib.

O qeyd edib ki, TDT-yə üzv ölkələri birləşdirən regional fəaliyyət prinsipləri mövcuddur və bu prinsipləri həyata keçirə biləcək institusional çərçivə artıq formalaşıb. Xüsusilə Macarıstan və Şimali Kipr Türk Cümhuriyyəti kimi müşahidəçi ölkələrin Avropa və Aralıq dənizi regionları ilə əlaqələrinin koordinasiyalı şəkildə istifadəsi TDT-nin bu bölgələrdə daha güclü danışıqlar mövqeyi əldə etməsinə şərait yarada bilər. Bu baxımdan TDT+ təşəbbüsü əhəmiyyətli imkan kimi qiymətləndirilir. Yeni müşahidəçi və ya tərəfdaş üzvlərin qoşulması təşkilatın təsir və danışıqlar gücünü də genişləndirəcək.

Vişne Korkmaz TDT-nın funksional əməkdaşlığa böyük əhəmiyyət verdiyinə diqqət çəkib. Bildirib ki, TDT ortaq tarixi yaddaşdan və ideyadan, yəni ortaq kimlik və məqsədlərdən bəhrələnir. Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə təhlükəsizlik və regional sülh məsələlərinin daha konkret təkliflərlə gündəmə gətirilməsi son dərəcə əhəmiyyətlidir. Üzv və müşahidəçi ölkələr arasında müdafiə əməkdaşlığının artırılmasına dair təkliflər, məsələn, birgə hərbi təlimlərin təşkili, kəşfiyyat əməkdaşlığının gücləndirilməsi ciddi şəkildə dəyərləndirilməli mühüm təşəbbüslərdir. "Hazırda TDT həm də təhlükəsizlik birliyidir, yəni üzv dövlətlər bir-birləri ilə bağlı məsələləri sülh yolu ilə həll edəcəklərinə dair öhdəlik götürüblər. Təşkilat daxilində bu əməkdaşlıq həm əməkdaşlıqyönümlü təhlükəsizlik formatında, həm də ikitərəfli müdafiə sazişləri (məsələn, Şuşa Bəyannaməsi və digər) çərçivəsində inkişaf edir. TDT-nin real təhlükəsizlik və müdafiə ölçüsünə sahib olması təşkilatın etibarlılığını artıracaq. Bu istiqamət inkişaf etdikcə TDT sülhməramlı missiyalarda və yaxın regionlardakı sabitlik təşəbbüslərində də daha təsirli faktora çevrilə bilər", - deyə professor vurğulayıb.

### "Qəbələ Zirvə görüşü vahid türk ailəsinin formalaşdırılmasında siyasi iradəni nümayiş etdirdi"

**"Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü bünövrəsində xalqların tarixi, mədəni və dil ortaqlığı olan vahid türk ailəsini formalaşdırmaq istiqamətində liderlərin siyasi iradəsini nümayiş etdirdi".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində Türkiyənin Qars şəhərindəki Qafqaz Universitetinin rektoru, professor Hüsnü Kapu deyib.

O, Qəbələ Zirvə görüşünün nəticələrinin digər məsələlərlə yanaşı, türk dövlətləri liderlərinin 2024-cü il iyulun 6-da Şuşada keçirilən qeyri-rəsmi sammiti zamanı əldə edilmiş razılaşmaları möhkəmləndirəcəyinə əminliyini ifadə edib: "Əminəm ki, türk dövlətləri ailəsi sülh, təhlükəsizlik, sabitlik, inkişaf, rifahın artması naminə birləşəcək".

Rektorun sözlərinə görə, Qəbələ Zirvə görüşünün nəticələri rabitə, nəqliyyat və logistikanın inkişafı kontekstində də böyük əhəmiyyətə malikdir. "Biz səmimi olaraq ümid edirik ki, Azərbaycanda aparılan müzakirələr Zəngəzur dəhlizinin işə salınmasının sürətləndirilməsinə, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının tam açılmasına mühüm təkan verəcək", - deyə professor qeyd edib.

O, həmçinin regionda daha dərin iqtisadi əməkdaşlığa təkan verəcək təhsil, ticarət, turizm və nəqliyyat sahələrində investisiyaların daha da stimullaşdırılmasının vacibliyini vurğulayıb.

Hüsnü Kapu keçən ilin sentyabrında Astanada fəal müzakirə zamanı TDT ölkələri arasında maliyyə əməkdaşlığının vacibliyini də qeyd edib. O əlavə edib: "Maliyyə əməkdaşlığı həm də texnoloji və kommunikasiya sektorlarında inkişaf və qarşılıqlı inteqrasiya üçün əsas təşkil edir, həm də investorların mühüm məlumatlara çıxışını asanlaşdırır".

Rektor ümidvar olduğunu bildirib ki, türk dünyasında ali təhsil sistemləri üçün ortaq platforma sürətlə formalaşacaq. "Bu təşəbbüs türk dövlətlərinin gəncləri üçün fəal qarşılıqlı təmaslar qurmaq, gələcəyə ümumi baxış formalaşdırmaq və ölkələrimiz arasında mədəni-humanitar əlaqələrin gücləndirilməsi istiqamətində səyləri stimullaşdırmaq imkanı verəcək", - deyə o bildirib.

Professor bu kontekstdə türk xalqlarının mədəni inkişafında dönüş nöqtəsi olacaq ortaq türk əlifbasının qəbul edilməsinin vacibliyini vurğulayıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## TDT böyük təsir gücünə malik beynəlxalq təşkilata çevrilib

### Prezident İlham Əliyevin təşəbbüsləri təşkilatın yüksəliş strategiyasının əsas istiqamətlərini müəyyənləşdirir

**Azərbaycan Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə türk dünyası ilə bağlı mövqeyini bir daha bütün dünyaya nümayiş etdirdi və təsdiqlədi ki, bizim ailəmiz türk dünyasıdır.**

Zirvə görüşündə səsləndirilən fikirlər Azərbaycanın türk dövlətlərinin birliyinin möhkəmləndirilməsinə yönələn təşəbbüslərinin, qəbul etdiyi qərarların əhəmiyyətinin göstəricisi oldu.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərlə çıxış edir, yeni əməkdaşlıq sahələri yaradır və ortaq layihələrin maliyyələşdirilməsində, idarə olunmasında fəal iştirak edir.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsləri Türk Dövlətləri Təşkilatının inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirir. Məhz bu təşəbbüslər nəticəsində TDT böyük təsir gücünə malik beynəlxalq təşkilata çevrilib. "Prezident İlham Əliyev Qəbələ Zirvə görüşündə təşkilatın gələcək inkişafında, türk dövlətlərinin əlaqələrinin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacaq təkliflərlə çıxış etdi, çağırışlar səsləndirdi. Dövlət başçısı bu gerçəkliyi xüsusi vurğuladı ki, bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir. Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürüb. Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir", - deyə Vüqar Rəhimzadə əlavə edib.

Deputat xatırladıb ki, Prezident İlham Əliyev Qəbələ Zirvə görüşündə diqqəti 30 illik işğal dövrünün gerçəkliklərinə yönəldərək, Vətən müharibəsini şərtləndirən amilləri açıqlayıb, eyni zamanda regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin edilməsi üçün Azərbaycan tərəfinin Ermənistana təklif etdiyi sülh müqaviləsinin imzalanması istiqamətində göstərdiyi səylərdən, ən əsası Vaşinqton razılaşmalarından geniş bəhs edib. Zirvə görüşünün gündəmə gətirdiyi mövzuya diqqət yetirsək görərik ki, Azərbaycanın istər regionda, istərsə də dünyada sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində atdığı addımlar diqqətdən kənarda qala bilməzdi. Digər çıxışlarda da Azərbaycanın regionda sülhə və sabitliyə töhfə verən addımları xüsusi qeyd edildi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısı İlham Əliyevə mükəmməl evsahibliyi üçün təşəkkürünü bildirərək Qəbələ Bəyannaməsinin və qəbul edilən qərarların türk dünyası başda olmaqla, bütün dost və qardaş ölkələrə xeyirli olmasını dilədi. Türk Dövlətləri Təşkilatının Azərbaycan ilə Ermənistan arasında avqustun 8-də imzalanan Birgə Bəyannaməni regionda sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından xeyirli addım olaraq gördüyünü bildirdi, davamının gəlməsini arzuladı. Macarıstanın Baş naziri Viktor Orban isə çıxışında türk dövlətləri arasında bəşəri dəyərlərin qorunduğu, sabitliyin və qarşılıqlı inamın hökm sürdüyü bir mühiti müşahidə etməsindən məmnunluğunu ifadə edərək dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi bərpaolunan enerji layihələrini, sülhə və əməkdaşlığa verdiyi önəmi vurğuladı. Əminliklə bildirdi ki, Azərbaycanın nailiyyətləri, iqtisadiyyatın inkişafı, bərpaolunan enerji resursları və bu sahəyə qoyulan sərmayə Mərkəzi Asiya regionunun və bu regionun Avropa İttifaqının "qızıl ehtiyatı" olduğunun sübutudur.



Vüqar Rəhimzadə deyib ki, Azərbaycan 30 il müharibə şəraitində yaşasa da, daim sülhə, təhlükəsizliyə, əməkdaşlığa çağırışları ilə diqqətdə olub və bunu real addımları ilə təsdiqləyib: "Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir. Azərbaycan həmçinin günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək. O da qeyd edildi ki, hazırda Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa "yaşıl enerji" dəhlizi üzərində işləyir".

Deputat qeyd edib ki, Azərbaycan TDT-yə üzv ölkələrlə bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihə icra ediləcək. Ümumilikdə, atılan addımlar türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir.

Vüqar Rəhimzadə vurğulayıb ki, Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının üzvləri arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığın çox önəmli amillərdən biri olduğunu önə çəkərək, bununla bağlı təklif irəli sürüb. Türk dünyasının birliyinə böyük töhfələr verən Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq yüksək səviyyədədir. Bunun bariz nümunəsi kimi, təkcə son bir ildə Türkiyə ilə birgə 25-dən artıq hərbi təlim keçirilib. Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində önəmli addımlar atılır. "Dövlət başçısı İlham Əliyev ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi. Bu məqamı da xüsusi qeyd etdi ki, bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi tam bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir".

V.Rəhimzadə bildirib ki, Qəbələ Zirvə görüşündə qəbul edilən qərarlar, imzalanan Birgə Bəyannamə Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək. Dövlət başçısı 1926-cı ildə Bakıda təşkil edilmiş I Türkoloji Qurultayın tarixi əhəmiyyətini diqqətə çatdıraraq gələn il Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif etdi.

Deputat qeyd edib ki, Qəbələ Zirvə görüşü türk dünyasının Qarabağın və Şərqi Zəngəzurun bərpasına verdiyi növbəti töhfə ilə də diqqətdə oldu. Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməli qoyuldu. Mərasimdə Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Zirvə görüşündə iştirak edən digər dövlət və hökumət başçıları iştirak etdilər. Bütün bunların və atılan digər addımların fonunda türk dövlətlərinin birliyinin, həmrəyliyinin sarsılmazlığı bir daha təsdiqləndi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Türk yolu olan Orta dəhliz dünyanın ümidinə çevrilib

**Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün nəticələri dünyada diqqətlə təhlil olunur. Səbəb sadədir - iki qütbə bölünən dünyada yeni güc mərkəzi yaranır. Hər iki tərəfdə aydın başa düşülür ki, gələcək dünya düzəninə yön verilərkən qərarların qəbulunda TDT-nin hansı mövqe tutması nəzərə alınmalıdır.**

Qəbələ Zirvəsi bir daha dünyaya göstərdi ki, bu təşkilat təkcə eyni tarixi köklərə malik xalqların mədəni həmrəylik qurumu deyil. Prezident İlham Əliyevin dediyi kimi, Türk Dövlətləri Təşkilatı həm də ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilat mükəmməl mexanizmlər quraraq müəyyən etdiyi hədəflərə çatmaq üçün dəqiq yol xəritəsi hazırlayıb. Bu hədəflər bizi nə qədər qürurlandırırsa, bizə qarşı olanları bir o qədər qorxudur. İndidən bir sıra ölkələrin kütləvi informasiya vasitələri TDT-yə qarşı qarayaxma kampaniyasına başlayıblar. Bu, ilk növbədə, uzun illər türk dünyasını istədikləri kimi idarə edən və onun böyüklüyünü, tarixi keçmişini və əzəmətini unutdurmağa çalışanları rahatsız edir. Çünki onların yuxarıdan aşağı baxmağa alışdıqları türk dünyası siyasi, iqtisadi, maliyyə imkanları ilə yanaşı, hərbi gücə də çevrilir.

Xəritəyə nəzər saldıqda bütün türk dövlətlərinin dünyanın ən önəmli tranzit ölkələri olduqlarını görməmək mümkün deyil. Türk dövlətləri həmçinin logistik imkanları ilə dünyanın vaz keçə bilmədiyi bir coğrafiyadır. O üzdən birliyin yerləşdiyi coğrafiya həm də geosiyasi baxımdan o qədər əhəmiyyətlidir ki, iki qütbə bölünən siyasi və hərbi güclər TDT ölkələri ilə əməkdaşlıq münasibətləri qurmaq zorundadırlar. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Qəbələ Zirvə görüşündə xüsusi önəm verdiyi məsələlərdən biri də türk dövlətlərinin beynəlxalq logistika mərkəzinin olmasını vurğulamasıdır. Bununla bağlı Prezident İlham Əliyev çıxışında demişdir: "Əziz dostlar, nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır. 2022-ci ildən bəri Orta dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib. Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin (TRIPP) açılmasıdır. Zəngəzur dəhlizi həm Orta dəhliz, həm də "Şimal-Cənub" dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir".



Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də Qəbələ sammitində Orta dəhlizin inkişafını və onun Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu və Trans-Əfqan dəhlizi layihələri ilə əlaqələndirilməsini dəstəklədiyini bəyan etdi. Dövlət başçısı regional logistikanın səmərəsini artırmaq üçün gömrük prosedurlarının rəqəmsallaşdırılmasının və tariflərin optimallaşdırılmasının vacibliyini vurğuladı. Eyni zamanda Türk İnvestisiya Fondunun fəaliyyətinin genişləndirilməsi, beynəlxalq və milli maliyyə institutları ilə əməkdaşlıq proqramının qəbul edilməsi təklifini irəli sürdü.

"Qəbələ Zirvəsində, eləcə də Vaşinqton Zirvəsinin önəmli qərarlarından biri - Zəngəzur dəhlizinin (TRIPP) gündəmə gətirilməsi olduqca vacib məsələdir. Belə ki, bu dəhliz Orta dəhliz və "Şimal-Cənub" marşrutları arasında yeni nəqliyyat arteriyası formalaşdırır və regionun iqtisadi dinamikasına əlavə güc qazandırır. Zəngəzur vasitəsilə yaranacaq yeni marşrutun fəaliyyəti regional inteqrasiyanı dərinləşdirməklə yanaşı, həm də Avrasiya məkanında ticarət əlaqələrinin coğrafiyasını genişləndirəcək" deyən TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev qeyd etdi ki, Zəngəzur dəhlizinin (TRIPP) təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, türk dünyasını geosiyasi səviyyədə gücləndirəcək.

Məlumat üçün bildirək ki, Qəbələ Zirvəsində adıçəkilən Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu (CKU) Orta Asiyada və daha geniş Avrasiya məkanında ən iddialı infrastruktur layihələrindən biridir. CKU texniki cəhətdən çox sərt dağlıq relyeflərindən keçən təkxətli magistral olmaqla yanaşı, iqtisadi cəhətdən son dərəcə səmərəli yoldur. Həmin layihə Orta Asiyanın dənizə çıxışı olmayan ölkələri üçün geniş imkanlar açacaq, Çinin Avropa ilə əlaqəsini şaxələndirən və Orta dəhliz kimi multimodal marşrutu gücləndirən yeni ticarət arteriyası olacaq. Bu da dəhlizin yükgötürmə qabiliyyətinin daha da artmasına əlavə stimul verəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## "Stratfor"un təhlili:

## Cənubi Qafqazda geosiyasi konfiqurasiyanın yeni cizgiləri

**Hazırda qlobal miqyasda baş verən proseslərlə bağlı əsaslı proqnozlar vermək olduqca çətindir. Bu, bütövlükdə geosiyasi mənzərənin risklər və qeyri-müəyyənliklərlə müşayiət olunması, həmçinin onların vahid nəzəri çərçivəyə salınmasının getdikcə mürəkkəbləşməsi ilə izah olunur. Bununla belə bir sıra nüfuzlu "beyin mərkəzləri" müəyyən geosiyasi məkanlara dair proqnozlar verə bilirlər. Məhz bu kontekstdə ABŞ-nin "Stratfor" analitik mərkəzi Cənubi Qafqaz regionuna dair bir sıra proqnostik tezislər irəli sürüb. Biz onların üzərində bir qədər geniş dayanmağa ehtiyac gördük.**

### "Beyin mərkəzi"nin yanaşma özəlliyi

"Stratfor"un regiondakı geosiyasi dinamikanın təhlilinə yanaşması universal xarakter daşımır. Bu "beyin mərkəzi" Azərbaycan, Gürcüstan və Ermənistanla bağlı təhlilini əsasən avqustun 8-də Vaşinqtonda ABŞ-nin iştirakı ilə paraflanmış Azərbaycan-Ermənistan sülh müqaviləsi kontekstində aparıb. Bu da təbii olaraq, təhlil və proqnozun məzmununa əvvəlcədən konkret yön verir və fikirlərin müəyyən bir istiqamətdə fokuslanmasına səbəb olur (bax: What To Make of the U.S.-Brokered Peace Deal Between Armenia and Azerbaijan / "Stratfor", 13 avqust, 2025).

Təhlilin qısa təqdimatından görünür ki, "Stratfor" Cənubi Qafqaz ölkələrinin geosiyasi mövqeyinə və taleyinə Vaşinqtonun gözü ilə baxır. Bu zaman bir neçə prinsipial məsələni önə çəkir.

Birincisi, ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında keçirilən görüşün nəticələrinin yalnız Cənubi Qafqazda deyil, daha geniş geosiyasi məkanda da proseslərin məzmununu və ümumi mənzərəsini dəyişəcəyinə dair inam ifadə olunur.

İkincisi, bu gedişatın təkcə Cənubi Qafqaz ölkələrinin geosiyasi mövqeyinə deyil, həm də Türkiyə, Rusiya və İran kimi böyük dövlətlərin də Avropa-Qafqaz-Mərkəzi Asiya kontekstində mövqelərinə təsir edəcəyi proqnozlaşdırılır.

Üçüncüsü, Cənubi Qafqaz ölkələrinin və Türkiyə, Rusiya və İranın hər biri üçün fərqli geosiyasi situasiyanın formalaşacağı qeyd olunur.

Vurğulanan prinsiplərin qarşılıqlı əlaqəsi prizmasından "Stratfor", həqiqətən, düşündürücü proqnozlarla çıxış edib.

### Azərbaycan regional liderliyini möhkəmləndirəcək

"Stratfor" Azərbaycanın birmənalı olaraq uğurlarını daha da artıraraq regional liderliyini möhkəmləndirəcəyini və bu prosesdə regionun aparıcı dövləti statusunu qoruyub saxlayacağını proqnozlaşdırır. Bunun əsas səbəbləri kimi iki faktor göstərilir - əvvəla, Azərbaycan çox mühüm hərbi qələbəyə nail olub və müharibədən sonrakı mərhələdə fəal əməkdaşlıq və təhlükəsizlik siyasəti yeridir, ikincisi, Azərbaycanın əsas siyasi müttəfiqi olan Türkiyənin mövqeyinin daha da möhkəmlənməsi üçün onun NATO-dakı müttəfiqi ABŞ ciddi səylər göstərir (bax: əvvəlki mənbəyə və Armenia and Azerbaijan: Peace or Pause? // "Clingendael" Niderland Beynəlxalq Münasibətlər İnstitutu, sentyabr, 2025). Bunun fonunda Azərbaycan proseslərin hansı dinamika ilə inkişaf etməsindən asılı olmayaraq iki, aspektdə dividend qazanacaq. Birincisi, regional mövqeyini daha da möhkəmləndirəcək, ikincisi, daha geniş coğrafiyada təsir gücünü artıracaq.

Bu prosesdə Azərbaycan Türkiyə ilə tandemdə hərəkət edəcək. Qəribədir ki, təhlildəki bu məqam Azərbaycanda ekspertlərin diqqətindən kənarda qalıb. Halbuki "Stratfor"un Azərbaycanla bağlı qiymətləndirməsində Türkiyə faktoru mühüm yer tutur. Bu baxımdan geniş geosiyasi məkan üçün ciddi əhəmiyyəti olan bir özəlliyi vurğulamaq lazımdır.

### Azərbaycan və Türkiyə Orta dəhliz kontekstində

"Stratfor"un hesabatında türk ticarət və infrastrukturunun inkişafı birbaşa Orta dəhliz kontekstində nəzərdən keçirilir. Azərbaycan da məhz həmin aspektdə enerji və kommunikasiya mərkəzi rolunu gücləndirəcək ölkə olaraq təqdim edilir. "Beyin mərkəzi" bu prosesə bütövlükdə ABŞ ilə Türkiyənin birgə fəaliyyəti rakursundan yanaşır.

Ekspertlərin bu özəlliyi nəzərə almaması (və ya süni şəkildə nəzərdən qaçırması), əslində, Azərbaycanın geosiyasi statusu baxımından olduqca əhəmiyyətli bir faktoru arxa plana atmaq deməkdir. Çünki Azərbaycanın regional funksiyasının Orta dəhliz kontekstində və ABŞ ilə Türkiyə kimi güclü dövlətlərin ortaq fəaliyyətində mühüm yer tutan qüvvə olaraq təqdim edilməsi artıq ölkəmizin qlobal səviyyədə geosiyasi status əldə etdiyini göstərir. Azərbaycan regional lider kimi indi daha geniş məkanlarda söz sahibidir və bu zaman Amerika ilə Türkiyə onun maraqlarını gözləyərək hərəkət edirlər. "Stratfor" kimi nüfuzlu bir "beyin mərkəzi"nin bu özəlliyi vurğulaması, əlbəttə, Azərbaycan rəhbərliyinin böyük uğurlarından biridir.

Əslində, "Stratfor" Ermənistan, Gürcüstan, Rusiya və İran məsələlərini də həmin həqiqəti qəbul edərək qiymətləndirir. Onların hər birinin üzərində ayrı-ayrılıqda dayanmağa çalışaq.

### Ermənistanın bəzi siyasi dairələri hələ də reallığı dərk etmir

"Stratfor" bu ölkənin təhlükəsizliyi ilə bağlı yeni balans axtarışında olduğu qənaətini vurğulayır. Konkret olaraq, rəsmi İrəvan Rusiyadan uzaqlaşmağa, İranla müəyyən məsafə saxlamağa və Azərbaycan-Türkiyə tandemi vasitəsilə ABŞ ilə yaxınlaşmağa cəhd edir.

Hələlik bu istiqamətdə qalıcı və konkret nəticə yoxdur, lakin Ermənistanın bundan başqa çıxış yolu qalmayıb. Belə bir vəziyyətin yaranmasına ölkə daxilindəki qeyri-stabil durum da təsir etməkdədir. Ermənistan rəhbərliyi birtəhər həmin aspektdə sabitliyi təmin edə bilir. Ancaq bunun nə qədər davam edəcəyi məlum deyil. Bu barədə ekspertlər də öz fikirlərini bildirirlər.

Lakin qəribədir ki, Ermənistanın ekspert dairələri ölkənin düşdüyü bu vəziyyəti Azərbaycanın mümkün "aqressiyası" ilə izah etməyə çalışır və bu müddəanın qaynağı kimi "Stratfor"a istinad edirlər (bax: Stratfor: Oslablenie svəzey s Rossiey delaet Armeniö uəzvimoy pered aqressiey Azerbaydjana//"Qolos Armenii", 29 sentyabr, 2025).

Belə görünür ki, Ermənistanın siyasi şüurunda və ekspert dairələrində hələ də reallığı adekvat dərk edə bilməyən kəsimlər mövcuddur.

### Gürcüstanda qeyri-müəyyənlik var

Son illərdə ilk dəfədir ki, Qərbin "beyin mərkəzləri" Gürcüstan haqqında müsbət proqnozlar vermirlər. "Stratfor" da istisna olmadı. Bu "beyin mərkəzi" Gürcüstanı tərəddüd edən, bir mövqedən digərinə "sürüşə bilən" ölkə kimi xarakterizə edir. Xüsusilə bu ilin oktyabrında keçirilmiş bələdiyyə seçkisindən sonra Gürcüstanın daha qeyri-müəyyən və tərəddüdedici vəziyyətə düşə biləcəyindən bəhs edilir.

Bu qeyri-müəyyənliyin fonunda təbii ki, Tbilisinin Vaşinqton, Ankara, Moskva və Tehran arasında gərgin mübarizə meydanına çevrilə biləcəyi nəticəsini çıxarmaq çətin deyildir.

Əlbəttə, hər bir təhlil və proqnoz tam əhatəli ola bilməz və buna görə də proqnozlar nisbidir. O, müəyyən dairələrin baxışı kimi maraq doğurur. Görünür, "Stratfor" artıq Azərbaycanla Ermənistan arasında Vaşinqtonda əldə edilən razılaşmaları davamlı faktor kimi qəbul edir, bunun fonunda geniş geosiyasi məkanda proseslərin məntiqinə nəzər salır və uyğun nəticələr çıxarır.

Bizim üçün önəmli olan artıq Azərbaycanla bağlı müsbət tezislərin irəli sürülməsinin davamlı xarakter almasıdır. Çünki bu, faktiki olaraq, İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi tarixi Zəfərin dünya miqyasında ciddi geosiyasi dəyişiklik olmasının qəbul edilməsinin əlamətidir. Öz növbəsində həmin müsbət tendensiya Azərbaycanın regional və qlobal geosiyasi proseslərdə daha yüksək statusa sahib olmasının göstəricisidir. Bu baxımdan "Stratfor"un proqnozları düşndürücü və əhəmiyyətlidir.

*Kamal ADIGÖZƏLOV,*
*beynəlxalq münasibətlər üzrə ekspert*



# Azərbaycan-Rusiya münasibətlərində yeni səhifə

**Oktyabrın 9-da Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü iki ölkə arasında 11 ay davam edən gərginliyə son qoymaqla münasibətlərdə yeni mərhələnin başlanğıcını qoydu.**

Məlum olduğu kimi, münasibətlərin gərginləşməsinə səbəb Bakı-Qroznı marşrutu üzrə hərəkət edən "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin Qroznı şəhərinə yaxınlaşarkən Rusiyanın "Pantsir-S" HHM sistemi tərəfindən vurulması olmuşdur. İlk gündən Azərbaycan tərəfi 38 nəfərin ölümü ilə nəticələnən bu bədbəxt hadisənin qəsdən edilmədiyini xüsusi olaraq qeyd etməklə bəzi məqamları nəzərə alaraq Rusiya tərəfinin Azərbaycan təyyarəsinin vurulmasını etiraf etməsini, tam araşdırma aparılaraq Azərbaycan xalqından rəsmən üzr istənilməsini və bütün günahkarların məsuliyyətə cəlb olunmalarını şərt olaraq irəli sürmüşdü.

Əslində, böyük faciəyə səbəb olan, çoxsaylı insan itkisi ilə nəticələnən faciəvi hadisəyə görə qarşı tərəf bunu etməyə borclu idi. Əgər Rusiya bunu vaxtında etsəydi, həm insanlıq, həm də beynəlxalq hüquq normalarına uyğun bir davranış olardı. Amma Rusiya tərəfi bunu etmədi və Azərbaycan-Rusiya münasibətləri son bir ildə arzuolunmaz səviyyəyə düşdü.

Bu məqamda qeyd etməliyik ki, iki ölkə arasında münasibətlərin arzuolunmaz məcraya enməsində Rusiyada fəaliyyət göstərən ermənipərəst media qurumlarının da az əməyi olmadı. İllərdir Azərbaycan-Rusiya münasibətlərini gərginləşdirmək və Moskvanın siyasətini erməni lobbisinin maraqları istiqamətinə yönəltmək üçün çalışan Simonyan, Solovyov, Zatulin kimi muzdlu propaqandistlərin əlinə fürsət düşmüş oldu. Yaranmış gərginlikdə öz çirkin maraqlarını təmin etməyə çalışan təxribatçı ünsürlər Azərbaycan diasporuna qarşı təzyiqlərin artırılması yönündə xüsusi kampaniya başladaraq münasibətləri daha da korlamağa çalışdılar.

Azərbaycan tərəfi isə həmişə olduğu kimi, bu dəfə də səbir və qətiyyətlə davrandı. Bütün cəhdlərə, çirkin, feyk informasiya müharibəsinə baxmayaraq, ölkəmiz beynəlxalq hüquq qaydalarına uyğun davranış nümayiş etdirərək öz prinsipial mövqeyindən geri çəkilməyəcəyini də qarşı tərəfin diqqətinə çatdırdı. Tələb haqlı və qətiyyətli idi - təyyarəmizin vurulması etiraf olunmalı, Azərbaycan xalqından və dövlətindən üzr istənilməli, dəymiş ziyana görə kompensasiya ödənilməlidir. III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə Prezident İlham Əliyev bu barədə demişdir: "Təyyarəni vuranlar cəzalandırılmalı, qurbanların ailələrinə təzminat ödənilməlidir. AZAL-ın özünə də təzminat ödənilməlidir. Daha çox təfərrüat eşitmək istəyirsinizmi? Danışa bilərəm. Bizim pilotlar cəsarət və peşəkarlıq göstərdilər. Təyyarə qəza enişi etdi. Pilotların sayəsində sağ qalanlar oldu. Təyyarə kənardan vurulmuşdu".

Hər zaman olduğu kimi, möhkəm iradə və qətiyyət, səbirli davranış və prinsipial mövqe bu dəfə də ədaləti təmin etdi. Düşənbə görüşü iki dövlət arasında gərginliyi davam etdirmək istəyən qüvvələrin planlarını alt-üst etdi. Görüş zamanı Vladimir Putin mühüm açıqlamalar verdi. Rusiya lideri faciəli hadisə baş verən gün Qroznının hava məkanına müdaxilələr olduğunu vurğulayaraq, Rusiya HHQ tərəfindən atəş açıldığını etiraf etdi. Onun sözlərinə görə, atəş təyyarəyə açılmasa da, qəlpələr təyyarəyə dəyib. Rusiya Prezidenti bununla əlaqədar kompensasiyaların ödəniləcəyini və günahkarların cəzalandırılacağını xüsusi vurğuladı: "Hələ ilk telefon danışığımızda mən bu faciənin məhz Rusiyanın səmasında baş verməsinə görə üzr istəmiş, həlak olanların ailələrinə səmimi başsağlığı vermişdim" deyən Rusiya Prezidenti "Bunu indi də təkrar edirəm" söylədi və birmənalı olaraq qeyd etdi ki, həlak olanların ailələrinə kompensasiya ödəniləcək və hadisəyə görə məsul şəxslər cəzalandırılacaq.

Dövlət başçıları arasındakı görüş təkcə iki liderin təmas nöqtəsi deyil, Azərbaycan-Rusiya münasibətlərində gərginliyin yumşaldılması və yeni diplomatik mərhələnin başlanğıcı deməkdir. Sözsüz ki, bu, Azərbaycanın şərtlərinin qəbulu kimi yox, ədalətin zəfəri kimi qəbul edilməlidir.

Azərbaycan və Rusiya prezidentlərinin görüşü və aparılmış müzakirələr ikitərəfli münasibətlərin artıq normal məcraya yönəldiyini göstərdi. Düşənbə görüşü bir daha təsdiq etdi ki, Rusiya və Azərbaycan aralarında olan istənilən problemi həll etmək iqtidarındadırlar və Azərbaycan kimi, Rusiya da qonşusu ilə normal münasibətlərin saxlanılmasında maraqlıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Prezidentlərin görüşü münasibətlərin normallaşdığını göstərir

**"Bu gün region dediyimiz zaman, bunun artıq Cənubi Qafqazın sərhədlərindən kənara çıxdığını müşahidə edirik. Azərbaycanın əldə etdiyi Zəfər regionun siyasi və iqtisadi xəritəsini dəyişdiyi üçün biz bu genişlənmənin şahidiyik. Prezident İlham Əliyev məhz bu cür yanaşma ortaya qoymuşdu ki, region təkcə Cənubi Qafqazı deyil, daha geniş coğrafiyanı əhatə edir. Əsas məsələ odur ki, burada mərkəzi nöqtə məhz Azərbaycandır".**

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev reallıqları hər zaman olduğu kimi qəbul edir, məhz dəyişməz amillər üzərindən hesablamalar aparır, bu reallıqların müsbət tərəflərindən tutmağı bacarır: "Dəyişməz coğrafi mövqe amilinin müsbət tərəfi qədər, mənfi yanları da var. Bəzən istənməsə belə bu amil tərəfləri uğur qədər, uğursuzluqlara da məruz qoyur. Lakin coğrafiyadan xoş niyyətlər üçün istifadə olunmalıdır. Rusiya-Azərbaycan münasibətləri məhz bu reallıq üzərində qurulub. Zaman-zaman mənfi təcrübə yaşansa da, hər iki tərəf çalışır ki, vəziyyətdən çıxış yolları tapılsın. Çünki əvvəl-axır gəlinəcək tək yoldan daha çox yaşanacaq bir müştərək regionumuz var".



Azərbaycan cəmiyyətini dərindən sarsıdan təyyarə qəzasını xatırladan deputat buna görə hər kəsin ilkin olaraq qarşı tərəfdən üzr gözlədiyini bildirib. Digər tərəfdən, hadisə ilə bağlı Rusiyanın məsuliyyəti üstlənməsi gözlənilirdi. Kompensasiya və günahkarların cəzalandırılması kimi sonuncu şərtlərdə də Rusiya qətiyyət, hətta təkid göstərməli idi.

Uzun sürən neqativ ab-havadan sonra nəhayət ki, Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında Düşənbədə çoxdan gözlənilən görüş keçirildi. Görüş hər şeydən öncə sübut etdi ki, Azərbaycan liderinin və xalqının yanaşmasına da, duruşuna da hörmət var. Məhz bunu əyani sübut edən amil Rusiya liderinin bu məsələyə yanaşması idi. Bu onu deməyə əsas yaradır ki, Azərbaycanın şərtləri mahiyyət etibarilə artıq qəbul olunub. "Rusiya lideri vurğuladı ki, ilkin telefon danışığında təyyarə qəzasının Rusiya səmasında baş verdiyinə görə üzr istənildi və həyatını itirən şəxslərin ailələrinə ən səmimi başsağlığını bildirdi. İstintaqın obyektiv yekunlaşması üçün bütün zəruri köməyin ediləcəyini bildirən Rusiya lideri bu məsələnin üzərində bir neçə dəfə dayandı. Putinin mövcud açıqlamaları təyyarə qəzası ilə əlaqədar məsələlərin aydınlıq qazandığı mənasına gəlir", - deyə deputat əlavə edib.

A.Badamov deyib ki, liderlər arasında keçirilən görüş və təmaslar ikitərəfli münasibətlərin normallaşdığını göstərir. Nəticə etibarilə münasibətlərə mənfi istiqamət verən meyillərdən uzaq durmaq ən məqbul variantdır. Putinin açıqlamaları Azərbaycanla Rusiya arasında münasibətlərə zərbə vurmağa çalışan, mənfi ab-havanın davam etdirilməsində maraqlı olan, dəridən-qabıqdan çıxan Simonyanın, Solovyovun, Zatulinin və başqa ermənipərəstlərin çirkin məqsədlərinə nail ola bilmədiklərini də göstərdi.

Azərbaycanın Cənubi Qafqazda yeni reallıqlar yaratmış dövlət olduğunu vurğulayan deputat deyib ki, məsələ həm də ondan ibarətdir ki, dövlət və xalq olaraq nə müharibələrdə maraqlı olmuşuq, nə də xarakterimizdə düşmənçilik var. Xalqımız qürurlu xalqdır, göstərdiyi münasibətə adekvat münasibət gözləyir. Digər yandan Rusiya ilə Azərbaycanı mədəni, tarixi amillər birləşdirir, cəmiyyətlərimiz bir-birinə inteqrasiya olunub. Bu reallıq heç bir halda müsbət münasibətlərdən yayınmağa imkan vermir.

Deputat qeyd edib ki, son 10 ayda Azərbaycanla Rusiya arasındakı siyasi münasibətlərdə müəyyən gərginlik yaşansa da, ticari-iqtisadi münasibətlərdə hansısa bir ləngimə baş verməyib: "Belə ki, cari ildə ölkələrimiz arasında ticari-iqtisadi əməkdaşlıq nəinki azalmayıb, hətta keçən ilin müvafiq dövrü ilə müqayisədə 16 faiz artım baş verib. Bu, yaxın qonşu, dost və çox inteqrasiya olunmuş iki ölkə arasındakı münasibətlərə heç bir qüvvənin təsir etmək gücündə olmadığını bir daha təsdiq edir. Yaşanmış bu gərginlik də bir sınaq idi. Dövlət başçılarının qətiyyətli siyasi iradəsi bu imtahanı da yaxşı keçməyimizə yol açdı".

A.Badamov bildirib ki, regionun iqtisadi baxımdan dirçəldilməsi son dərəcə vacibdir. Azərbaycan "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin mərkəzində yerləşir. Mərkəzi Asiya dövlətləri Rusiyanın xarici siyasətində önəmli yerdə dayanır. Məhz bu region vasitəsilə qurulan əlaqələrdə Azərbaycan əsas halqalardan biridir. Rusiya Azərbaycanla ticarət dövriyyəsinin artırılmasında maraqlıdır. Görüşdə Rusiya Prezidenti bildirdi ki, Azərbaycanla əməkdaşlığın müttəfiqlik ruhunda "nəinki bərpa ediləcəyinə, əksinə, davam edəcəyinə" ümid edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Zamana adekvat təkliflər

**Hazırda beynəlxalq səviyyədə güc oyunları, geosiyasi üstünlük uğrunda ciddi mübarizə gedir, qanlı müharibələr aparılır, yeni münaqişə ocaqları alovlandırılır. Bütün bunlar siyasi şərhçilər, politoloqlar tərəfindən bəşəriyyətin Üçüncü Dünya savaşının astanasında olması ilə bağlı dəhşətli proqnozlarla müşayiət olunur. Dünyanın siyasi böhranla, qarmaqarışıqlıqla çalxalandığı bu mürəkkəb dövrün fonunda isə türk dünyasının birliyinin vacibliyi qabarıq şəkildə ön plana çıxır.**

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən XII Zirvə Görüşü zamanı bu məsələnin vacibliyini aşağıdakı fikirləri ilə bir daha gündəmə gətirdi: "Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir".

## Geosiyasi mərkəz

Bu mənada Qəbələdə keçirilən və "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr edilən XII Zirvə Görüşü mühüm əhəmiyyəti ilə diqqət çəkdi. Qurumun üzv və müşahidəçi ölkələrinin dövlət və hökumət başçılarını, eləcə də onların nümayəndə heyətlərini bir araya gətirən Qəbələ Zirvəsi bölgədə, eləcə də beynəlxalq miqyasda aktual məsələləri müzakirə etməyə, əməkdaşlığı gücləndirməyə, həmçinin türk dünyasında birliyi, sülhü və rifahı daha da irəli aparmaq məqsədilə mühüm sənədləri təsdiq etməyə geniş imkan yaratdı. Eyni zamanda tarixi toplantıda qəbul olunan sənədlər və XII Zirvə Görüşünün Bəyannaməsi təşkilatın qarşıdakı fəaliyyəti üçün strateji istiqamət oldu.

Türk dünyasının birləşdirici gücü və lokomotivi olan Azərbaycan türkdilli dövlətlər arasındakı əlaqələrin daha da möhkəmlənməsi və dərinləşməsi üçün hər zaman bu istiqamətdəki proseslərə öndərlik edir. Qarabağda qazandığı zəfərlə bölgədə sülhü təşviq edən, yeni gerçəkliklər yaradan, Zəngəzur dəhlizinin (TRIPP) reallığa çevrilməsini təmin edən, hərbi-siyasi-diplomatik



qələbəsi ilə türk dünyasının etnosiyasi coğrafiyasını bərpa edən ölkəmiz əsası Naxçıvanda qoyulan TDT-nin dünya nüfuzlu təşkilata çevrilməsi üçün də mühüm addımlar atır. Ölkəmizin təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürməsi də bu qəbildəndir.

"Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir", - deyə TDT-nin Dövlət Başçıları Şurasının XII Zirvə Görüşündəki çıxışında Prezident İlham Əliyev söylədi.

Ölkəmizin rəhbəri vurğuladı ki, bunun üçün təşkilat böyük potensiala malikdir.

Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.

## Müstəqilliyin və ərazi bütövlüyünün əsas amili

Prezident İlham Əliyevin TDT-nin Dövlət Başçıları Şurasının XII Zirvə Görüşündə etdiyi çıxışını, verdiyi təklifləri türk birliyinin iqtisadi, siyasi, mədəni, hərbi sahədəki fəaliyyət planı kimi də dəyərləndirmək olar. Azərbaycan Prezidenti irəli sürdüyü və zamanın tələbləri ilə səsləşən mühüm təklifləri ilə bir növ türkdilli dövlətlərin birgə hədəflərinin xəritəsini cızdı.

Türk birliyinin sarsıdıcı gücə sahib olduğunu 44 günlük Vətən müharibəsi zamanı əyani şəkildə görmüş olduq. Həmin zaman türkdilli ölkələrin siyasi, mənəvi dəstəyini hiss etməsi haqq işi uğrunda mübarizə aparan Azərbaycanı istər döyüş meydanında, istərsə də diplomatik müstəvidə daha güclü və məğlubedilməz etdi. Bununla bir daha əmin olduq ki, baş verən qlobal siyasi böhranlara, milli maraqlarımıza təhdid olan bütün güclərin qarşısına türkün güclü birliyi ilə cavab vermək dövlətlərimizə əlavə qüvvət verir və qalibiyyətə aparır. Həmçinin dövlətlərimiz arasında hərbi əməkdaşlıq xüsusilə dünyanın hazırkı qarışıq mənzərəsində ən vacib məsələ kimi qarşıya çıxır.

Qəbələ Zirvəsində ölkəmizin rəhbəri də bu məqama diqqət çəkdi: "Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir".

Prezident İlham Əliyev ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif etdi: "Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir".

## Türk irsinin qorunmasına xidmət edən təşəbbüs

Türk dünyasının birliyinə nail olmaq babalarımızdan bizə ötürülən mənəvi mirasdır desək, yanılmarıq. Ötən əsrin əvvəllərində sözügedən yolda külüng çalan neçə-neçə fikir adamı, şair və yazıçılarımızın bu uğurda qanlı imperiyanın amansız repressiyalarının qurbanlarına çevrilmələri kimi ağrı-acılı tariximiz var. Ancaq bütün təzyiq, təhdid və təhlükələrə baxmayaraq, bu müqəddəs ideya heç zaman itmədi və günümüzün güclü və qürurlu türk birliyinin timsalında gerçəyə çevrildi. 1926-cı ildə I Türkoloji Qurultayın Bakıda təşkil edilməsi, Türk Dövlətləri Təşkilatının təməlinin 2009-cu ildə Naxçıvanda qoyulması, 2020-ci il Vətən müharibəsi sayəsində türk dünyasının etnosiyasi coğrafiya cəhətdən də birləşdirilməsi ölkəmiz və xalqımız adına tarixi əhəmiyyət daşıyan hadisələr silsiləsidir.

Qarabağ Zəfərinin 5 illiyi ilə üst-üstə düşən TDT-nin Qəbələ Zirvə görüşündə Prezident İlham Əliyev toplantı iştirakçılarının nəzərinə çatdırdı ki, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir: "Burada 1926-cı ildə Bakıda təşkil edilmiş I Türkoloji Qurultayın tarixi əhəmiyyətini bir daha vurğulamaq istərdim".

Azərbaycan lideri gələn il I Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif etdi.

Prezident İlham Əliyevin toplantıdakı çıxışı zamanı səsləndirdiyi vacib əhəmiyyətli təkliflər türk birliyinin əbədi və sarsılmaz olmasına, türk irsinin qorunmasına xidmət edən təşəbbüslərdir. Həmçinin bu təkliflər böyük türk dünyası ailəsinin həmrəyliyinin daha yüksək zirvələrə daşınmasına mühüm töhfələrdir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## "Rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 295** **Bakı şəhəri, 8 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla) fəaliyyətinin qiymətləndirilməsi meyarları" təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi və yerli icra hakimiyyəti orqanları (ali kateqoriya dövlət orqanları, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanları, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri istisna olmaqla), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları rəqəmsal inkişaf və elektron hökumətlə bağlı görülən işlərin və həyata keçirilən tədbirlərin icrasına məsul vəzifəli şəxslərin fəaliyyətinin bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən meyarlar əsasında illik qiymətləndirməsinin nəticələrini təsdiqedici sənədlərlə birlikdə hər növbəti təqvim ilinin yanvar ayının 30-dək Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 aprel tarixli 1315 nömrəli Fərmanının 1-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə təqdim etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# FHN-in Akademiyasında gənc kursantların hərbi andiçmə və məzunların buraxılış mərasimi keçirilib

**Oktyabrın 10-da Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasında gənc kursantların hərbi andiçmə və məzunların təntənəli buraxılış mərasimi olub.**



AZƏRTAC xəbər verir ki, mərasimdə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, nazir müavinləri və nazirliyin məsul vəzifəli şəxsləri, FHN yanında İctimai şuranın üzvləri, FHN Akademiyasının müəllim və professor heyəti, kursantları və onların valideynləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə, mərasim iştirakçıları FHN-in Akademiyasının həyətində ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Sonra FHN-in Akademiyasının bayrağı təntənəli surətdə meydana gətirilib.

Daha sonra FHN-in Akademiyasına yeni qəbul olmuş kursantlar hərbi and içiblər.

Mərasimdə çıxış edən fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov kursantları, məzunları və onların valideynlərini təbrik edib. Nazir builki mərasimin ölkəmizdə yaranmış yeni ruh yüksəkliyi şəraitində keçirildiyini diqqətə çatdıraraq deyib: "Bu il xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən 44 günlük Vətən müharibəsində əldə etdiyimiz misilsiz Qələbənin 5 ili tamam olur. Bu Qələbə Azərbaycan dövlətinin qüdrətini, rəşadətli Azərbaycan Ordusunun gücünü, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrikliyini və sarsılmaz qətiyyətini bir daha bütün dünyaya göstərdi. Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən edilir. Ümummilli Lider Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə təhsilin inkişafı üçün ciddi addımlar atıb. Bu gün Heydər Əliyev siyasətinin davamçısı, Prezident İlham Əliyev təhsilin müasirləşməsinə və inkişafına böyük diqqət yetirir. Dövlətimizin başçısının təşəbbüsü ilə xüsusi dövlət proqramları həyata keçirilir və aparılan təhsil islahatları uğurlu nəticələr verir. FHN Akademiyasında ötən müddət ərzində maddi-texniki bazanın yaradılması, kursantların tədris və təliminin, sosial-məişət şəraitinin müasir tələblərə uyğun təmin edilməsi istiqamətində işlər görülüb. Ötən dövrdə akademiyadan 1272 nəfər məzun olub. Onlar FHN-in ayrı-ayrı qurumlarında xidmətlərini davam etdirirlər. Akademiyada son illərdə beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulması, elmi-pedaqoji kadr hazırlığı, aktual məsələlərə dair layihələrin hazırlanması məqsədilə beynəlxalq simpoziumlar, konfranslar, seminarlar, görüşlər və digər elmi-mədəni tədbirlər təşkil olunur. Bu il akademiyaya qəbul olmuş kursantları və akademiyanı müvəffəqiyyətlə bitirərək zabit rütbəsi ilə FHN-in qurumlarında çalışacaq bütün məzunları ürəkdən təbrik edir, onlara müstəqil Azərbaycanın gələcəyi naminə öz fəaliyyətlərində uğurlar arzulayıram".

Akademiyanın rəisi general-mayor Baba Salayev çıxış edərək bildirib ki, bu tədris ilində Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda yüksək bal toplayaraq akademiyanın əyani şöbəsinin bakalavriat səviyyəsinə 100, qiyabi şöbəsinə 19, magistratura şöbəsinə isə 15 nəfər qəbul olub. 97 nəfər bakalavriat, 15 nəfər isə magistratura səviyyəsində təhsilini müvəffəqiyyətlə başa vurub. 5 magistrant təhsilini yüksək səviyyədə başa vurduğuna görə nazirlik tərəfindən böyük etimad göstərilərək akademiyanın əməkdaşları sırasına qoşulub.

FHN-in Akademiyasına qəbul olan kursantların valideynləri adından çıxış edən Eldəniz Tağıyev məzun və kursantları təbrik edərək onlara uğurlar arzulayıb. Kursantların akademiyada yüksək səviyyədə təhsil alacağına, məzunların isə müstəqil və suveren dövlətimiz qarşısında öz vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edib.

Daha sonra mərasim FHN-in müvafiq əmri ilə "leytenant" hərbi və xüsusi rütbələri verilmiş məzunlara diplomların təqdim olunması ilə davam etdirilib.

Akademiyanı əla qiymətlərlə bitirmiş məzun leytenant Əli Əliyev akademiyanın məzunlarının buraxılış rəmzi olan xatirə lövhəsini "Yaş kötüyü"nə vuraraq məzun yoldaşları adından and içib.

Məzunlar akademiyanın bayrağı ilə vidalaşaraq onu IV kurs kursantlarına təhvil veriblər.

FHN-in Akademiyasının bayrağı altında şəxsi heyətin təntənəli keçidi ilə mərasim başa çatıb.

Akademiyanın məzunu Adil Səfərovun atası İmaməddin Səfərov AZƏRTAC-ın müxbiri ilə sevincini bölüşüb: "Adil akademiyanı qırmızı diplomla bitirdi. Çox qürurlu və fərəhliyəm. Bu illər ərzində onlar üçün çox yaxşı şərait yaradıldı. Akademiyanı bitirən kursantlara gələcək fəaliyyətlərində uğurlar, yeni daxil olanlara isə əzm və zehin açıqlığı arzulayıram".

# Şuşada V Türk Dünyası Ortopedik və Travmatoloji Konqresi keçirilir

**Azərbaycan Səhiyyə Nazirliyi və Türkiyə Sümük-Oynaq Cərrahiyyəsi Cəmiyyətinin birgə təşkilatçılığı ilə Şuşa şəhərində V Türk Dünyası Ortopedik və Travmatoloji Konqresi keçirilir.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən konqresin həmsədrləri - Azərbaycanın səhiyyə nazirinin müavini İlqar Qasımov və Türkiyə Sümük-Oynaq Cərrahiyyəsi Cəmiyyətinin rəhbəri Vedat Şahin türk dünyasını birləşdirən elmi körpü rolunu oynayan Türk Dünyası Ortopedik və Travmatoloji Konqresinin beşinci dəfə keçirildiyini xatırladıblar. Qeyd olunub ki, konqres birinci dəfə 2018-ci ildə Bakıda təşkil edilib. Daha sonra Qazaxıstan, Bosniya və Herseqovina və Qırğızıstanda keçirilən beynəlxalq tədbir bu il yenidən Azərbaycanda - Qarabağın mirvarisi olan Şuşada təşkil olunub.

Açılış mərasimindən sonra konqres öz işini panel sessiyalarla davam etdirib. Mütəxəssislər təqdimatlarla çıxış edib, mövzular ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, konqresin əsas məqsədi ortopediya və travmatologiya sahəsində diaqnostika üzrə təcrübə mübadiləsi aparmaq, cərrahi müdaxilənin optimal üsullarını müəyyənləşdirmək, həmçinin aktual mövzuların elmi sessiyalarda müzakirəsini təşkil etməkdir. Beynəlxalq tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, İtaliya, Qazaxıstan, Qırğızıstan, Yunanıstan, Bosniya və Herseqovinanın tanınmış alimləri iştirak edirlər. Konqres akademik mübadilə platforması olaraq elmi sessiyalarda ortopediya və travmatologiyanın aktual mövzularını əhatə edir. Eyni zamanda tədbirin mühüm istiqamətlərindən biri də qarşılıqlı əməkdaşlıq və ortaq çalışmaların aparılmasıdır.

V Türk Dünyası Ortopedik və Travmatoloji Konqresi oktyabrın 12-də başa çatacaq.

# Ermənistan silahlı qüvvələrinin azərbaycanlı əsirlərə işgəncə verməsi ilə bağlı sübutlar məhkəmədə nümayiş etdirilib



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 10-da davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Z.Ağayev məhkəməyə yeni sənədlərin daxil olduğunu elan edib. Bildirib ki, 340 nəfər zərərçəkmiş məhkəməyə ərizə ilə müraciət edərək məhkəmə prosesində iştirak edə bilməyəcəklərini, ibtidai istintaqa ifadələrinin məhkəmə prosesində tədqiq olunmasını xahiş edib.

Zərərçəkmişlərin iclasda iştirak edə bilməməsi və ibtidai istintaqa ifadələrinin tədqiq edilməsinə etiraz edən olmayıb.

Məhkəmə prosesində Azərbaycana qarşı törədilmiş cinayət hadisələrinə dair ümumi faktlar və dövlət qurumlarından Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə hücumları nəticəsində həlak olmuş, itkin düşmüş şəxslərlə, habelə inzibati binalara, yaşayış evlərinə, ekologiyaya, dini və mədəniyyət abidələrinə və s. dəymiş ziyanla bağlı daxil olmuş statistik məlumatlar açıqlanıb.

Elan olunan sənədlərə Azərbaycanın müxtəlif nazirlik, komitə, agentlik, rayon və şəhər icra hakimiyyətlərindən və sair qurumlarından daxil olmuş məlumatlar daxildir.

İş materiallarına əlavə edilmiş sənədlərdən görünür ki, 2020-ci il oktyabrın 4-də Ermənistanda Azərbaycanın mülki əhalisi arasında təşviş yaratmaq məqsədilə Gəncənin atəşə tutulması ilə bağlı qərar qəbul edilib. Ermənistanın beynəlxalq qınağa məruz qalmaması üçün həmin vaxt müdafiə naziri David Tonoyanın tövsiyəsi ilə qondarma rejimin "rəhbəri" Arayik Harutyunyan guya Gəncənin Ermənistan ərazisindən deyil, məhz onun əmri ilə Qarabağ ərazisindən vurulması ilə bağlı bəyanatla çıxış edib. Qeyd olunan çıxış "Yutub" sosial şəbəkəsində də yerləşdirilib.

Arayik Harutyunyan 2021-ci il fevralın 16-da Rusiya sülhməramlı kontingentinin nümayəndələri ilə görüşü zamanı fevralın 17-də 13-18 nəfər azərbaycanlının cəsədinin təhvil veriləcəyini, istehza ilə "həmin cəsədlərin təhvil verilməsinin Xocalı soyqırımından sonra Azərbaycana hədiyyə olduğunu" bildirməklə təqdim edib.

Bundan başqa, A.Harutyunyan Ermənistan hərbçiləri tərəfindən 1992-ci ilin fevral-mart aylarında azərbaycanlı xüsusi təyinatlı milis əməkdaşlarının divar qarşısında düzdürülərək güllələnməsi barədə fikir söyləyib.

Həmin sənədə əsasən, Arayik Harutyunyan 2022-ci il avqustun 5-də Laçın rayonunun Sarıbaba kəndi ərazisində həlak olmuş Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi qulluqçularının üzərinə qaya parçasını Ermənistan hərbçilərinin qəsdən yuvarladığı barədə məlumata malik olması da öz əksini tapıb.

Başqa sənədə əsasən, 7 nəfər təqsirləndirilən şəxs - Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Babayan, Davit İşxanyan, David Manukyan barəsində məlumatları, yəni anket məlumatları, təhsil, qondarma qurumda tutduqları "vəzifələri", 90-cı illərin əvvəllərindən qondarma qurumun qanunsuz fəaliyyətində rolu, 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci ildə 44 günlük müharibədə iştirakları və sair kimi məlumatlar öz əksini tapıb.

Qeyd olunan məlumatların təhlili əsasında müəyyən edilib ki, adları çəkilən 7 nəfər təqsirləndirilən şəxs bu və ya digər üsullarla və müxtəlif vaxtlarda Azərbaycan Respublikasının suveren ərazilərinin Ermənistan Respublikası tərəfindən işğal altında zorla saxlanılmasında iştirak edib, bu istiqamətlərdə çıxışlar edib, erməni xalqını daima Azərbaycan xalqına qarşı qoymaqla nifrət hisslərini aşılayıblar.

Digər sənədə əsasən müəyyənləşdirilib ki, Azərbaycanın vaxtilə Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində qondarma qurumun maliyyələşdirilməsi Ermənistan tərəfindən həyata keçirilib.

Elan edilmiş sənədlərə əsasən, Ermənistan Respublikası 05.07.2019-cu il və 26.06.2020-ci il tarixli müqavilələr əsasında Rusiya Federasiyasından tankəleyhinə 2 ədəd raket alıb. Qeyd olunan raketlərin Ermənistanla bağlanmış müqavilə əsasında alınmasına baxmayaraq, həmin qurğuların Azərbaycanın həmin vaxt işğal altında olan suveren ərazisində tapılması silahların bilavasitə həmin ölkədən, yəni Ermənistandan gətirildiyini bir daha təsdiq edir.

Bundan başqa qeyd edilib ki, ərazilərimiz işğaldan azad edildikdən sonra orada çoxsaylı silah-sursat və digər qurğular aşkar edilib. Həmin silahlar içərisində iriçaplı silahlarla yanaşı, tank, top və digər bu kimi döyüş təyinatlı avadanlıqlar olub.

Digər sənədə əsasən, "Yutub"da yer almış və cinayət işinin materiallarına əlavə edilmiş videomateriallardan görünür ki, döyüş səhnələri real olaraq qeydə alınıb, görüntülər zamanı müxtəlif zirehli texnikalarla, hərbi paltarlı şəxslər müxtəlif silahlarla müxtəlif istiqamətlərdə atəşlər açır.

Növbəti kadrlarda Birinci Qarabağ müharibəsində müxtəlif sayda hərbi geyimli azərbaycanlının qətlə yetirilərək öldürüldüyü, torpaq üzərində cansız cəsədlərinin qaldığı görünür.

Daha sonra kadrlarda Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən azərbaycanlı hərbçinin əsir olaraq saxlanıldığı görünür. Əsir götürülmüş şəxsə zor tətbiq edilir, onunla pis rəftar olunur və ona müxtəlif formada zorakılıq göstərirlər. Videoda həmçinin əsirin sifət nahiyəsinin sağ tərəfindən qan axdığı müşahidə olunur.

Daha sonra kadrlarda görünür ki, viran qoyulmuş ərazimizdə Ermənistan silahlı qüvvələrinin hərbçiləri talançılıqla məşğul olur.

Növbəti kadrlarda əsir götürülmüş Azərbaycan əsgərləri yer alıb. Əsirlərin sifət nahiyələrində müxtəlif xəsarətlərin olması açıq-aydın görünür.

Məhkəmə prosesi oktyabrın 13-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

ZƏFƏR gündəliyi

# 11-12-13 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "Bizi heç kim dayandıra bilməz"

## 11 oktyabr

**Oktyabrın 11-də Ermənistan bir daha dünyaya əsl vəhşi xislətini nümayiş etdirib. Müharibə gedən ərazilərdən xeyli kənarda yerləşən şəhər və rayonlarımıza raketlər atılıb. Gəncə şəhərinə atılan raket dinc əhalinin ölümünə səbəb olub. Buna cavab olaraq Azərbaycan Ordusu düşmənin bir sıra mühüm hərbi obyektlərini, zirehli texnikasını, canlı qüvvəsini məhv edib.**

### Gəncəyə raket atılıb - 9 nəfər həlak olub, 35 nəfər yaralanıb

Oktyabrın 11-də Ermənistanın silahlı qüvvələri Gəncə şəhərini növbəti dəfə atəşə tutub. Gecə saat 02:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə ermənilərin atdığı raket nəticəsində yaşayış binası tamamilə dağılıb, bina sakinləri dağıntılar altında qalıblar.

4-ü qadın olmaqla 9 nəfər həlak olub, 35 nəfər yaralanıb. Bundan başqa, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Yaralı şəxslərdən biri müalicə olunduğu xəstəxanada vəfat edib.

### Mehriban ƏLİYEVA: "Ermənistan nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir"



Birinci vitse-prezident Mehriban xanım Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "İnstaqram" səhifəsində paylaşım edərək dünya birliyini baş verən bu hadisəyə laqeyd qalmamağa çağırıb.

Mehriban xanım Əliyeva paylaşımda qeyd edib ki, beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir.

Birinci vitse-prezident həmçinin xalqa müraciət edib: "Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!"

### Düşmənin 5 tankı, 6 topu, 16 avtomobili, 8 atəşli reaktiv sistemi məhv edilib





Bütün cəbhəboyu vəziyyət gərgin olaraq qalıb. Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə canlı qüvvə və döyüş texnikasını cəmləşdirərək yenidən kiçik qruplarla cəbhənin Hadrut və Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstəriblər. Gecə ərzində düşmənə atəş zərbəsi vurulmaqla onun bütün hücum cəhdlərinin qarşısı alınıb.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, 5 ədəd sursatla dolu yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası məhv edilərək sıradan çıxarılıb.

### Döyüş mövqelərini özbaşına tərk edən erməni hərbçilərinin sayı kütləvi hal alıb

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan ordusunun işğal etdiyi ərazilərdəki əsas qüvvələri və ehtiyatlarına ciddi ziyan vurulub, silah-sursat və yanacaq tükənmək üzrədir. Ermənistan hərbi komandanlığı psixoloji gərginlik, şəxsi heyət isə qorxu içindədir. Erməni əsgərlərin komandirlərinə inamı itir.

Ermənilərin 1-ci, 5-ci və 9-cu motoatıcı alaylarının döyüş mövqelərini özbaşına tərk edən hərbi qulluqçularının sayı kütləvi hal alıb. Hərbi polis bu cür əsgərlərin məcburən səngərlərə geri qaytarılmasında aciz qalıb.

Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 1-ci motoatıcı alayın komandirinin müavini polkovnik-leytenant Artak Vanyan da var.

Qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünə malikdirlər.

### Mingəçevirə zərbə vurmaq istəyən PUA məhv edilib

Səhər saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### Ermənistan atəşkəs razılaşmasını pozub



Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayıb. Sənəddə qeyd edilib ki, humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları aparılan ərazidən xeyli aralıda yerləşən şəhər və kəndlərimizi raket və artilleriya atəşinə tutmaqda davam edir.

Oktyabrın 10-u və 11-də, müxtəlif saatlarda Gəncə və Mingəçevir şəhərləri, Goranboy, Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri işğalçı ordu tərəfindən atəşə məruz qalıb. Nəticədə xeyli sayda dinc sakin həlak olub və yaralanıb, mülki infrastruktura ciddi ziyan dəyib.

Bölgədəki vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

## 12 oktyabr

**Oktyabrın 11-dən 12-nə keçən gecə bütün cəbhəboyu vəziyyət gərgin olub.**
**Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstəriblər.**
**Həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya rəisi tabeliyində olan bölmə ilə Hadrut yaşayış məntəqəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə təhkim olunmuş texnikanı döyüş mövqelərində qoyub qaçıb. Bundan əlavə, düşmənin 5-ci və 522-ci alayın şəxsi heyəti avtomobil və zirehli texnikalarını ataraq mövqelərindən geri çəkilib.**

### Düşmənin tank əleyhinə bölmələri döyüş mövqelərini tərk ediblər

Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilib.

Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var.

Ermənistan silahlı qüvvələrinin 1-ci alayının müdafiə sahəsində geri çəkilən bölmələr arasında rabitə və qarşılıqlı əlaqənin pozulması səbəbindən özləri bir-birilərinə atəş açıblar. Tank əleyhinə və digər bölmənin şəxsi heyətləri də döyüş mövqelərini tərk ediblər.

### Ermənistan humanitar atəşkəs rejimini pozub

Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisi humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulublar.

### İlham Əliyev "Haber Global"a müsahibəsində Ermənistanı bir daha ifşa edib



Prezident İlham Əliyev Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə verərək qeyd edib ki, Ermənistan atəşkəs rejimi tətbiq olunandan sonra da öz çirkin əməllərini davam etdirib. Azərbaycan isə hər zaman olduğu kimi, sözünə sadiq qalıb:

"Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur".

İlham Əliyev deyib ki, gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilib. Gəncə şəhəri bombardman edilib. Şəhər "Toçka-U" raketləri ilə atəşə məruz qalıb və bunun nəticəsində mülki vətəndaşlar həlak olub və yaralanıblar. Bunu erməni faşizminin eybəcər sifətinin növbəti təzahürü adlandıran Azərbaycan Prezidenti artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələrin bu cinayəti gizlədə bilməyəcəklərini vurğulayıb: "Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi".

Ali Baş Komandan bir daha qeyd edib ki, artıq təmas xətti yoxdur və Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir.

### Ermənilər özləri-özlərini aldadıblar

Müdafiə Nazirliyi məlumat yayaraq bildirib ki, Ermənistan tərəfinin guya Azərbaycan Ordusunun Hadruta daxil olmaq məqsədilə bu istiqamətdə xeyli sayda qüvvə cəmləşdirməsi və gərgin döyüşlərin getməsi barədə yaydığı məlumat açıq-aydın dezinformasiyadır.

Hadrut artıq bir neçə gün bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub.

Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir və heç bir aktiv döyüş fəaliyyəti həyata keçirmir.

### Tovuzda və Ağdamda düşmənin 3 PUA-sı məhv edilib

Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 PUA-sı, Ağdam rayonu istiqamətində isə 1 PUA-sı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

### Döyüş bölgələrinə yaxın səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb



Döyüş əməliyyatlarında iştirak edən şəxsi heyətin təminat və təchizat məsələləri diqqət mərkəzində saxlanılıb və dərhal həll olunması ilə bağlı tədbirlər görülüb. Qoşunların hərbi texnika, silah-sursat, yanacaq-sürtkü materialları, ərzaq və əmlakla təmin edilməsi müvafiq idarə və xidmətlər tərəfindən sutka ərzində fasiləsiz həyata keçirilib. Bu məqsədlə döyüşlər gedən ərazilərə yaxın yerlərdə səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb.

## 13 oktyabr

**Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstəriblər.**
**Oktyabrın 12-dən 13-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində ümumi vəziyyət gərgin olaraq qalıb.**

### Düşmənin 10 raket qurğusu, 2 zirehli texnikası, 3 PUA-sı məhv edilib



Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### 100-ə yaxın erməni hərbçisi pusquya salınıb

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilib.



1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi isə pusquya salınıb, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılıb.

### Erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan məhv edilib

Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilib.

Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilib. Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik halları müşahidə olunub. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayıb.

### Tərtər və Ağcabədi atəşə tutulub, 100-dən çox ev dağıdılıb



Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından etibarən Tərtər və Ağcabədi rayonlarının ərazisini yenidən atəşə tutub.

Sentyabrın 27-dən bəri Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində sakinlərə məxsus 100-dən çox ev dağılıb, 500-dək evə, 51 çoxmənzilli yaşayış binasına, 60 yardımçı tikiliyə, 18 sosial, 7 istehsal, 27 ticarət obyektinə, 14 inzibati binaya ziyan dəyib. Mülki şəxslər arasında ölən və yaralananlar var.

Ağcabədi rayonunun yaşayış məntəqələrində isə 11 ev tamamilə dağılıb, 150-yə yaxın evə, 1 uşaq bağçasına, 1 məscidə və 1 kitabxanaya ziyan dəyib.

### İlham ƏLİYEV: "Terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz"

Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına verdiyi müsahibəsində Ermənistanın humanitar atəşkəs rejimini pozmasının səbəblərini açıqlayıb.

Prezident deyib ki, ermənilər hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək Ermənistanın terrorçu rəhbərliyi üçün adi bir haldır. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görüb: "Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər".

Gəncəyə, Tərtərə raket zərbələrinin endirilməsini Ermənistanın növbəti terror aktı adlandıran Prezident əminliklə vurğulayıb ki, bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Azərbaycan düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşaraq öz torpaqlarını azad edəcək və bayrağını işğal edilmiş bütün ərazilərdə qaldıracaq.

Bu xain hücumlar zərrə qədər də bizi yolumuzdan döndərə bilməz. Ermənistanın məqsədi Azərbaycanı dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr Azərbaycanı dayandıracaq: "Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik".

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***



# Gəncə qətliamı qan yaddaşımızdır

**27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin elə ilk günündən qəhrəman döyüşçülərimiz yerdə də, göydə də düşmənin amanını kəsərək onu torpaqlarımızdan qovmağa, bir-bir kənd və şəhərlərimizi azad etməyə başladılar. Rəşadətli Azərbaycan Ordusu Ermənistanın 10 noyabrda kapitulyasiya aktına imza atmasına qədərki cəmi 44 günlük zaman dilimində böyük şücaət və igidlik nümayiş etdirərək 300 yaşayış məntəqəsini, 5 şəhər və 4 qəsəbə, çoxsaylı strateji yüksəkliyi düşməndən azad etdi.**



## Şəhər 5 dəfə raket hücumuna məruz qaldı

İkinci Qarabağ savaşının elə ilk günündən cəsur döyüşçülərimizin qabağında duruş gətirə bilməyən qorxaq və xain düşmən biabırçı məğlubiyyətinin acısını çıxarmaq üçün cəbhə xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə tuturdu. Necə ki, Birinci Qarabağ savaşında faşist xislətlilər beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq mülki insanlarımızı hədəf alıb soyqırımları törətmişdilər, 44 günlük müharibədə də əllərini dinc azərbaycanlıların, körpələrin, yaşlıların, qadınların qanlarına buladılar. Özü də bütün bu terrorları elan olunmuş humanitar atəşkəs rejimləri zamanı etdilər. Vətən müharibəsi dövründə Ermənistanın yalvarışları nəticəsində bir neçə dəfə humanitar atəşkəs rejimi elan olunmuşdu. Ancaq vurğuladığımız kimi, yalvarışları sayəsində razılaşdırılıb elan edilmiş atəşkəs rejimlərini hər dəfəsində kobudcasına pozan Ermənistan silahlı bölmələri gecə-gündüz yaşayış məntəqələrimizi atəşə tuturdu.

Azərbaycanın ikinci ən böyük şəhəri və cəbhə xəttindən kilometrlərlə uzaqda yerləşən Gəncə də Tərtər, Bərdə, Goranboy və bir sıra digər yaşayış məntəqələrimiz kimi Vətən müharibəsi zamanı böyük savaşın içindəydi. 2020-ci ilin oktyabr ayında təkcə Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən düz beş dəfə ayrı-ayrı zamanlarda bombalandı. Düşmənin dəfələrlə hədəfinə çevrilən şəhər terrora məruz qaldı, sakinləri şəhid oldu, yaralandı. Gəncəyə ilk hücum 4 oktyabrda baş verdi və bu zaman 1 mülki şəxs şəhid oldu, 30-dan çox mülki insan yaralandı. Bir gün sonra həyata keçirilən ikinci raket hücumu nəticəsində 3 mülki şəxs yaralandı. Gəncəyə üçüncü raket hücumu oktyabrın 8-də, dördüncü isə 11 oktyabrda baş verdi və nəticədə 10 mülki şəxs şəhid oldu və 40-dan çox insan yaralandı. Düşmənin mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş verdi. Hücum nəticəsində hamısı mülki şəxslər olmaqla 16 nəfər şəhid oldu, 55 nəfər isə yaralandı.

Ümumiyyətlə, 2020-ci il oktyabr ayının 4-də, 5-də, 8-də, 11-də və 17-də Gəncə şəhərinə edilmiş raket hücumları nəticəsində 26 mülki şəxs qəsdən öldürülüb, 175 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həlak olmuş 26 nəfərdən 10-u kişi, 10-u qadın, 6-sı isə yetkinlik yaşına çatmayan şəxslərdir. Xəsarət almış 175 nəfərin isə 61-i kişi, 66-sı qadın, 48-i isə yetkinlik yaşına çatmayanlardır.

Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəydi.

## Əbədi ehtiram

Gəncədə raket atəşinə məruz qalmış ərazilərdəki dağılmış binalar həmin dövrdə şəhər sakinlərinin, eləcə də ölkəmizin digər ərazilərindən bura gələn insanlarımızın ziyarətgahına çevrilmişdi. Məsum insanlarımızın şəhadətə ucaldığı yerlərə tər qərənfillər düzülür, həlak olanların ruhu dərin ehtiramla anılır, dualar oxunurdu.

Şəhərdə düşmənin raket zərbələrindən birinin endirildiyi ərazidə - yaşayış binalarının yerində 31 yanvar 2022-ci ildə Prezident İlham Əliyev Gəncə Memorial Kompleksinin təməlini qoydu.

Bu il sentyabrın 27-də - Anım Günündə isə dövlətimizin rəhbəri tərəfindən Gəncə Memorial Kompleksinin açılışı həyata keçirildi.

Bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır.

4 hektar sahəni əhatə edən və orijinal memarlıq həlli ilə seçilən abidə spiralvari forması ilə raketin yerdə buraxdığı iz - krateri simvolizə edir. Kompleksin açıq meydanında isə dağıdılmış binaların qalıqları xüsusi instalyasiya şəklində qorunub saxlanılıb.

Aypara formalı ikimərtəbəli binanın ümumi sahəsi 2400 kvadratmetrdir. Birinci mərtəbədə muzey ekspozisiyası, ikinci mərtəbədə isə seminar, təlim və müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş çoxfunksiyalı zal yerləşir.

Muzeydə "XX əsrin əvvəli", "Deportasiya və məcburi köçkünlük", "Soyqırımı və kütləvi qırğınlar", "Atəşkəs və Vətən müharibəsi dövrü", "İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru" və "İşıqlı gələcəyə doğru" mövzularına həsr olunmuş zallar fəaliyyət göstərir.

Ekspozisiya ziyarətçilərə əvvəlcə XX əsrin əvvəllərində baş verən faciələri, o cümlədən 1918-ci ilin mart soyqırımını tarixi faktlarla təqdim edir. Burada həmçinin 1948-1953-cü illərdə soydaşlarımızın Qərbi Azərbaycandan kütləvi deportasiyası əks etdirilib. İnteraktiv bölmədə arxiv materialları, tarixi sənədlər və dağıdılmış mədəni irs nümunələri ilə tanış olmaq mümkündür.

Növbəti bölmələrdə 1987-1994-cü illərdə Azərbaycan xalqının üzləşdiyi etnik təmizləmə cinayətləri, dinc əhaliyə qarşı törədilmiş soyqırımlar və sistemli qırğınlar haqqında məlumatlar yer alıb. Muzeyin ayrıca hissəsi isə müasir dövrdə - atəşkəs illərində, Vətən müharibəsi günlərində və ondan sonrakı mərhələdə mülki əhalinin məqsədli şəkildə hədəfə alınması faktlarına həsr olunub.

Ekspozisiyanın son hissəsi uzun illər davam edən haqsızlıqlara baxmayaraq, mübarizliyini qoruyan Azərbaycan xalqının əzmkarlığının və qələbə əzminin təntənəsinə həsr olunub.

## Keçmişə sayğı, gələcəyə inamla

Həmin gün Prezident İlham Əliyevin Gəncə Memorial Kompleksində Ermənistanın raket hücumu zamanı hər iki valideynini itirən Nilay Əliyeva və onun babası Zahid Babazadə ilə görüşməsinin rəmzi mənası var idi.

Şəhidlərin Anım Günündə dövlətimizin başçısının Gəncədə Ermənistanın terrorçuluğu nəticəsində hər iki valideyni şəhid olan Nilay adlı qızcığazla birlikdə əl-ələ, qürurla addımlaması həm də özündə güclü Azərbaycanı, onun parlaq gələcəyini simvolizə edirdi. Bununla qalib lider İlham Əliyev Azərbaycan xalqının əzmkar mübarizəsini, tükənməz inam və iradəsini, sarsılmaz birliyini və əbədi zəfərini dünyaya bir daha bəyan edirdi.

Sentyabrın 28-də Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimindən əvvəl Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşdülər.

Yeri gəlmişkən, bildirək ki, Azərbaycan lideri İlham Əliyev BMT-nin 80-ci sessiyasında ölkəmizin həqiqətlərini bir daha beynəlxalq ictimaiyyətin diqqətinə yetirən zaman İkinci Qarabağ savaşında Ermənistanın törətdiyi hərbi cinayətlərə də diqqət çəkdi: "Ermənistan müharibə zamanı şəhərlərimizə və kəndlərimizə ballistik raketlər atdı, onları kasetli mərmilərlə bombaladı, 100-dən çox günahsız mülki vətəndaşımızı qətlə yetirdi".

Ölkəmizin rəhbəri eyni zamanda nəzərə çatdırdı ki, Azərbaycan isə müharibəni beynəlxalq humanitar hüquqa tam riayət etməklə apardı: "Biz mülki şəxslərin mühafizəsini təmin etdik, qeyri-hərbi infrastrukturu hədəfə almaqdan çəkindik. 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi".

2020-ci ildə torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü bərpa edən Azərbaycan, 2023-cü ildə dövlət suverenliyini tam təmin etdi. Xalqımıza qarşı Gəncədə və digər ərazilərimizdə hərbi cinayətlər törətməkdə təqsirləndirilən şəxslər Bakıda ədalət mühakiməsinə çıxarıldılar.

Bütün bunlar vətənimizin bütövlüyü uğrunda həlak olan şəhidlərimizin intiqamının alındığının, onların qanlarının yerdə qalmadığının qürurverici faktlarıdır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Beynəlxalq konfransın iştirakçıları Şuşa şəhərində olublar




İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçıları oktyabrın 10-da Azərbaycanın tarixi və mədəniyyətinin simvolu olan Şuşa şəhərinə səfər ediblər.

AZƏRTAC xəbər verir ki, qonaqlar Şuşa şəhərinin mərkəzi meydanı və qala divarları ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov onlara Şuşa şəhərinin tarixi, işğal dövründəki vəziyyəti, şəhərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarəti ilə aparılan quruculuq işləri, tarixi abidələrin bərpası və nəzərdə tutulan planlar barədə məlumat verib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

* * *

İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçıları vaxtilə azərbaycanlı əsir və girovların saxlandıqları, dəhşətli işgəncələrə məruz qaldıqları Şuşa həbsxanası ilə tanış olublar.

# Xocalının Təzəbinə və Ballıca kəndlərinə növbəti köç olub

**Oktyabrın 10-da Xocalı rayonunun Təzəbinə və Ballıca kəndlərinə növbəti köç olub. Bu mərhələdə iki kəndə ümumilikdə 43 ailə qayıdıb.**





Açarların təqdim edilməsi mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, bu gün Xocalının Təzəbinə kəndinə 126 nəfər olmaqla, 28 ailə, Ballıca kəndinə isə 15 ailə - yəni 53 nəfər köçürülüb. Hər iki kənddə sakinlərə mənzillərin açarları təqdim olunub.

Tədbirdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktorunun müavini Mahmud Əfəndiyev sakinləri doğma torpaqlara qayıdış münasibətilə təbrik edib. Bildirib ki, burada sakinlərin məşğulluğu məsələsinə xüsusi diqqət yetirilir, onlar dövlət və özəl sektorda işlə təmin olunurlar. Sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün də bütün zəruri şərait yaradılır.

Qeyd edək ki, bundan əvvəlki köç mərhələlərində Ballıca kəndinə 912 nəfərdən ibarət 200 ailə, Təzəbinə kəndinə isə 28 ailə - yəni 125 nəfər köçürülüb. Hazırda hər iki kənddə sakinlərin rahat yaşayışı üçün bütün şərait yaradılıb, zəruri infrastruktur və kommunal xidmətlər tam təmin edilib.

# Konfrans iştirakçıları Ağdərədə aşkarlanmış kütləvi məzarlığı ziyarət ediblər

**İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçıları Ağdərə rayonunun Ballıqaya kəndi ərazisində əvvəllər döyüş mövqeyi olmuş yüksəklikdə aşkarlanan kütləvi məzarlığı ziyarət ediblər.**





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, kütləvi məzarlıqda Birinci Qarabağ müharibəsində Azərbaycan hərbçilərinə aid olması ehtimal edilən 10-dan çox meyit qalıqları aşkarlanıb.

Qonaqlara məlumat verilib ki, bu, işğaldan azad edilmiş ərazilərdə aşkarlanmış 29-cu kütləvi məzarlıqdır. Kütləvi məzarlıqda axtarış-qazıntı işi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında toplanmış məlumatlar və şahid ifadələri əsasında aparılır.

Birinci Qarabağ müharibəsində Ballıqaya kəndinin ərazisində, meşə massivində yerləşən bu strateji yüksəklik uğrunda çox ağır döyüşlər gedib. Bu ərazidən Sırxavənd, Ballıqaya və Qaraşlar kəndlərinə və yollara tam nəzarəti həyata keçirmək mümkündür.



Bu səbəbdən də Ermənistan hərbçiləri strateji əhəmiyyət kəsb edən əraziyə böyük qüvvə və hərbi texnika yeridərək, yüksəklikdə mövqe tutmuş Azərbaycan hərbçilərini mühasirəyə alıb. Qeyri-bərabər döyüşdə könüllülərdən ibarət heyət qəhrəmancasına həlak olub, meyitləri Azərbaycan tərəfinə qaytarılmayıb.

Qazıntı zamanı sahədə ilkin ehtimala görə, 10 nəfər və daha artıq şəxsə aid meyit qalığı aşkarlanıb. Sayın artacağı istisna olunmur. Ərazilərin minalarla çirklənməsi, sərt relyef və hava şəraiti mütəxəssis heyətinin işini çətinləşdirir. Buna baxmayaraq, axtarış-qazıntı işləri davam etdiriləcək.

Diqqətə çatdırılıb ki, 30 illik işğal dövründə Ermənistan ordusu tərəfindən ərazilərə bir milyondan artıq mina yerləşdirilib. Ərazidən minaların və partlamamış sursatların təmizlənməsi uzun illər tələb edir. İştirakçılar sonra ərazidə aşkarlanmış mina və partlamamış sursatların məhv edilməsi prosesini izləyiblər.

# Ballıqaya kəndi ərazisində 10 və daha çox şəxsə aid olan qalıqlar aşkarlanıb

**Ağdərənin Ballıqaya kəndi ərazisində axtarışlar zamanı 10 və daha çox şəxsə aid olan qalıqlar aşkar edilib.**




AZƏRTAC xəbər verir ki, bunu Ağdərədə jurnalistlərə müsahibəsində Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əməkdaşı Zaur İsmayılov deyib.

Z.İsmayılov bildirib ki, insan qalıqlarının aşkar edildiyi yerlər əlverişli döyüş mövqeyi olub: "Buradan Ballıqaya, Sırxavənd, Bəşirlər və Narışlar kəndlərini nəzarətdə saxlamaq olur. Birinci Qarabağ müharibəsi dövründə bu ərazilərdə qızğın döyüşlər gedib. Şahidlərin ifadələrinə görə, 1993-cü ilin yanvar ayında Ermənistan hərbçiləri Azərbaycan hərbçilərini mühasirəyə alıblar. Qeyri-bərabər döyüşdə könüllülərdən ibarət heyət qəhrəmancasına həlak olub, meyitləri Azərbaycan tərəfinə qaytarılmayıb. Axtarışlar zamanı burada 10 və daha artıq insana məxsus qalıqlar aşkarlanıb. Bu, ilkin vəziyyətdir. Burada işlər davam etdiriləcək, ərazi daha geniş axtarılacaq. Qalıqlar götürüləndən sonra alt hissə bir də yoxlanılacaq. İstisna olunmur ki, bu say artsın".

# İqtisadiyyat və sosial həyat

## Xankəndidə aqrar sahədə süni intellektin tətbiqinə dair "Bootcamp" keçirilib



**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Xankəndi şəhərində "Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi" layihəsi çərçivəsində bootcamp keçirilib.**

"Bootcamp"ın məqsədi aqrar sahədə süni intellekt və rəqəmsal texnologiyaların tətbiqini təşviq etmək, gənclərin bu istiqamətdə bilik və bacarıqlarını artırmaq, azad edilmiş ərazilərin aqrar potensialı ilə yaxından tanış olmalarına şərait yaratmaq olub.

"Bootcamp"da 20-yə yaxın ali təhsil müəssisəsini təmsil edən tələbələr, həmçinin 10-a yaxın akselerasiya və inkubasiya mərkəzinin nümayəndələri iştirak ediblər. Proqram iştirakçılara kənd təsərrüfatında innovativ həllərin real mühitdə öyrənilməsi, texnoloji yeniliklərlə yerində tanışlıq və təcrübə qazanmaq imkanı yaradıb.

Proqram çərçivəsində təşkil edilən infotur zamanı iştirakçılar Suqovuşan su anbarına və Xankəndi Tikiş Fabrikinə səfər ediblər. Onlara bölgənin strateji su ehtiyatlarının idarə olunması, aqrar infrastrukturun bərpası prosesində rəqəmsal texnologiyaların rolu və sənaye müəssisələrinin kənd təsərrüfatı istehsalına inteqrasiyası barədə ətraflı məlumat təqdim olunub.

İştirakçılar həmçinin aqrar sahədə müasir texnoloji həllərin tətbiqinin məhsuldarlığın artırılması, resursların səmərəli istifadəsi və ixrac imkanlarının genişlənməsi baxımından əhəmiyyətini yerində müşahidə ediblər.

"Bootcamp"ın keçirilməsi gənclərin innovativ texnologiyalar sahəsində biliklərinin artırılması ilə yanaşı, azad edilmiş ərazilərdə aqrar inkişafın dəstəklənməsi və bu prosesə yeni nəsil mütəxəssislərin cəlb edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, cari il ərzində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı və ali təhsil müəssisələrinin iştirakı ilə Zəngilan, Xaçmaz, Şamaxı rayonlarında və Xankəndi şəhərində bootcamp təşkil edilib.

## İşğaldan azad olunmuş ərazilərdə daha 20 ailə üçün özünüməşğulluq proqramı üzrə kiçik bizneslər yaradıldı

**Böyük qayıdış proqramı çərçivəsində doğma yurdlarına köçürülmüş ailələrdən artıq 500-ə yaxın ailə özünüməşğulluq proqramı çərçivəsində öz təsərrüfatlarını qurub.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizdə özünüməşğulluq proqramının icrasını davam etdirir.

Bu dəfə Ağdərə, Cəbrayıl, Laçın və Zəngilan rayonlarında daha bir qrup ailəyə proqram çərçivəsində mal və materiallar təqdim edilib.

Verilmiş aktivlər hesabına onlar kişi bərbərxanası, avtoçilingər, un məmulatları istehsalı, kiçik dərzi sexi, qadın gözəllik salonu, qoyunçuluq, keçiçilik, arıçılıq və s. istiqamətlər üzrə kiçik bizneslərini yaradıblar.

Proqram iştirakçıları onlara göstərilən dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürlərini ifadə ediblər. Onlar özünüməşğulluq proqramı çərçivəsində qurduqları təsərrüfatlarını daim genişləndirməyə səy göstərəcəklərini bildiriblər.

# Bu həm enerji layihəsi, həm də qarşılıqlı etibar idi

## BTC-nin Azərbaycan və Gürcüstan hissələrinin birləşməsindən 21, Gürcüstan hissəsinin istifadəyə verilməsindən 20 il keçir

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin salnaməsində oktyabr ayı iki hadisə ilə mühüm yer tutur. Belə ki, kəmərin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi, eləcə də qonşu respublikadakı hissəsinin istifadəyə verilməsi həmin aya təsadüf edib. Bunlardan biri 2004-cü, digəri 2005-ci ildə olub.**




Boru xəttinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi münasibətilə tədbir 2004-cü il oktyabrın 16-da Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində - Gürcüstanın Qardabani rayonu ilə sərhəddə keçirildi. Bu iki hissənin birləşdirilməsi BTC-nin çəkilişi boyu həyata keçirilən 15 min qaynaq əməliyyatından biri idi. Lakin bu, adi qaynaq deyildi. Bununla zəmanəmizin möhtəşəm layihələrindən biri, üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan BTC-nin tamamlanmasına doğru növbəti mühüm addım atılırdı. Bir də axı BTC daşıdığı iqtisadi önəmlə yanaşı, həm də ölkələri, xalqları yaxınlaşdıran, birləşdirən bir kəmərdir. Odur ki, xəttin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi həm də dostluğun, tərəfdaşlığın, qarşılıqlı inamın daha bir təsdiqi idi.

Prezident İlham Əliyev tədbirdəki çıxışında tikilməkdə olan kəmərin əhəmiyyətini vurğulayaraq demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi həm Azərbaycan üçün, həm Gürcüstan üçün, həm də bütün region üçün çox vacibdir. Bu, ölkəmizə yeni imkanlar yaradacaqdır, xalqlarımız üçün yeni şəraitin yaradılmasını təmin edəcəkdir. Əlbəttə ki, bu, ölkələrimizə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunmasına gətirib çıxaracaqdır. Eyni zamanda bu iqtisadi məsələlərlə yanaşı, regional təhlükəsizlik məsələlərinə də layihə öz töhfəsini verəcəkdir".

Həmin vaxt Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisində kəmərin tikinti dəhlizi tamamilə təmizlənmiş və açılmışdı. Boruların 97 faizi qaynaqlanmış və 70 faizi torpaqla örtüklənmişdi. BTC-yə vurulacaq ilk nefti "Mərkəzi Azəri" platforması verəcəkdi ki, onun da üst modulları artıq dənizdə quraşdırılmış dayaq bloku üzərində yerləşdirilmişdi. Səngəçal və Ceyhan terminallarında nefti qəbul etmək üçün hazırlıq işləri gedirdi və onların əsas hissəsi görülmüşdü.

Üç ölkə ərazisində kəmərin çəkilişində 21 min insan çalışırdı. BTC uğurla irəliləyirdi. BTC demək olar ki, startda idi.

Beləliklə, 2005-ci il mayın 25-də Səngəçal terminalından kəmərə ilk neft vuruldu. Başqa sözlə, boru xəttinin Azərbaycan hissəsi istifadəyə verildi, növbə Gürcüstan hissəsinin idi.

2005-ci il oktyabrın 12-də Gürcüstanın Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində BTC-nin bu ölkədəki hissəsinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. Yeri gəlmişkən, xatırladaq ki, BTC-nin 8 nasos stansiyasının 2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü isə Türkiyədə yerləşir. 2005-ci ilin payızında kəmərin iki ölkədəki hissəsi neftlə doldurulmuşdu, Türkiyə hissəsinə də artıq neft vurulurdu. Xətti tam doldurmaq üçün 10 milyon barel neft tələb olunurdu.

Qeyd edək ki, BTC tam sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verildi. Layihənin əməliyyatçısı BP şirkətinin məlumatına görə, 1768 kilometr uzunluğunda olan bu kəmər istismara daxil olandan bu il iyun ayının sonunadək ümumilikdə təqribən 605 milyon ton (təqribən 4,6 milyard barel) xam neft nəql edib və həmin neft həcmləri Ceyhanda 6007 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

20 il əvvəl oktyabrda və 21 il əvvəl həmin ayda BTC-nin salnaməsinə yazılmış iki sözügedən hadisə Gürcüstanın tranzit ölkə kimi statusunu möhkəmləndirdi və daha neçə qlobal layihəyə yol açdı. Söhbət daha sonra istifadəyə veriləcək Bakı-Tbilisi-Ərzurum qaz kəmərindən, Bakı-Tbilisi-Qars dəmir yolundan, TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) və digər layihələrdən gedir. Bu layihələr indi bir çox ölkənin enerji və nəqliyyat təhlükəsizliyinə xidmət göstərir.

Məlum olduğu kimi, hazırda dünya "yaşıl enerji"yə keçid edir. Azərbaycanın "yaşıl gündəliy"i hər yanda rəğbət doğurur. Bu sahədə də Gürcüstanla sıx əməkdaşlıq edirik. Belə ki, yaxın gələcəkdə ölkəmizdən Avropaya uzanacaq "yaşıl enerji" dəhlizinin də uzun yolu Gürcüstandan keçəcək. Bu layihə 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə əsasən reallaşmaqdadır.

Bir sözlə, qonşu və dost ölkə olan Gürcüstanla enerji əməkdaşlığının tarixi zəngin, gələcəyi böyükdür. Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin də dediyi kimi: "Bu işlər davam etdiriləcək... Biz bu əməkdaşlığı irəliyə aparmağa tam şəkildə hazırıq".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Azərkosmos" və "Wyvern" arasında hiperspektral peyk məlumatları sahəsində tərəfdaşlıq qurulub

**Azərbaycan Respublikasının Kosmik Agentliyi - "Azərkosmos" Kanadanın "Wyvern" şirkəti ilə yeni tərəfdaşlıq münasibətləri qurub.**




Razılaşmaya əsasən, "Azərkosmos" "Wyvern" şirkətinin yüksəkdəqiqlikli hiperspektral peyk görüntülərinin rəsmi distributoru olacaq. Bu əməkdaşlıq regionda qabaqcıl Yer müşahidəsi imkanlarının daha geniş auditoriyaya təqdim edilməsinə şərait yaradacaq.

Qeyd olunur ki, "Azərkosmos" artıq Azərbaycanda və region ölkələrində müştərilərə "Wyvern"in "Dragonette" hiperspektral məlumatlarına birbaşa çıxış imkanı təqdim edəcək.

"Wyvern" şirkətindən bildirilib ki, "Azərkosmos"un peyk xidmətləri sahəsindəki təcrübəsi və etibarlı beynəlxalq mövqeyi ilə birləşən bu əməkdaşlıq kənd təsərrüfatı, ətraf mühitin monitorinqi, təhlükəsizlik və infrastruktur kimi mühüm istiqamətlərdə yeni imkanlar yaradacaq.

Tərəflər qeyd ediblər ki, bu tərəfdaşlıq Yer üzərindəki ekoloji və iqtisadi problemlərin həllinə yönəlmiş hiperspektral məlumatların qlobal səviyyədə əlçatanlığını artıracaq.

"Wyvern" şirkəti "Azərkosmos" ilə əməkdaşlığı genişləndirərək hiperspektral məlumatların tətbiq sahəsini yeni bazarlara və sənaye istiqamətlərinə yaymağı hədəfləyir.

## Dünya birjalarında neft ucuzlaşıb

**Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,18 dollar azalaraq 65,04 dollar olub.**



AZƏRTAC xəbər verir ki, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,13 dollar azalaraq 61,38 dollar təşkil edib.

# Ötən ay istehlak bazarında qiymətlər necə dəyişib

## Ucuzlaşma da var, bahalaşma da



**Cari ilin sentyabr ayında istehlak qiymətləri indeksi 2024-cü ilin sentyabr ayına nisbətən 105,7, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 107,9, qeyri-qida məhsulları üzrə 102,4, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 105,3 faiz olmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ay istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,1, yanvar-sentyabr aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 105,7 faiz təşkil etmişdir.

Sentyabr ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,8, yanvar-sentyabr aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 106,7 faiz olmuşudur.

Keçən ay əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma mal və qoyun ətinin, balıq və balıq məhsullarının, yumurtanın, xamanın, kəsmiyin, kərə yağının, armudun, şaftalının, qozun, fındığın, ağ kələmin, göyərtinin, xiyarın, pomidorun, şirin bibərin, badımcanın, göy lobyanın, süfrə çuğundurunun, yerkökünün, sarımsağın, kartofun, qara və yaşıl çayın, ucuzlaşma isə limonun, bananın, almanın, üzümün, soğanın qiymətlərində müşahidə olunmuşdur. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2025-ci ilin sentyabr ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5, yanvar-sentyabr aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 102,6 faiz təşkil etmişdir. Sentyabr ayında əvvəlki ayla müqayisədə qeyri-qida məhsullarından bahalaşma mebelin, avtomobillər üçün ehtiyyat hissələrinin, şəxsi gigiyena məmulatlarının, dəftərxana ləvazimatlarının, zərgərlik məmulatlarının, ucuzlaşma isə yay geyimlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2025-ci ilin sentyabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,6, yanvar-sentyabr aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 106,8 faiz olmuşdur. Sentyabr ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən ali, orta ixtisas və ödənişli məktəbəqədər təhsil müəssisələrinin, xarici dil və abituriyent hazırlığı kurslarının, mənzillərin kirayəyə verilməsi və bərbərxana xidmətlərinin, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

***"Azərbaycan"***

## DESFA Azərbaycandan Avropaya qaz nəqlinin 2 dəfə artırılması üçün infrastruktur işlərini tamamlayıb

**Yunanıstanın təbii qaz sistem operatoru DESFA Azərbaycanın Avropaya qaz ixracı həcmini iki dəfə artırmaq üçün bütün texniki və infrastruktur hazırlıqlarını başa çatdırıb. AZƏRTAC xəbər verir ki, bu barədə "Ekatemerini" nəşri xəbər verir.**

Məlumata görə, Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə ötürülən Azərbaycan qazının həcmi illik 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər artırılacaq. DESFA bu məqsədlə şəbəkənin modernləşdirilməsi layihələrini tamamlayıb və yaxın günlərdə Yunanıstanın Qaz Tənzimləyici Qurumunun plenar iclasında sertifikatlaşdırma mərhələsi təsdiq olunacaq.

Qeyd edək ki, bu addım Avropanın, xüsusilə də Yunanıstanın enerji təchizatının təhlükəsizliyini gücləndirəcək, ölkənin regional tranzit mərkəzi rolunu daha da möhkəmləndirəcək. Layihə çərçivəsində "Revithoussa" terminalı və Aleksandrupolidə yerləşən FSRU (üzən saxlama və yenidən qazlaşdırma qurğusu) vasitəsilə mayeləşdirilmiş təbii qazın ötürülməsi də nəzərdə tutulub. Bu infrastruktur "Vertical Corridor" (Şaquli Korridor) layihəsi sayəsində Balkan ölkələrinə və Ukraynaya qədər uzanacaq.

## Gecikdirilmiş 380,8 min manat vəsaitin işçilərə ödənilməsi təmin olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti yanvar-sentyabr ayları ərzində işəgötürənlər tərəfindən sosial xarakterli ödənişlər olan 380,8 min manat vəsaitin işçilərə ödənilməsinin gecikdirildiyini müəyyən edib.**

Görülən tədbirlər nəticəsində həmin vəsait işəgötürənlər tərəfindən işçilərə ödənilib. Bu vəsaitin 92 faizi əməkhaqlarından, qalan hissəsi işəgötürənlər tərəfindən ödənilməli olan müavinət və kompensasiyalardan, zərərə görə ödənclərdən ibarət olub.

Müraciətlərin araşdırılması zamanı Dövlət Əmək Müfəttişliyi Xidməti 56 işçinin əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini də müəyyən edib.

Xidmətin qanunvericiliyə əsasən gördüyü tədbirlər nəticəsində həmin işçilər yenidən əvvəlki işlərinə bərpa olunublar.





# Vətən deyəndə...





## Ön cəbhəyə 5 il əvvəlki ezamiyyətlərdən qalan xatirə

**5 il öncə yurdumuzun azadlığı uğrunda vuruşan zabit və əsgərlərimizin düşmən üzərində qazandığı qələbələri, zəfərləri eşitdikcə qürur hissləri keçirirdik.**



Ali Baş Komandan İlham Əliyev hər gün Azərbaycan Ordusunun cəbhədə qazandığı zəfərləri xalqımıza çatdırırdı. Zəfər xəbərlərindən ruhlanan biz jurnalistlər də qalib zabit və əsgərlərimizin yanına - ön xəttə getməyə can atırdıq. Şükürlər olsun ki, günlərin birində istəyimizə çatdıq, müharibənin 7-ci günü cəbhə bölgəsinə ezamiyyətə yollandıq.

Səhər ertədən ezam edildiyimiz hərbi hissədə olduq. Burada böyük canlanma var idi, əsgərlər vətənpərvərliyi tərənnüm edən mahnıların sədaları altında meydanda addımlayırdılar. Birinci Qarabağ müharibəsinin iştirakçıları olmuş veteranlar, müxtəlif ictimai təşkilatların nümayəndələri, musiqi kollektivləri zabit və əsgərlərlə görüşə can atırdılar. Hamı qələbəyə öz töhfəsini verməyə, əsgərləri qələbələrə ruhlandırmağa çalışırdı.

Hərbi hissə komandiri ilə görüşəndə bildirdi ki, bir azdan sizi ön xəttə yola salacağıq. Bizi aparacaq avtomobili çox gözləməli olmadıq. Ön xəttə ehtiyatdan çağırılan zabit və əsgərlərlə bir yerdə getdik. Yol uzunu şəhərlərimizdən birinin bayraqlarla, Vətənin müdafiəsinə çağıran şüar və plakatlarla bəzədilmiş küçələrini seyr edirdik. Hər addımda zəfər ovqatı hiss olunurdu, qələbə əzmi duyulurdu. Yoldan hərbi maşınların keçdiyini görən şəhər sakinləri bir anlıq ayaq saxlayıb zabit və əsgərlərə salam göndərirdilər. Qadınlar qollarını göyə qaldıraraq hərbçilərimizin döyüşlərdən sağ-salamat və Qələbə ilə dönmələri üçün Tanrıya dua edirdilər. Məktəb yaşlı uşaqlar isə əsgər salamı verirdilər. Hər addımda hiss olunurdu ki, xalq zabitinə, əsgərinə inanır, onlara xilaskarı kimi baxır.

Torpaqlarımızı azad etməyə gedən hərbçilərlə tanış olub söhbət etdik, onların ürək sözlərini dinlədik. Baş leytenant Elvin Məmmədov ordu sıralarından 2014-cü ildə ehtiyata buraxılmışdı. Yurdumuzun işğaldan azad edilməsi uğrunda müharibə başlanan kimi yenidən xidmətə çağırılıb. Gənc zabit Elvin Məmmədov söhbətinə inamlı ovqatla başladı:

- Bu gün bizi Vətən çağırıb. Çağırıb ki, illərdən bəri erməni qəsbkarlarının işğalında qalmış torpaqlarımızı azad edək. Biz də Vətənin çağırışına səs verərək yurdumuzu yağılardan təmizləməyə gəlmişik. Torpaqlarımızın azadlığı uğrunda vuruşmaq hamımızın müqəddəs borcudur. Biz bu borcu canla-başla yerinə yetirəcəyik. Əminliklə deyə bilərəm ki, döyüşlərdən doğmalarımızın yanına Zəfərlə qayıdacağıq. Ordu sıralarından beş-altı il əvvəl ayrılsam da, döyüş təcrübəm, hərbi biliklərim yüksək səviyyədədir. Biz gücümüzlə, bacarığımızla işğalçılara yaxşıca dərs verəcək, yurdumuzu yağılardan azad edəcəyik. Bir zabit kimi istəyirəm ki, müharibəni böyük qələbəyədək davam etdirək, torpaqlarımızı son qarışınadək işğalçılardan təmizləyək, müharibəni, qan-qadanı gələcək nəsillərə saxlamayaq.

Vətənin çağırışına ürəkdən səs verərək döyüşə gəlmiş zabit Azər Məsmalıyev, baş leytenant Asim Tofiqi, leytenant Anar Məmmədov, əsgərlərdən Məmmədəli Səmədov, Hüseynxan Quliyev və başqaları da Elvinin dediklərinə qoşuldular. Biz onlara qələbələrlə dolu günlər arzuladıq. Yurdumuzun azadlığı uğrunda vuruşmağa yollanan zabit və əsgərlərin baxışlarından qürur, qətiyyət və qəhrəmanlıq yağırdı. Bir daha əmin olduq ki, bu qətiyyət, qürur və qəhrəmanlıq onları gözlədiyimiz qələbələrə qovuşduracaq.

Ezamiyyətə getdiyimiz hərbi hissəsinin dayaq məntəqəsinə çatanda xalqın ordusuna necə böyük dəstək olduğunun canlı şahidi olduq. Gördüklərimizdən qürur duyduq, iftixar hissləri keçirdik, ürəyimiz açıldı. Çünki xalq ordusunun yanındaydı, ona mənəvi dayaq və arxa idi. Hərbçilərimizin təminatı həmişə, hər zaman yüksək səviyyədə olub. Həmin günlərdə torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün vuruşan zabitin, əsgərin heç nəyə ehtiyacı yox idi. Çünki dövlət hərbçisini, döyüşçüsünü yüksək səviyyədə təmin edirdi. Amma xalq da bu çətin günlərdə ordusunun yanında olmaq istəyirdi. Bu istək onun ürəyindən gəlir, qəlbindən süzülürdü.

Bu çətin və şərəfli günlərdə ordusunun yanında olan təşkilatların cəbhə bölgəsinə gəlmiş nümayəndələri ilə görüşdük. Həmin dövr Göygöl Rayon İcra Hakimiyyətinin nümayəndəsi olan Zamir Hüseynovla, Dövlət İdarələri Həmkarlar Təşkilatının sədri Möhdəsim Səmədovla söhbət etdik. Möhdəsim Səmədov dedi ki, əsgərlərə yaxın olanda özümüzü daha güclü hiss edirik: "Biz hərbçilərimizə ürəkdən inanırıq. İnanırıq ki, onlar ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərərək düşməni məhv edəcəklər. Üçrəngli bayrağımızı Şuşada, Xankəndidə və işğaldan azad olunacaq başqa şəhər və rayonlarımızda dalğalandıracaqlar. Biz böyük Qələbəyədək ordumuzun yanında olacağıq. Müdriklər çox gözəl deyiblər ki, biz bir yerdə güclüyük!"

O zaman "A Construction" şirkətinin təsisçisi olan Azər Xəlilov da söhbət zamanı bildirdi ki, Qarabağ uğrunda gedən döyüşlərdə böyük igidliklər göstərən Azərbaycan ordusunun zabit və əsgərlərinin yanında olmaq hər birimizin mənəvi borcudur: "Bu günümüzün şüarı "Hər şey cəbhə üçün - hər şey qələbə üçün"dür. Döyüşlər başlanan ilk günlərdən hərbçilərimizin yanındaydıq. Tarix boyu həmişə belə olub - yurda düşmən hücumu olanda xalq bir yumruq kimi birləşib. Biz də bu gün Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşmişik. Bu birlik, bu güc, bu qüvvət sonda mütləq xalqımızı böyük Qələbəyə qovuşduracaq".

İkinci Qarabağ müharibəsinin davam etdiyi həmin günlər xalqı doğma ordusunun yanında, zabit və əsgərlərimizlə bir yerdə gördük. Döyüşçülərimiz bu mənəvi dəstəkdən fərəhlənir, qürurlanırdılar.

Biz isə yolumuza davam edirik. Qarabağ uğrunda qanlı savaş başlayar-başlamaz uğurlu döyüşləri ilə xalqımıza böyük sevinc yaşadan zabit və əsgərlərlə görüşmək üçün üzü mövqelərə doğru gedirik. Ordumuzun uğurlarından doğan sevincimizi cəsur oğullarımızla bölüşmək üçün səngərlərə tez çatmağa çalışırıq. Amma nə qədər tələssək də, yollar uzandıqca uzanır, sanki bitib-tükənmək istəmirdi. Bəzən sərt yoxuşlara qalxır, bəzənsə dərin aşırımlardan enirdik. Nə yoxuşlar, nə də aşırımlar qorxudurdu. Çünki qarşıda bizi yurdumuzun xilaskarları ilə şərəfli bir görüş gözləyirdi.

Yavaş-yavaş ön xəttə yaxınlaşırıq. Burada böyük canlanma hiss olunurdu. Başı dumanlı dağların arxasından atəş səsləri eşidilirdi. Bu atəş səsləri uzaqlarda əks-səda verib daha da gurlaşırdı. Dağlar qoynunda mövqe tutmuş elə dağlar kimi vüqarlı, qayalar kimi əzəmətli zabit və əsgərlərimiz döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərirdilər. Düşmən onların güclü əks-həmlələrinin qarşısında dayana bilməyərək mövqelərini, silah-sursatını, döyüş texnikasını qoyub dayanmadan qaçırdı. İllərdən bəri işğal altında qalmış torpaqlarımız addım-addım erməni qəsbkarlarından azad edilirdi.

Erməni işğalçılarına sarsıdıcı zərbələr vuran, düşmənləri ağır məğlubiyyətə uğradan, uğurları və zəfərləri ilə xalqımıza sevinc bəxş edən zabit və əzgərlərin yanına qaranlıq düşməyə az qalmış çatdıq. Sanki günəş də ayağını sürüyüb bir az gec batmaq istəyir, işığını, istisini bizdən əsirgəmirdi.

Zabit və əsgərlər taborun həyətində ikibir, üçbir dayanaraq söhbət edirdilər. Əl verib üz-gözündən igidlik yağan bu cəsur oğullarla bir-bir görüşüb qazandığı uğurlar və zəfərlər münasibətilə onları təbrik etdik. Zabit Elçin Quliyevdən eşitdiyimiz sözlər ovqatımıza qürur qatdı. O danışdıqca qulaqlarımıza güllə səsləri gəlir, gözlərimiz önündə Azərbaycan əsgərinin məğrur, məğlubedilməz obrazı canlanırdı. İştirakçısı olduğu son döyüşlərdən zəfər ovqatı ilə danışan zabit dedi ki, torpaqlarımızın azadlığı uğrunda müharibə başlanan gündən böyük hünər və cəsarətlə döyüş meydanına atılıb: "Bir neçə gün ərzində işğalçıların 200-dən çox zabit və əsgərini, onlarla döyüş texnikasını məhv etmişik. Böyük hünər və rəşadət göstərən zabitlərimiz, əsgərlərimiz güclü və qəfil həmlə ilə düşmənin mövqelərini ələ keçirərək qəsbkarları ağır məğlubiyyətə uğratdılar. Yağılar silah-sursatını da atıb arxalarına baxmadan geri qaçırlar. Düşmənlər zabit və əsgərlərimizin qəhrəmanlığı və igidliyi qarşısında aciz qalıblar, çıxılmaz duruma düşüblər. Döyüşlər zamanı bütün dünya gördü ki, ordumuz çox güclü və qüdrətlidir. Hərbçilərimiz düşmən üzərində Zəfər qazanmaq, torpaqlarımızı işğaldan azad etmək naminə döyüş meydanlarında gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıqlar göstərirlər. Erməni işğalının sonuna az qalır, Azərbaycan Ordusu hər gün böyük uğurlar qazana-qazana irəliləyir. Hər gün yeni kənd və şəhərlər işğaldan azad olunur. Biz çox xoşbəxt hərbçilərik ki, torpaqlarımızın azadlığı uğrunda vuruşuruq. Ürəyi Vətən eşqi ilə döyünən biz hərbçilər döyüşlərdə yurdumuzun azadlığı naminə döyüşürük. Qələbə bizimlədir, çünki haqq-ədalət bizimlədir".

5 il öncəki ön cəbhəyə ezamiyyət zamanı onu da öyrəndik ki, düşmən üzərində qələbənin qazanılmasında şəxsi heyət böyük igidlik göstərib. Döyüşlərdə fərqlənən zabitlərdən Murad Hüseynov, İltifat Ağayev, Emil Hüseynov, Nicat Nağıyev, Elsevər Həsənov, Rüstəm Abdullayev, Emil Ağayev, Amil Mikayılov, Elnur Şükürlü, Xəzər Əlizadə, gizir Təbriz Cəfərov, əsgərlərdən Mehrab Axundov, Vüsal Fətullayev, Məhəmməd Məlikov, Aqil Həsənov və başqaları əməliyyatlar zamanı cəsarətlə, hünərlə vuruşublar. Hələ o zaman əmin idik ki, bu cəsur oğullar qarşıdakı döyüşlərdən də qalib çıxacaqlar. Çünki onlar düşməni məhv etməyə hazır və qadir idilər.

*(ardı var)*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Anasının baxışlarında yaşayır



**Dərdli ana damarları çıxmış əlini gözünün üstünə qoyub göylərə baxır. Sanki ağ buluda dönüb göylərə çəkilmiş oğlunun səmada ruhunu axtarır. Bizə elə gəlir ki, beş il əvvəl oğlu Cəmillə bərabər sevincini, arzusunu, ümidini də dəfn edib bu arıq, çəlimsiz ana.**

Özümüzü toparlayıb söhbətə haradan başlayacağımızı düşünərkən, o bizi qabaqlayır. Dərd ortağını, ömür-gün yoldaşını səsləyir:

- Habil, Cəmilimin qonaqları gəlib, bayıra çıxsana...

Evin harasına baxsan, şəhidin şəklini görürsən. Arzu dolu, sevgi dolu gülümsər baxışlar adamın düz gözünün içinə tuşlanır. İndi bu sakit, susqun otağı




Cəmilin əşyaları - telefonu, saatı, dəftər-kitabı bəzəyir. Elə bil bu dilsiz-ağızsız əşyalar da onları tərk edib bir də geri qayıtmayacaq sahibindən küsüblər.

Cəmilin hekayəsi minlərlə gənc azərbaycanlının Vətən sevgisini, torpaq eşqini və azadlıq uğrunda canından keçmək qətiyyətini özündə əxz edir. Söhbətə Aygün xanım körpü salır:

- Cəmilim çox vətənpərvər bala idi. Şəhidliyə gedən yolu da balam özü seçdiyi üçün dözürəm. Uşaqlıqdan özünü müharibəyə, döyüşə hazırlayırdı. İdmanla məşğul olurdu. Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş məktəblərarası güllə atıcılığı üzrə "Mahir nişançı" turnirində III yerə çıxmışdı.

Haqqında bəhs etdiyimiz şəhid Cəmil Habil oğlu Məmmədli 28 iyul 1999-cu ildə İsmayıllıda dünyaya göz açıb. Bakıda orta məktəbi başa vurduqdan sonra Cəmil Məmmədli Azərbaycan Texniki Universitetinin Metallurgiya fakültəsində materialşünaslıq ixtisası üzrə ali təhsil alıb. 2020-ci ilin iyulunda universiteti bitirən kimi hərbi xidmətə yollanır. Cəmi iki ay sonra - Vətən müharibəsi başlayanda o, könüllü ön cəbhəyə getmək üçün komandanlığa müraciət edir. Füzulinin işğal altında olan torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edir.

Ananın başladığı söhbəti gözləri göz yaşında gizlənən ata davam etdirir:

- Cəmilin döyüş yoldaşları tez-tez bizə baş çəkirlər, qəhrəmanlığından söz açırlar. Onda təsəlli tapıram ki, igid oğul böyütmüşük. Torpaqlarımızın işğaldan azad olunmasında oğlumun da payı var. Cəmil öndə gedən igidlərimizdən olub. Hər kəs bilir ki, "atıcı Cəmil" mahir nişançı olub. Oktyabrın 14-dən 15-nə keçən gecə Hadrut istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Nə edə bilərik? Bu bir qismət, bir taledir.

Göz yaşına hakim ola bilməyən şəhid atası hıçqıraraq fikrini belə yekunlaşdırır: "Oğlum cəbhəyə getməsəydi, xəcalətdən ölərdik. Vətən yolunda bu qədər igidimiz can verərkən oğlum evdə qala bilməzdi. Biz onu halal böyütmüşdük. Vətənə, insanlara sevgi ilə böyütmüşdük. İndi bizi yaşadan da onun qəhrəmanlığıdır".

Bu yerdə Aygün xanım susa bilmir:

- Cəmilin nəşi oktyabrın 15-də bayrağımıza bükülüb gətirilmişdi. Oğlum İsmayıllıdakı Şəhidlər xiyabanında izdihamla torpağa tapşırıldı. Hər dəfə göylərə baxanda mənə elə gəlir ki, Cəmilin səsini eşidirəm. Elə bil oğlum mənə deyir ki, ana, ağlama, məğrur ol, biz bu Vətəni qoruduq, qələbəmizlə bu torpaqlara əbədi olaraq sülh gətirdik.

İndi Cəmil Məmmədlinin adı şəhidlər sırasında, ruhu isə azad Azərbaycan səmasında yaşayır. Bacısı dünyaya gələn körpəsinə qardaşının adını verib. Aygün xanım deyir ki, kiçik Cəmilimiz dayısına çox bənzəyir: "Nəvəmin başını qatmaq üçün ona oyuncaq silahlar yox, musiqi alətləri alırıq. Qoy bütün Azərbaycandan, eləcə də dünyamızdan həmişə musiqi səsi gəlsin, göy üzünü ölüm saçan silahlar yox, sülh göyərçinləri bəzəsin, analar gözü yaşlı qalmasın, övladları ilə birlikdə arzularını da dəfn etməsinlər.

Cəmil Məmmədlinin torpaqlarımızın azad olunması uğrunda göstərdiyi igidlik dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Cəmil Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

İllər, əsrlər keçəcək. Bu dünyaya Cəmil adlı minlərlə oğul gələcək. Onlar Qarabağın azadlığı uğrunda canını fəda etmiş şəhidin adını daşıdıqları üçün qürur duyacaq, Cəmil Məmmədlinin xatirəsini hörmətlə yad edəcəklər. Çünki Cəmil təkcə bir ailənin deyil, bir xalqın oğludur. O, Vətənin azadlığı, torpağın bütövlüyü, xalqın sabahı üçün canını qurban verdi, adı igidlik, vətənpərvərlik, mərdlik simvoluna çevrildi.

Bu torpaqda hər bahar yenidən açan çiçəklər kimi, Cəmilin xatirəsi də heç vaxt solmayacaq. O, xalqın yaddaşında əbədi yaşayacaq, çünki Vətən üçün canından keçənlər ölmürlər, onlar Vətənin ruhuna çevrilirlər.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Əsgərləri ilə birlikdə şəhid oldu

**…Həmin gün Ramil evə çox yorğun gəlmişdi, xeyli narahat təsir bağışlayırdı. Sabah tezdən ön cəbhəyə gedəcəyini dedi. Sentyabrın 26-da sübh tezdən durub yola hazırlaşdı. Evdən çıxanda üzünü həyat yoldaşına tutub dedi: "Torpaqlarımızın azadlığı uğrunda haqq savaşı başlayır. Mən sabah ön mövqedə olmalıyam. Sevil, uşaqları sənə əmanət edirəm. Onlardan muğayat ol"….**

O, Aysunu və Zəhranı bağrına basıb çox-lu-çoxlu öpdü. Sevil ona tez-tez əlaqə saxlamağı, özü haqqında xəbər verməyi tapşırdı.

2020-ci il sentyabrın 27-si Vətən müharibəsinin ilk günündən başlayaraq, mayor Ramil Ağayevin komandanlıq etdiyi artilleriya diviziyasının batareyalarının döyüş tapşırığı əsasən, düşmən istehkamlarını və müdafiə xəttini dağıtmaq, onları atəş altında saxlamaqdan ibarət idi. Onun komandanlığı altında 4 artilleriya batareyası və hər batareyada 6 top var idi. Toplar aramsız olaraq düşmən mövqelərini hədəfə alır və dəqiq atəşlə onları sıradan çıxarırdı.

...Dördgünlük ağır döyüşlərdən sonra düşmənin birinci xətdəki mövqeləri darmadağın olundu. Piyada qüvvələr düşməni sürətlə geri çəkilməyə məcbur etdikcə ehtiyat qüvvələr azad olunmuş mövqelərdə yerləşib, möhkəmləndirmə işlərinə başlayırdı. Artilleriya qüvvələrinə də dislokasiya yerlərini irəli çəkmək əmri verilmişdi. Uğurlu əməliyyatdan sonra düşmən əsgərləri meyitləri döyüş meydanlarında qoyub qaçırdı.

Oktyabrın 4-də hərbi hissəyə Horadiz kəndinə yola düşmək tapşırığı verildi. Milli Ordunun əsgərləri düşmənin güclü istehkamlarını darmadağın edərək sürətlə irəliləməyə başlamışdılar. Ətraf erməni əsgərlərinin meyitləri ilə dolu idi. Vəziyyətin gərginliyinə baxmayaraq, mayor Ramil Ağayev həmişə ayıq-sayıq idi, hər bir andan səmərəli istifadə edirdi. O, vəziyyəti qiymətləndirəndən sonra zirehli texnika, BMP və BTR-lər gətirdi və gecə səhərə qədər 6 top və 60 nəfərdən ibarət şəxsi heyət daha əlverişli mövqeyə yerləşdirildi.

…Cəbrayılın Daşkəsən kəndi ətrafında ağır döyüşlər gedirdi. Milli Ordunun texnika karvanı düşmən tərəfindən artilleriya atəşinə məruz qalmışdı. Aramsız artilleriya atəşləri altında döyüşçülər bir-birindən uzaqda yerləşməyə məcbur olmuşdu, onların arasında əlaqə yox idi. Onları xilas etmək, bir-birindən aralı düşən döyüşçüləri bir yerə toplamaq böyük təhlükə doğururdu. Mayor Ağayev cəsarət göstərərək bu işi öz üzərinə götürdü. O, taqıma yaxınlaşaraq pərən-pərən düşən üzvləri, bütün şəxsi heyəti bir yerə toplayaraq onları düşmənin artilleriya atəşi altından sağ-salamat çıxarmağa nail oldu. Lakin həmin döyüşdə ermənilər onu hədəfə almışdılar. Mayor Milli Ordunun əsgərləri üçün böyük təhlükə yaradan düşmən mövqelərini sıradan çıxarmaq istəyirdi. Ona görə də 5 döyüşçü ilə birlikdə düşmən toplarını məhv etmək üçün nişan alırdılar. Son hazırlıq işləri gedirdi. Düşmən toplarının külünü göyə sovurmaq üçün bəlkə də bir neçə saniyə lazım idi. Elə bu vaxt düşmən hərbçiləri onları nişan alırlar. Ermənilərin atdığı raketlərdən biri onların yaxınlığına düşür. Mayor da, onunla birlikdə əsgərlər də şəhid olurlar.

Oktyabrın 8-də Ramil həyat yoldaşı Sevillə sonuncu dəfə telefonla danışıb: "Narahat olmayın, torpaqlar azad edildikcə irəli gedirik. Hər şey yaxşıdır. Əgər mənə zəng çatmasa, bundan narahat olmayın, vaxt olan kimi əlaqə saxlayacağam".

Bu, onunla sonuncu telefon danışığı olur. Ramil çox sevdiyi Vətən uğrunda döyüşlərdə canını qurban verərək üçrəngli bayrağa bükülərək qayıdıb. Onu Lerikdə atasının məzarının yanında dəfn ediblər.



Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Böyük qızı Aysu Azərbaycan İqtisad Universitetinin Qida mühəndisliyi, digər qızı Zəhra isə Azərbaycan Dillər Universitetinin Regionşünaslıq fakültələrinə qəbul olunublar.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 iyun (Çərşənbə axşamı günü) tarixli 200-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Səşənbə, 11 ramazanül-mübarək sənə 1337.
10 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

Təzə təmir olunmuş əvvəlinci lokanta "Elbrus" işləməyə başlamışdır. Təcrübəli Avropa, Asiya aşbazları dəvət olunmuşdur. Lokantada ayrıca kabinələr vardır. Nahar və şam vaxtı ruminski orkestr çalır. Orada da 3 bilyard və hər bir ləvazimatı ilə satılır.
Adres: Olqinski və Merkuryevski küçələrin küncündə Mirbabayevin evində.

*10225*

## İÇİMİZDƏKİ DENİKİNLƏR

Bir Denikin var ki, bizi xaricdən təhdid edir. Bir çox denikinlər də var ki, içimizə dolub, ən xətrəli [təhlükəli] yerlərimizdə gizlənib də bizi daxildən qorxudurlar.

Heç şübhə edilməsin ki, bu daxili denikinlərimizin qorxusu, xarici Denikinin qorxusundan daha böyük və daha xətərlidir. Çünki xaric[i] Denikin göz önündədir, aşkardır. Daxili denikinlər isə içimizdə gizlənmişdirlər, özlərini göstərməyirlər. Gizli düşmənin aşkara düşməndən daha təhlükəli olduğu hər kəscə müsəlləmdir [etirazsız qəbul edilir].

Bir vaxt olar ki, üzərimizə hücum edən xarici düşmənin bəlasını dəf etmək üçün əl qalxızmaq, irəli atılmaq istədikdə görərik ki, daxili düşmənlərin hiylə və dəsisəsi [fırıldağı] sayəsində qollarımız bağlı və ayaqlarımız bənddədir. Bir dərəcədə ki, heç tərpənməyə halətimiz yoxdur.

Azərbaycanımızda asudəlik ilə rahat-rahat yaşamaqda olan müxtəlif ünsürlərin içində öylə naşükür, öylə həsudlar [paxıllar], öylə qara qəlblilər var ki, Denikini ürək döyünməsi ilə gözləməkdə və rus qaradovoyunun həsrətini çəkməkdədirlər. Bunların bir çoxları xəzinəmizin pulu ilə dolanıb da "aldığım pul rus dövlətinin puludur" deyə özünü də, özgələri də aldatmaqla təsəlliyab olub [təsəlli tapıb], naşükürlüklə yedikləri çörəyimizi özlərinə halal bilirlər.

Bunların və böylələrinin sayəsindədir ki, bizim bütün rəsmi kağızlarımız, ərizələrimiz, sənədlərimiz həpsi rusca yazılıb. İdarələrimiz sabiq rus çarlığının kanselyariyalarına döndüyündən, biçarə türk demokratiyası [xalqı] öz milli dövlətlərində də yenə tərcümanlar aramağa məcburdurlar. Bütün Qafqaz millətləri arasında ümumi bir lisan hökmündə olan türk dili guya o qədər naqabil imiş ki, ərizə yazmağa da yaramazmış... Halbuki bunun hamısı çörəyimizi yeyib də, üzümüzə söyən, denikinlərin həsrətini çəkən və cümhuriyyətimizi rus dövlətinin bir parçası hesab edən və dövlətimizə deyil, məhz pula və paraya qulluq edən xain, həsud [həsəd aparan] və qaraqəlbli çinovniklərin vətənimizdə yemlənməsi bərəkətindəndir.

Xaricdəki Denikin ilə aramızda bir müharibə başlanarsa, heç şübhə edilməsin ki, daxilimizdəki yemləyib bəslədiyimiz denikinlər öz həsrətkeşlərinin yollarını asanlaşdırmaqdan ötrü içimizdə cürbəcür xəyanət və cinayətlərə mürtəkib olub da [bulaşıb da], bizə arxamızdan xəncər yaraları vurmaq və zərbələr yetirmək təşəbbüslərindən çəkinməyəcəkdirlər.

Ona görə, iştə bu yerdə filhəqiqə [doğrudan da] dördgözlü olmağımız bütün şiddəti ilə icab edir [lazım gəlir]. Qəhrəman əsgərlərimiz xarici düşmənlərimizlə müharibə edərkən, arxada qalanlarımız da arxamızda gizlənib də pusquda oturan daxili düşmənlərimizlə əlləşməlidirlər. Onlar bizləri pusarkən, biz onları pusmalıyıq ki, əhyanən [ara-sıra] bizə qəflətən bir xətər yetirməsinlər.

Bu yolda hökumətimiz də, millətimiz də bərabər işləməlidirlər. Hökumət hər bir şübhəli görünənləri rədd və tərd etmək [qovmaq] üçün heç bir şeydən çəkinməməlidir. Bu gün daha nəzakət və mərhəmət zamanı deyildir. Zatən xainlərə qarşı nə mərhəmət?

Millət dəxi böylə bir şəkk və şübhə iqaz edən [oyandıran] və dövlətimizə qarşı sui niyyəti ilə məlum olan adamları, hansı millətdən olursa olsun, fərzimühal olaraq [məsələn; kiçik ehtimalla] müsəlman da olsa, bilib də hökumətimizə və lazım olan yerlərə xəbər verməlidir.

İstiqlalının səneyi-dövriyyəsini [ildönümünü] dünən şadlıq və şənliklə keçirmiş olan millət bu gün fövqəladə dəmlər [vaxtlar] keçirməkdədir. Candan əziz olan istiqlalımızı əlimizdən almaqla canımızı almaq istəyirlər. Buna görədir ki, istiqlalımızı əldən verməmək üçün bu fövqəladə zamanda fövqəladə işlər də görməlidir ki, o işlərin ən mühümraqı, özümüzü xarici denikinlər ilə bərabər daxili denikinlərdən də qorumaq təşəbbüsüdür.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*5 iyun 1919*

*(keçən nömrədən mabəd)*

**Sədr** - Söz Əhməd Cövdət Pepinovundur.

**Əhməd Cövdət** - Möhtərəm məbuslar! Bu gün bəlkə Azərbaycan Cümhuriyyətinin ən az görülən tarixi bir günüdür ki, biz burada oturmuşuq və bu gün hökumət rəisinin söylədiklərini həpimiz qulaqlarımızı, gözlərimizi açıb bütün diqqətlə dinləyib, bütün mənası ilə önümüzdəki vaqiəni [hadisəni] dərk eyləmək istəyirik. Bu gün deyilən sözlər, bu gün çıxarılacaq qərarlar, daha əvvəl, neçə ay, neçə həftələr bundan əvvəl deyilirdi. Fəqət o qədər atəşin və həssas təsir edəcək dərəcədə deyildi ki, necə ki, bu gün görürük.

Rusiya inqilabı nəticəsində istibdad zülmündən qurtaran zəhmətkeşlər, çarizm zəncirindən xilas olan millətlər kəndi ixtiyarlarını əllərinə aldıqları vaxt onların düşməni olan müstəbid qüvvələr ümidlərini bütün kəsməyib, genə əski mövqelərini qaytarmaq niyyətindən vaz keçməyirdi. Və yenə əski əsarəti və əski zəncirləri yaxasını yenicə qurtarmış millətlərin üzərinə salmağa hazırlaşırdı.

Əski rus generalları Dabravol - Könüllü ordu adı ilə gah Sibirdə, gah Kubanda, Donda birləşməyə başladılar. Onlar yaxşı bilirdilər ki, Rusiya çarizmini yıxan Rusiya demokratiyasını əzmədikcə, istibdad zəncirlərini xırda millətlərin boynuna vurammayacaqlar. Ona görə ən əvvəl işləri rus demokratiyası ilə çarpışıb, bir neçə yerlərdə hakimiyyətlərini qura bilmişlərdir. Lakin Rusiya demokratiyası əlində olan qüvvələr o qədər böyükdür ki, yerə sərilmiş generallar bir də o qüvvəyə qarşı dura bilməzlərdi. Fəqət onların köməyinə Avropa imperialistləri, Avropa yoldaşları qoşub onlara silahla, para ilə yardım edirlər. Onlar bilirdilər ki, bu gün Rusiyada azad olanların göstərdikləri misallar bütün dünyaya keçəcəkdir. Hər yerdə zəhmətkeşlər, məhkum millətlər zülümdən qurtarmaq istəyəcəklər. Ona görə Avropa sərvətdarları, imperialistləri bütün öz silahlarını, toplarını, pullarını verib əsarətdən qurtaranları yenidən rus generalları vasitəsilə zəncirə almağa və Rusiya istibdadını qurmağa qalxışdılar.

Bir neçə gün əvvəl məhkumiyyətdən qurtaran Azərbaycan xalqının hürriyyət və istiqlalının bir sənəliyini bayram etdik. Bu nümayişlər, bu bayraqlar və bu hisslər göstərdi ki, bu duyğu yerləşmişdir: xalq daha əsir olmaq istəməyirlər, hürr yaşamaq istəyir. Fəqət, əfəndilər! O qara qüvvələrin ki, məfkurələri hakim olmaqdır, o qara qüvvələr qüvvətlənib, toplar, tüfənglər ilə cürətlənib aşağı gəlməkdədir. Birinci dəfə Gürcüstana hücum etdikdə, Gürcüstan xalqının qəti müqərrərati [qərarlılığı] nəticəsində geri dönüb, bir zəif yer axtardılar ki, asanlıqla oradan girsinlər. Ona görə Dağıstan tərəfini götürdülər. Və bu da göstərdi ki, onlar Dağıstanı seçməyə haqlı imişlər. Çünki Dağıstan üzərinə gələn qara qüvvələrə Dağıstan hökuməti başında oturanlar tərəfindən müqavimət görülmədi. Bura gələn teleqraflar və nümayəndələr Dağıstan hökuməti başında oturan və Rusiya istibdadının ehyasına [dirildilməsinə] çalışan xainləri lənət ilə dəryad edirlər [yada salırlar].

Heç şübhə etmək lazım deyildir ki, tarix də gələcəkdə onları yad edəcəkdir.

Əfəndilər! Artıq onlar bu gün bizim qapımızı döyüb, bizim üstümüzə gəlirlər. Bu gələn qara qüvvənin məfkurəsi yaman olduğuna görə, bu kürsüdən dəfələrlə söylədik ki, bu gün müharibə Dağıstanda gedirsə, yarın bu müharibə bizim üzərimizə gələcəkdir. Bizim üçün təhlükə olduğunu bilirsək, Dağıstanın yardımına qoşmaq, düşmən ilə orada çarpışmaq lazım idi.

Lakin, məəttəəssüf [təəssüf ki], bir tərəfdən bizdə olan süstlük və səhlənkarlıq, digər tərəfdən İngiltərə komandanlığının sözləri və hiyləsi ki, Könüllü ordu Petrovskdan bu tərəfə gəlməyəcəkdir, ancaq Petrovsku bolşeviklər ilə mübarizə üçün bir üssülhərəkə [baza] olaraq tuturlar. Könüllü orduya Dağıstanı tutmağa və Dağıstan xalqını yenidən zənciri-əsarət altına almağa imkan verdi. Digər tərəfdən Zaqafqaziya cümhuriyyətləri arasında birlik olmadı ki, əlbir olub bu qara qüvvələr qarşısına mübarizə etsinlər.

Bu indi oxunan teleqraflar, əlbəttə, Könüllü ordunun məfkurəsi nəticəsidir. Bunlar aşkar bir işdir. Bu teleqraflar açıq-açığına, arsızcasına deyir ki, sizi də qul eyləmək və sizə ağalıq eyləmək istəyirəm.

Bununla bərabər, İngiltərə komandanlığı təsəlli verir və deyir ki, təhlükə yoxdur və bizi mühafizə edəcəklər. Lakin bugünkü hal və bu teleqraflar göstərir ki, bizə özümüzdən başqa söykənəcək bir dirək yoxdur. Millət gərək kəndisinə söykənsin.

Biz yaşamaq istəyirik. Və Avropadan, madam ki, Avropa demokratiyası hökuməti əlinə almamışdır, kömək gözləməyirik. Biz özümüzə güvənməliyiz və müqəddəratımız bir olan yanımızdakı qonşularımızla əlbir işləyə bilərik.

Bir də, əfəndilər! Hərgah bu gün söylənən sözlər yalnız söz deyildirsə, əgər mayın 28-də bizim istiqlaliyyətimizin bir sənəlik bayramında olan nümayiş doğrudan da xalqın fikri, amalı və arzusu isə Azərbaycan içərisində bir adam tapılmaz deməsin ki, biz həpimiz hökumətlə əlbir o qara qüvvələr ilə mübarizəyə hazırız. (*Sürəkli alqış*)

*(bitmədi)*

## TELEQRAF XƏBƏRLƏRİ

**Petroqrad işğalına dair**

Novorossiyskdə iskələdə dayanmaqda olan İngiltərənin "Kraktay" kruvazerinə [kreyserinə] simsiz teleqraf ilə verilən xəbərlərə nəzərən, general Yudeniç ordusu Petroqradı işğal eyləmişdir.

**Rusiyada aclıq**

Rusiya Savdepiyasında [Sovet Rusiyasında] aclıq həddini keçmişdir. Aclığa mübtəla olan kəndçilər öz yerlərindən buğda bol olan quberniyalara köçürlər.

**1919-cu ildə taxıl**

1919-cu il taxılı bir o qədər də ümidbəxş deyildir. Quruluqdan dolayı 13 quberniyada əkinlər məhv olmuşdur. Gələn il də dəhşətli aclıq gözlənir.

**Kiyevdə bahalıq**

Kiyev və dairəsində hal-hazırda dəhşətli bahalıq vardır. Bu günlərdə qara çörəyin girvənkəsi 20 rublədən satılırmış.

**Bolşeviklərin məlumatı**

Moskvadan xəbər verirlər ki, bolşeviklər tərəfindən səfərbərlikdən ötrü Vyatkaya göndərilmiş olan Steklov "Petroqradı mühafizə ediniz" sərlövhəsi ilə yazdığı məqaləsində deyir ki:

*"Şimdi hər kəs cəbhəyə diqqət verməlidir. Şərqi cəbhənin bütün hissələrindən Kolçak ordusu ricət edir [geri çəkilir]. Yalnız Perm və Vyatka qarşısına qüvvətini cəm etməkdədir. Qəsdi odur ki, Arxangelsk cəbhəsində olan ingilis qoşunları ilə rabitədə bulunub, sonra ümumi qüvvə ilə Petroqrad üzərinə hücum etsinlər. Müttəfiqlər əlləşirlər ki, Yudeniç ilə Kolçak Petroqradı işğal etsinlər ki, tainki Petroqrad bunların əlinə keçdikdən sonra Kolçak hökumətini rəsmən təsdiq eyləsinlər. Ona görə də bolşeviklər var qüvvəl əri ilə çalışmalıdırlar ki, Kolçak ordusunun İngiltərə ordusuna mülhəq olmasına [qoşulmasına] mane olsunlar."*

- 8 mayda Petroqradda "Narodnı donT'da hərbi əsirlərin və Qırmızı qoşunların izdihamlı mitinqləri vaqe olmuşdur. Zinovyev bunlara müraciətlə, Beloqvardiya [Ağ qvardiya] əsgərləri ilə mübarizə etmələrini dəvət etdikdə, mitinqdə olanlar son damcı qanlarınadək mübarizədə bulunacaqlarını bildirmişlərdir. Çıxarılan qətnamədə əsarətdən qayıtmış olanlar təbrik edilmişlərdir. Hamısı and içmişlər ki, Şura Hökumətinə sadiq qalaraq, Qırmızı Petroqradı mühafizə edəcəklərdir.

- Kronştadtdan xəbər verirlər ki, Şura Hökuməti qərar qoymuşdur ki, arvad, qoca və uşaqları, hakəza [eləcə də] ümidsiz bolşevikləri buradan təbid [sürgün] etsinlər. Kronştadtda qərar qoyulmuşdur ki, son damcı qanlarınadək Petroqradı mühafizə edəcəklər. Petroqradda əmr verilmişdir ki, evlərin əhalisi bundan sonra evləri mühafizə etsinlər.

## SÜLH ƏTRAFINDA

*Royter acentəliyindən*

**Almaniya ablukası**

Sülh müahidənaməsini [sazişini] almanlar imza etmədikləri təqdirdə, Almaniyanın ablukasında [blokadasında] İsveç, Norveç, İsveçrə və Daniyanın [Danimarkanın] iştirakdan imtina edəcəkləri zahir olmayacaqdır. Bunlar bu vaxta qədər olduğu kimi yenə bitərəflik saxlayacaqlardır.

**Amerika və fransız polisləri**

Parisdə, Lionda və Bordoda fransız qəzetələri Amerika saldatlarının hərəkətlərindən bəhs və onlara protesto edirlər. Amerika və fransız polisinin fəaliyyətsizliyindən bəhs edirlər.

**Müttəfiq məmləkətlərdə əmələ tətili gözlənirmiş**

Müttəfiqlər Rusiya işlərinə müdaxilə edəcəkləri təqdirdə İngiltərə, Fransa və İtaliyada əmələlər [fəhlələr] ümumi tətil edəcəklərini elan etmişlərdir. Bu günlərdə Milanda vaqe olan bir mitinqdə hər üç məmləkətin əmələ nümayəndələri orada isbati-vücud [iştirak] edib, bunlar da qərar qoymuşlar ki, böylə bir tətil bilatəxir [dərhal] icra edilməlidir.

- Fransanın hökumət qəzetələri Almaniya nəfinə [xeyrinə] ediləcək tətil əleyhinə məqalələr yazıb əmələləri məzəmmət edirlər.

**Almaniya əks-təklifi**

Liondan xəbər verilir ki, Klemanso, Lloyd Corc və Vilson elan edəcəklər ki, onlar əsasən Almaniya əks-təklifləri barəsində sazişə gəlmişlərdir. Cavab yazmaq üçün 4-5 gün vaxt lazımdır. Müttəfiqlər almanlara iqtisadi və mali [maliyyə] cəhətdən güzəştdə bulunacaqlarından, düşmənlərə möhlət verilməlidir ki, müahidənaməni [sazişi] yenidən təğyir və təbdil etsinlər [dəyişdirsinlər və düzəltsinlər].

**Fərid paşa Sülh Konfransına gedir**

Sədr[əzəm] [Baş nazir] [Damad] Fərid paşa Sülh Konfransına dəvət olunmuşdur. Hökuməti-Osmaniyyənin hüququnu müdafiə zimnində [müdafiə üçün] müşarünileyh [adı çəkilən şəxs] iki günə qədər Parisə əzimət edəcəkdir [yola düşəcəkdir].

## QƏZETƏLƏRDƏN

**Batumda**

Batumdan gəlmiş olan sərnişinlər bəyan edirlər ki, qəzetələrin yazdıqları kimi, Batumun halı o qədər gözəl də deyildir. Bu axır vaxtlarda bir çoxları İstanbula gedirlər. Fəqət İstanbula gedənlərin sənədləri ciddi surətdə təhqiq edilir. Bakıya görə Batumda ərzaq ucuzdur. Birinci zəruri şeylərin qiyməti bu qərar iladir: Amerika çörəyi kartoçka ilə 1 manat 25 qəpik. Azad satıcılar 4 manatdan satırlar. Əcnəbi malı çəkmələr 800 rublədən 1200 rubləyədək satılır. Hal-hazırda Batumda bir çox Odessa, Kiyev və Krım fərariləri [qaçqınları] vardır. Ticarət aləminin ən zübdələrindən [seçilmiş şəxslərindən] Qepner Mirovski və sairləri buradadırlar. Könüllü ordu zabitlərinin miqdarı getdikcə artır. Bunların rəftarı qaragüruh rəftarı kimidir.

Batumda nəşr olunan "Naş kray" nam [adlı] könüllülərin rəsmi qəzetələrindən "Naşe vremya" qəzetəsinin mühərrirləri cürbəcür məqalələr yazaraq, könüllülərin hər yerdə müvəffəq olduqlarını bildirirlər. Xüsusən qeyri-ruslara qarşı ədavətkaranə məqalələr yazırlar. Batuma külli surətdə ingilislərin müstəmləkə qoşunları gəlir. Bakı qəzetələrində yazıldığı kimi, əcnəbi dövlətlərlə xüsusi dəniz müxabiratı [rabitəsi] başlan[ma]mışdır. Şaye olan [yayılan] xəbərlər həqiqətə müğayirdir [ziddir]. Yalnız dənizlə qoşun və ərzaq gətirilir.

* Yekaterinodarda elan edildiyinə görə, bu günlərdə yeni kağız pullar çıxarılacaqdır. Bu pullar Kolçak yanında olan qızıllarla təmin ediləcəkdir. Sonra Könüllü ordu tərəfindən işğal edilən yerlərin manatı 4 qəpiyə yendiriləcəkdir.

**Oltu nahiyəsində**

Oltu nahiyəsində olan əhali Ermənistan Hökumətini qəbuldan imtina eyləmişdir. Bunlar erməni saldatlarına təklif etmişlər ki, nahiyədən çəkilsinlər. Qoşunlar və erməni məmurları oradan çıxmışlardır. Qund kəndindən kürdlər 53 nəfər ermənilləri rəhn [girov] sifəti ilə öz yerlərinə aparmışlardır.

**Erməni qəzetələrinin məlumatı Qarabağda**

Qarabağda müsəlmanlar iqtisadi cəhətdən erməniləri boykot etdiyi üçün mayor Lissen, kapitan Qanzona mühəvvəl eyləmişdir [tapşırmışdır] ki, boykotun götürülməsi xüsusunda doktor [Xosrov bəy] Sultanov ilə danışıqda bulunsun. Alınan məlumata görə, Sultanov qəti surətdə boykotun götürüləcəyini bəyan ilə əlavə eyləmişdir ki, bu tədbir dövləti bir tədbirdir.

**Gürcüstanın köməyi**

Daşnakların "Vperyod" qəzetəsinin yazdığına görə, Gürcüstan Hökuməti Azərbaycana 8 min nəfər qoşun üçün əlbisə [libas] vermişdir. Dağıstan Hökumətinə də 15 min nəfərlik əlbisə vermişdir.

## TƏHLÜKƏ VƏ QADINLARIMIZ

Azərbaycan Cümhuriyyəti təşkilini bir qaç nəfərin hasili-əməli bilənlərə və Avropa əfkari-ümumiyyəsini [ictimaiyyətini] əleyhimizə qalxızmaq istəyənlərə millətimiz və zəhmətkeş Azərbaycan türk xalqı lazımi cavab verdi.

Hürriyyət bayramlarında, fəhlə nümayişlərində, 31 Mart tətilində, intriqaçıların siyasi tətillərində xalqımızın göstərdiyi istedad nə qədər siyasi bir huşyarlığa [ayıqlığa] malik olduğunu və istiqlaliyyət fikri ilə nə qədər sıx surətdə mərbut [bağlı] bulunduğunu isbat etdi.

28 Mayıs İstiqlal bayramı isə keçənlərdən daha qiymətli və daha tarixi bir nümayiş olmuşdu. Burada millət heyəti-ümumiyyəsi ilə erkəyindən qadınına, çocuğundan böyüyünə qədər iştirak edirdi. 28 Mayıs bayramı millətin yarısı olan qadınlarımızı da həyati-ictimaiyyəyə dartmış, onların da canlı bir qüvvə olduqlarını isbat etmişdi.

Qadınlarımız da erkəklərimiz, kişilərimiz ilə bərabər millətin və vətənin şad gününə iştirak edir, sevinir, zira kəndini bu vətənin övladı hiss edirdi.

Bunun daha əhəmiyyətli cəhəti bu idi ki, bu hiss, bu anlaqlığı türk qadınları xüsusi hazırlıq sayəsində deyil, zamanın təsiri və kəndilərinin təbii dərrakələri bərəkəti ilə kəsb etmişlərdi [əldə etmişlərdi]. Ona görə iman edirəm ki, bu gün üzərimizə gələn təhlükəni yalnız kişilərimiz deyil, artıq intibaha başlamış qadınlarımız da hiss edirlər.

Həp böylə də olmalıdır. Hər kəs anlamalıdır ki, onlar da vətənin övladı, millətin yarısı və həm də ən mühüm yarısı olduqları üçün istiqlaliyyətin taleyi ilə mərbutdurlar. Vətənin hürriyyəti ən əvvəl onlara race [aid] olduğundan, müdafiəsi yolunda da ən lazımi təşəbbüsatda qadınlar bulunmalıdırlar.

Əvət, qadınlar artıq insan olduqlarını, hüquqi-şəxsiyyələrini anlamış, vətənin quruluşunda iştirak etmək istədiklərini isbat etmişlərdir. Ona görə millətin bir yarısını təşkil edən bu qüvvədən vətənin hər bir zamanında istifadə etmək lazımdır.

Xüsusən bu gün üzərimizə gələn təhlükə qarşısında qadınlar hərəkətə gəlməli, məmləkətimizdə bulunan qərb hakimi-mütləqlərinə anlatmalıdırlar ki, vətənin müdafiəsi və mühafizəsi yolunda erkəklərimiz kimi qadınlarımız da iştirak edəcəklərdir.

Bu gün gənclərimiz əsgər surətində cəbhəyə gedir. Camaatımız, qocalarımız el ordusu, ehtiyat könüllü alayı yapır. Firqələrimiz, partiyalarımız bütün xüsusi firqə münaqişələrini unudaraq vətənin və istiqlaliyyətin müdafiəsi üçün mücahid və mübarizlər düzəltməyə məşğuldurlar.

Yazıçılarımız, mühərrirlərimiz bütün mahirlik və istedadlarını milləti ayıltmağa, vətən müdafiəsi hissi oyatmağa, dostunu və düşmənini tanıtmağa səy edirlər. Natiqlərimiz xalqımızı ittihada, birliyə və hökumət ətrafına toplanıb Azərbaycanı qorumağa çağırırlar.

Bu keşməkeşdə, bu hazırlıqda, bu vətən və istiqlal müdafiəsi hazırlığında heç olarmı ki, millətin ən mühüm qismi, vətənin ən başlıca üzvü bitərəf bir halda qalsın?

Bu təhlükə qarşısında qadınlar bütün qüvvələrini toplamalı, səfərbərlik halına gəlməlidirlər.

Təhlükənin acısını istibdad zamanı, martdan sentyabra kimi hiss etmiş, dadmış olan xüsusən Bakı türk qadınları bilməlidirlər ki, indiki təhlükə keçənkindən daha böyük əsarət və vəhşət gətirir. Əgər kişilərimizin silah başına qoşduğu bir vaxtda qadınlar da dəzgah başına əsgərlərimizi arxadan təmin etmək işinə qoşmasalar, tarix qarşısında məsul və mədənilər qarşısında yenə "vəhşi" görünərlər.

Bu gün, təhlükə qarşısında qadınlarımıza aid çox işlər vardır.

Əsgərlərimizin libaslarını hazırlamaq, paltarlarını təmizləmək, daha bir çox bu kimi işlər qadınlar tərəfindən hər yerdə görünür. Və ümid edəlim, bizim türk qadınları öz Anadolu və İstanbul bacılarından ibrət alıb hərəkətə gələrlər.

Əgər 28 May nümayişini Bakı türk qadınları heç bir təşkilat tərəfindən hazırlıq olmadan icra etdisə, ümidvarıq ki, bu işdə qadınlar cəmiyyəti tərəfindən hərəkət olsa, qadınlarımız atil [işsiz, boş] qalmazlar, öz gənc və zərif qüvvələri ilə gənc vətənimizə böyük xidmət edərlər.

Haydi!

Türk qadını, vətən, millət və hürriyyət qeydkeşi olduğunuzu anladınız.

Təşkilat ətrafına toplanıb öhdənizə düşən xidməti vətəninizdən əsirgəməyiniz!

*Məhəmmədzadə Mirzəbala*

## MİLİSLƏRİN HƏRƏKATINA DAİR

Rusların Qafqazı istila etdikləri günlərindən başlayaraq axırkı zamanlarına qədər yerlilərə xain gözü ilə baxıb, nizam və polis vəzifələrini məhz rus ünsürünə yaxud onlara ixlasi-qəlblə [ürəkdən] casusluq yapan qafqazlılara həvalə edirdilər. Əhalinin etimad və etibarına inanmazdılar. Yüz ilin ərzində bir nəfər də olsun müsəlmanlardan qubernator təyin etmədilər. Bəzi "sədaqətkar" müsəlmanların pristavlıqları da çox çəkməyirdi. Vorontsov-Daşkovun tədbiri ilə Tiflisdə və Bakıda polis vəzifələri hətta dvorniklərə qədər tamamən ruslara verildi. Kəndlərə göndərilmiş strajniklər də əhalinin lisan və əxlaqına əsla dara [vaqif] olmamış qaba və kobud kazaklar idi. Bunların əhaliyə qarşı qıldıqları zülüm və təəddinin [qanunsuzluğun] hədd və hesabı olmadığı halda, rus məmurlarının ən sadiqanə və həqiqi tərəfdarları olurdular.

1905-ci ilin inqilabı dövründə rus polis nəfəratı vəzifələrini öylə səbati-qədəmlə [dönməzliklə] daşıyırdılar ki, sair millətləri heyran buraxırdılar. Ən müdhiş macəraların öhdəsindən gəlməklə bərabər, ənvai [müxtəlif] qovğalarda olurdular. Qovğada əslihəsini [silahlarını] qaib etmiş polis nəfəratı ən böyük cəzalara məhkum qalırdılar. Bunlardan heç biri hökumətin əmanəti olan tüfəng və tapançasını götürüb qaçmazdı. Bunu tarix bizə göstərməyir.

Filhəqiqə [doğrudan da], rus qaradovoylarından böylə hərəkətlər sadir olmadı [baş vermədi]. Lakin bunların müsəlman əhalisi ilə rəftarı o qədər çətin və müşkül bir hal ilə keçirdi ki, onların zülmündən bayılmış biçarələrin həmişəki arzusu, gecə və gündüzdəki duası - ey kaş müsəlmanlardan da bir neçə polis məmurları olaydı ki, öz qardaşlarının hüquq və ixtiyarlarını müdafiə edə biləydilər. Vaxt oldu ki, bunların duaları müstəcab [qəbul] oldu. Azərbaycan Hökuməti dünyaya gələr-gəlməz, tamam polis məmurluqlarını müsəlmanlara verdi. Əhali yerdən göyə qədər məsrur [şad] və məmnun qaldı. Bakı küçələrində gəzən atlı və piyada, təhərri [axtarış] və adi, hətta zəbtiyyələrinə [asayişə nəzarət edən məmurlara] qədər həpsi müsəlman! Nə gözəl nemət!

Rus idarələrindən sıxıntı çəkmişlər qiyamətə qədər bunun qiymətini anlarlar!

Hələ indiyə qədər müsəlman polis və zəbtiyyələri vəzifələrində təkasül [tənbəllik, başısoyuqluq] və bacarıqsızlıq göstərməmişlər. Bəlkə bir çoxları təhlükəli fəqərələrdə [hadisələrdə] xüsusi məharət və şücaət də göstərmişlərdir. Amma çi-fayda [nə xeyri], bu günlərdə bir neçə "üzüqara" yoldaşların yapdıqları fəna hərəkat sairlərini də xələldar və mükəddər qılmışdır [kefini pozmuş və kədərləndirmişdir]. Böylə ki, Bakı qalabəyisinin [komendantının] təhərri polis rəisi namına göndərdiyi bir müraciətnaməsindən böylə məlum olur ki, bir neçə müsəlman milisləri günlərin bir günündə qarovul mövqelərini başlı-başına buraxaraq əllərindəki tüfəng, patron və libasları ilə bərabər qəflətən qaib olmuşlar. Bunlar Məhəmməd oğlu Əbdülhəlim, Fakı oğlu Məhərrəm, Hacı Əli oğlu Əliyev və sairləridir. Bunları tutmaq üçün qəti hökmlər verilmişdir. Ehtimal vardır ki, bu fərar edənləri bu yaxın zamanlarda dərdəst etsinlər [tutsunlar], çünki buna dair ciddi tədbirlər ittixaz olunmuşdur [tədbirlər görülmüşdür].

Əlbəttə, qəbahətkarlar özlərinə layiq cəzalarını bularlar. Bununla işim yoxdur. Lakin bizi heyran edən, damarlardakı qanlarımızı donduran bir fəqərə [hadisə] varsa, o da məsələnin bu cəhətidir ki, yüz illərlə həsrətini çəkdiyimiz neməti Allah bizə qismət edir, biz bu neməti əmanətən millət balalarına həvalə edirik, bunlar da bu gözəl əmanəti hifz edə bilməyib ayaq altındakı məzbələlərə [zibilliklərə] atırlar.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 4 iyun (Çərşənbə axşamı günü) tarixli 200-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Millətin müdafiəsi üçün verilmiş əslihələri də [silahları da] öz keyfəmayəşaları [öz kefləri] üçün qaçırdırlar. Məgər bunlar düşünmədilərmi ki, millətin qarşısında və millətin xəbəri olmadığı halda bu hərəkətlərlə iki cinayət yapmışlar: Əvvəla, milis nəfəratı əhalinin pasibanıdır [gözətçisidir, qarovulçusudur]. Çoban sürünü qurd və canavarlardan mühafizə etmək üçün gecə və gündüz qəflət etməyib onun qarovulunu çəkir. Milislər də əhalinin çobanlarıdır. Hərgah bunlar pasibanlıq vəzifələrini atıb, bildikləri yerə səbəbsizcə gedərlərsə, millətin əmin-amanlığı bərpa olarmı? Asayişi və əmin-amanlığı pozulmuş bir ölkəyə xaricdə yatmış düşmənlərimiz nə gözlə baxarlar? Bunu bilirmisiniz? Məmləkətin daxili işlərinə müdaxilə etmək üçün hәriflərin ən böyük bəhanəsi məmləkətin intizamsızlığıdır.

Doğrudur, beş nəfər milisin qeyrətsizliyi ilə şəhərin əmin-amanlığı pozulmaz. Lakin bir kərə düşünülsün ki, ən böyük tarixi vəqələr vaxtilə pək xırdaca səbəblərdən törəmişdir. Böylə xırdaca şeyləri başlı-başına buraxsalar, islam ölkələrinin başına gələn, olsun ki, bir gün də bizim başımıza gəlsin. Odur ki, bu fəqərəni [hadisəni] hökumət başlı-başına buraxmamalıdır. Qaçmış milislər gərək tutulsun və hərbiyyə məhkəməsi ilə də cəzalansınlar ki, sairlərinə də ibrət olsun!

İkincisi, qaçmış milislər özləri ilə bahəm tüfəng və patronları da aparmışlar. İslam aləmində "əmanətə xəyanət" ən böyük qəbahətlərdən biridir. Ona görə, məsələnin bu cəhətini artıq şərh etməyə ehtiyac görülməyir. Xəyanətin də cəzası məlumdur. Ancaq hökumətin diqqətini buraya cəlb etməlidir ki, yeni təyin olunacaq milislərə fəqət mötəbər şəxslərin zəmanəti ilə əslihə verməlidir. Aralıqda üçüncü şəxslərin məsuliyyətləri olarsa, yəqin ki, hökumətin heç bir patronu itməz.

Bundan əlavə, aralarına daxil olan yoldaşların əxlaqına milislər özləri artıq əhəmiyyət verməlidirlər ki, məbada müfsidlərin [fitnəkarların] fəna hərəkətləri sair mötəbər milisləri ləkədar etməsin. Şəhərlərdə, kəndlərdə qaçanları gizlədən tapılmazsa, bunlar nerəyə qaça bilərlər? Bu da ümum əhalinin vəzifəsidir. Xülasə, əsgərlərə verilən əhəmiyyət, milislərə də gərək verilsin.

*Fərhad Ağazadə*

### BAKI XƏBƏRLƏRİ

**Müsəlman Müəllimləri İttifaqında**

Bakı Müsəlman Müəllimlər İttifaqı idarəsi bununla idarə üzvlərinə elam edir [bildirir] ki, bu gün həziranın 13-də, səhər saat 10-da Doqquzuncu məktəb binasında təcili idarə iclası olacaqdır. Hamının gəlməsi əlzəmdir. Müzakirə olunası məsələlər:

1) Heyət tərəfindən tərtib olunmuş proqramın təsdiq və təsvibi [qəbul edilməsi];

2) Türk dilində tədrisə dair kitabların hazırlanması barəsində;

3) Müəllimlərin maaşının artması barəsində.

Əgər saat 10-da lazımi miqdarda üzv gəlmədiyindən məclis baş tutmasa, həman gün saat 11-də ikinci iclas hər nə qədər üzv olsa, qanuni hesab olunasıdır. Rica olunur ki, hamı təşrif gətirsin. Zira, bu axırıncı məclisdir. Bir daha yığnaq gələn tədris sənəsində olasıdır.

---

Bakı Türk Müəllimlərinin İttifaqı idarəsi ümum üzvlərə xəbər verir ki, onlar üçün ərzaq alınıbdır. Rica olunur ki, hər kəs gəlib öz payını Doqquzuncu türk məktəbindən həziranın 10 və 11-də saat 10-dan 4-ə kimi aparsın. Sonra gələnlərə ərzaq verilməyəcəkdir.

---

Bakı Türk Müəllimlərinin İttifaqı idarəsi ümum kəndisini İttifaqın üzvü ədd [hesab] edənlərdən rica edir ki, üzvlük haqqını xəzinədar Baba bəy Səfərəlibəyzadəyə təqdim etsinlər. Əks surətdə onlar İttifaqdan çıxmış hesab olunur. Onlara gələcəkdə ərzaq verilməyəcəkdir və bundan masiva [bundan savayı] isimləri həp qəzetələrdə dərc ediləcəkdir.

**İttifaqi-Mütəəllimin**

Bu gün ayın 10-da, axşam saat 5-də İkinci gimnaziya binasında İttifaqi-mütəəlliminin [Tələbələr ittifaqının] təcili iclası dəvət edilir. Üzvlərdən təvəqqe olunur, gecikməsinlər.

**Həbsdən azad**

Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə 3-cü uçastokda sükunət edən [yaşayan] Məhəmmədkərim İsrafilov öz oğlu Əliəşrəf Məhəmmədkərim oğlunu əsgərlikdən qaçırmaq qəsdi ilə gizlətməkdə müttəhim edildiyindən, Mərkəzi Həbsxanaya göndərilmişdi. İndi məzkurun [adı çəkilən şəxsin] oğlu Əliəşrəf qayıdıb gəldiyindən, atası Məhəmmədkərim həbsdən azad edilmişdir.

**Rus afiserlərinin miqdarı**

Bakı qalabəyisinin [komendantının] binagüzarlığına [sərəncamına] görə, Bakıda sükunət edən [yaşayan] ümum rus afiserləri siyahı edilmiş və məlum olmuşdur ki, şəhərdə bütün uçastoklar dairələrində sükunət edən rus afiserlərinin miqdarı 166 nəfərdir. Bunların içində kiçik zabitdən başlayaraq general rütbəsinədək sahibi-mənsəb afiserlər vardır.

**Tövqif və həbs**

Neçə gün bundan əqdəm [qabaq] "Qorçakov" adlı barkasda [gəmidə] 24 nəfər şübhəli şəxslər tövqif [tutulmuş] və həbs edilmişlərdi. Sonradan onlardan bir neçəsi azad edilib və qalanı isə saxlanılmışdı. İndi Əmələ Konfransı Daxiliyyə Nəzarətinə müraciətən, həman şəxslərin həbsdən azad edilmələrini rica etmişdir.

**Gürcüstanda səfərbərlik**

Gürcüstan Cümhuriyyəti Denikin ordusunun Zaqafqaziyaya hərəkət etmək istədiyi münasibətilə ümumi səfərbərlik etmişdir. Həmin səfərbərliyə nəinki bir tək gürcülər, bəlkə Gürcüstan Cümhuriyyəti torpağında yaşayan qeyri millətlər dəxi dəvət edilirlər.

**Sərhədimizdə**

Aldığımız rəsmi məlumata görə, Azərbaycan qoşunları hal-hazırda sərhədimizdə dayanmışlardır. Güclü bir dəstə Samur körpüsünü mühafizə etməkdədir.

**Dərbənddə**

Dərbənddən gələnlərin dediyinə görə, orada ancaq 80 nəfər könüllü qoşunları vardır. Hətta Petrovskun özündə belə külli miqdarda qoşun yoxdur.

**Könüllülər haqqında**

İyunun 7-də şəhərdə şayiələr buraxılmışdı ki, guya Bakıya 600 nəfər könüllülər gəlmişdir. Həmin şayiələr təhqiq edildikdə məlum olmuşdur ki, gələnlər 30 nəfər olub burada yaşayan öz ailələrinin yanına gəlmişlərdir ki, onları çoxdan bəri görməmişlərdir. Gələnlər haqqında polis lazımi məlumat əxz etmişdir [əldə etmişdir].

**Top atılacaqdır**

Bakı qalabəyisi [komendantı] ümum şəhər və ətrafı əhalisinə məlum edir ki, iyunun 10, 11 və 12-də təcrübə olmaq üzrə bir neçə top atılacaqdır. Əhalinin həyəcana düşməməsi rica olunur.

**Edadi məktəb kursları**

Yerli edadi məktəblərin bir neçə müəllimləri tərəfindən imtahan və təkrar imtahanlara az bir zamanda şagirdlər hazırlamaqdan ötrü kurslar açılmışdır. Həman kurslarda bir illik edadi məktəbinin ali sinfinin kursu üç ayın ərzində oxunur. Dərslərdə təcrübəli, darülfünun itmam etmiş [universitet qurtarmış] müəllimlər iştirak edirlər. Kursu isə elmi-riyaziyyə müəllimi A.Sipol idarə edir və digər qadınlara məxsus siniflər dəxi vardır. Ondan masiva [ondan başqa], türki, almani, Fransa, latın, İtaliya dillərindən ötrü siniflər açılmışdır. Şagirdlər dəstəsində hər sinifdə 10 nəfərdən ziyadə olmayacaqdır. Xahiş edənlər hər gün saat 5-dən 7- dək "İttihad" mədrəsəsində A.Sipol cənablarına müraciət edib məlumat ala bilərlər.

**Tazəşəhərdə**

Dünən Tazəşəhərdən yeni varid olmuş [gəlmiş] möhtərəm bir şəxs Məvərayi-Bəhri-Xəzər [Zakaspiysk] əhvalı haqqında mühərririmizə zeyldəki [aşağıdakı] məlumatı vermişdir:

Hal-hazırda bolşeviklərin hərəkatı təxirə uğramışdır. Buna da səbəb Könüllü ordunun geri çəkildikdə yolları xarab etdiyi olmuşdur. Cəbhədə indi Könüllü ordunun 2000 nəfərə qədər qoşunu vardır. Bunlardan əlavə, bir qədər də türkmən qoşunu vardır. Türkmənlər müharibədə nə qədər rəşadət və şücaət göstərirlərsə də, bir o qədər könüllülər və erməni dəstələri namərdlik və qeyrətsizlik büruzə verirlər. Bayraməli mövqifi [stansiyası] süngü müharibəsi ilə üç dəfə əldən-ələ keçmişdir. Həmin şiddətli müharibələrdə türkmənlər böyük hünər göstərmişlərdir. Ermənilərdən bir batalyon qoşun bolşeviklərin tərəfinə keçmişdir. Deyirlər ki, həmin bir batalyon erməni qoşununu bolşeviklər mühasirə edib təslim almışlardır. Cəbhə indi Qəhqə mövqifi yaxınlığındadır. Mərv və Tecan şəhərləri və ətrafı bolşeviklər tərəfindən işğal edildiyindən, Məvərayi-Bəhri-Xəzərdə ərzaq böhranı müşahidə olunur. Çünki məzkur [deyilən] yerlər külli miqdarda taxıl verirdi. Buna görə də Məvərayi-Bəhri-Xəzərdən taxıl və qeyri ərzaq çıxarılmasına icazə verilməyəcəkdir. Ancaq mübadilə ilə cüzi miqdarda aparılması mümkündür. Petrovskdan köməyə getmiş olan Könüllü ordu komandanı general [İppolit Viktoroviç] Savitski Məvərayi-Xəzər mahalı general-qubernatorluğuna və ordunun baş komandanlığına təyin edilmişdir. Ayın 10-dan etibarən Məvərayi-Bəhri-Xəzərdə ümumi səfərbərlik elan edilir. Aşqabaddan külli miqdarda əhali qaçmaqdadır. Dəmiryol qatarları dolu olaraq hərəkət edir. Hətta qatarların damları belə miniklər tərəfindən işğal edilir. Əhval həyəcanlıdır.

**Məmləkətin mühasirə halında elan edilməsi**

Denikin ordusunun təhdidi münasibətilə Ali Hökumət Heyəti tərəfindən Azərbaycan Cümhuriyyətinin bəzi yerləri mühasirə halında elan ediləcəkdir. Cümhuriyyətin hanki yerləri mühasirə halında elan ediləcəyi hələ müəyyən edilməmişdir.

**Ümumi səfərbərlik**

Könüllü ordu təhdidi münasibətilə Azərbaycan Cümhuriyyətində yaşayan ümum müsəlmanlar 30 sinninə [yaşına] qədər səfərbərliyə dəvət olunacaqlardır. Bu barədə Ali Hökumət Heyəti tərəfindən qərardad edilmişdir.

### ÇƏKİL, DƏF OL!

Turan balasıyam, türkün özündən,  
Soyuq su içdim mən punar gözündən,  
Yeni nur aldım o günəş üzündən,  
Şərəfli bir dilək yaşadır məni.

Annəciyim mənim şu yaşıl dağlar,  
Mənsiz nəşə bulmaz çiçəkli bağlar,  
Mənsiz bülbül inlər, çeşmələr ağlar,  
Buraxmam yurduma alçaq düşməni!

Mən də cəngə girdim, cidalı gördüm,  
Göy üzünə baxdım, hilalı gördüm.  
Səni yox, o gözəl camalı gördüm,  
Yadlara aldırtmam gözəl vətəni.

Ey buzlu şimaldan qopan ruzigar!  
Toxunma qəlbimə, atəşi parlar.  
Saqın gəlmə, səni nəfəsim boğar,  
Dəf ol! Vətənimdə görəməm səni...

Ey murdar çöhrə, sən, ey əbus sima!  
Sevdiyim deyilsən, qarşımda durma!  
Nifrətim var sənə, mənə yaxlaşma,  
Kinlərim məhv edər qarşı gələni!

*7 həziranı Ümmügülsüm*

### BAKI VƏ ƏTRAF[ININ] ZƏHMƏTKEŞ ZİYALILAR İTTİFAQINDA

Bakı və Ətrafının Zəhmətkeş Ziyalılar İttifaqı idarəsinin iclası Ağa Axundzadənin təhti-sədarətində [sədrliyi altında] açıldı. İclas açıldıqda mayıs 26 iclasın [in] bəratülqövlü [protokolu] oxundu və imza edildi. Bugünkü iclasın müzakirəsinə qoyulacaq məsələlər:

1) 27 mayısda qoyulmuş tamaşanın mədaxilinin haqq-hesabı;

2) Ümumi iclas dəvəti;

3) İttifaq üzvü Sadıq Əhmədzadənin təklifi;

4) Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] tutduğu bir iş;

5) İdarəyə Dudarovdan gəlmiş bir ərizə.

Məsələlərə keçildikdə, Ağa əfəndi [Axundzadə] söylədi ki, mayısın 27-də Hökumət Teatrosunda qoyulmuş "Arşın mal alan" teatrosundan 21.330 manat mədaxil olmuşdur. Bu mədaxildən 7.000 rublə teatro icarəsi, 73 rublə paltar asan, 85 rublə elan paylayana, 450 rublə mətbəəyə, 10.000 rublə artistlərə, 5 manat registratora, 225 manat qəzetələrə elan xərci və 100 manat bilet dəftərçələrinə verilmişdir ki, cümlətanı 18.938 rublə edir. Bu xərclərdən masiva [başqa] Bələdiyyə İdarəsinə 4.000 rubləyə kimi xərc gərək verilsin, hərgah bu xərc də verilməli olsa, bu tamaşadan idarə zərər çəkəcək.

İdarə qərar qoydu ki:

a) Maarif nazirinə bir təzkirə [rəsmi müraciət] yazılsın ki, İttifaqdan 1.000 manat yerinə 7.000 manat teatro kirayəsi alınmışdır. Nazir həzrətlərindən idarə rica edir ki, artıq alınmış 6.000 manatın möhtəkirlərdən alınıb idarəyə qaytarılmaq sərəncamında olsunlar. Və:

b) Bələdiyyə İdarəsindən xahiş olunsun ki, idarə cəmiyyət və maarif işlərini təqib etdiyi üçün Bələdiyyə İdarəsi ittifaqdan xərc almasın.

İkinci məsələyə şüru edildikdə [başlandıqda], Ağa əfəndi [Axundzadə] ümumi iclasın dəvəti hal-hazırda ziyadə faydalı olar deyə, bu iclasın dəvəti müzakirəsini təklif etdi. Ətraflı müzakirədən sonra idarə qərar qoydu ki, işbu həziran ayının 8-də, axşam saat 6-da Bakı Bələdiyyə salonunda Ziyalılar İttifaqının fövqəladə ümumi iclası dəvət olunsun. Bu iclasın müzakirəsinə qoyulacaq məsələlər:

1) İdarənin məlumatı;

2) Təftiş heyətinin intixabı [seçilməsi];

3) Hali-hazır;

4) İclasda qaldırılacaq məsələlər;

Üzvləri ümumi iclasa dəvət etmək üçün xüsusi bir vərəqə yazılıb üzvlərə göndərilsin. Rusi-müsəlmani [rusca və Azərbaycanca] "Azərbaycan" qəzetələrində üç gün peydərpey üzvlərə dəvətnamə yazılsın. İdarə üzvü Əliməhəmməd qəzetələrdə bir dəfə dəvətnamə kifayət edər deyib, xüsusi təsəvvüründə qaldı.

Üçüncü; İttifaq üzvü Sadıq Əhmədzadə öz təklifi xüsusunda söz aldı və erməni ədiblərindən İşxanyan adlı bir şəxsin yazdığı kitabçanı idarəyə təqdim edib söylədi ki, hərçənd bu kitabın sərlövhəsi "Cənubi Qafqaziyada inqilabi- məkus" [əksinqilab] yazılmışdır, fəqət məzmunu başdan-başa yalan sözlərlə bu yerin müsəlmanlarını müttəhim etmək və səbəbsiz günahlandırmaqdır. Mən də İşxanyanın bu açıq-aşkar yazdığı yalanlarına müqabil bir cavab yazmışam ki, bu cavabları əvvəla Ziyalılar İttifaqı nəzərdən keçirsin və sonra leksiya kimi camaat üçün oxunsun və lazım bilinsə, çapa da verilsin. İdarə qərar qoydu ki, işbu həziran ayının 4-də, çaharşənbə günü axşam toplanıb Əhmədzadənin yazdığı cavablarını dinləsin və sonra Əhmədzadə tərəfindən camaat üçün oxunmaq xüsusunda qərar verilsin.

Dördüncü; Sadıq əfəndi söylədi ki, Ümuri-Xeyriyyə Nəzarətindən [Sosial Təminat Nazirliyindən] rusların Milli Şurasına bir təzkirə yazılmışdır. Bu təzkirədə Nəzarət, Milli Şuradan 40 nəfər işsiz şəxslər istəyir ki, bunlardan tamojna (gömrük) üçün mühafizə bölüyü təşkil etsin. Çox ümid vardır ki, həmin "işsiz" şəxslərdən doğrudan tamojna bölüyü təşkil olunsun. Bu məlumat verildikdə üzvlər hər biri məmuriyyət idarələrində baş verən biqayda işlər haqqında çox söylədi. Hətta hal-hazırda Ticarət və Sənaət [Sənaye] Nəzarətinin rəsmi dava vəkili Petroqradın sabiq Oxrannı [Mühafizə] şöbəsinin rəisi məşhur Kafafov olduğunu da məlum etdilər. İdarə qərar qoydu ki, bu xüsusda Parlaman fraksiyalarına bir təzkirə yazılsın.

Beşinci; Dudarovdan gəlmiş ərizəni Camo bəy oxudu. Bu ərizədə Dudarov yazır ki, iki ay bundan əqdəm [qabaq] Ziyalılar İttifaqının yazmağına görə, Ümuri-Xeyriyyə Nəzarəti [Sosial Təminat Nazirliyi] Şamaxı qəzasında buna bir qulluq vəd edib Kürdəmirə göndərdi. Amma bu hala kimi Kürdəmirdə yersiz qalmışdır. İdarədən təmənna edir ki, bu xüsusda ona yardım edilsin. İdarə qərar qoydu ki, həman ərizə Ümuri-Xeyriyyə nazirinə göndərilsin və idarə üzvləri Əliməhəmməd və Camo bəy nazir ilə görüşüb bu əhvalatı ona bəyan etsinlər.

Məsələlər qurtardıqda, Rəhim əfəndi söz alıb söylədi ki, Ziraət Nəzarəti [Əkinçilik Nazirliyi] Muğan məhsulatını toplamaq üçün Muğanda müvəqqəti bir məmuriyyət təyin etmişdir. Məmuriyyəti idarə etmək üçün Ziyalılar İttifaqından müvəqqəti məmurluğa layiq şəxslər istəyir. Bu təklif müzakirəyə qoyulduqda, hal-hazırda müəllimlərin azad olmaları və bu məmuriyyətin də müvəqqəti olması üzvlər tərəfindən söyləndi. İdarə qərar qoydu ki, Müəllimlər İttifaqına bir təzkirə yazılsın və İttifaqdan bu məmuriyyətdə işləməyə layiq şəxslər siyahısı istənilsin.

### AZƏRBAYCANDA

**Gəncədən**

Burada cinayət bir adət hökmünü almış, hər gün şəhərdə atışma olur. Bir qaç gün irəli birisi axşam kəndi qardaşını öldürdü. Dün axşam sürəkli bir atışma əsnasında bir qaç adam daha qətl edildi. Bir axşam olmayır ki, əhalinin istirahəti pozulmasın. Türklər zamanında və türklərdən bir qaç ay sonra sakitlik və doğruluq içində ömür edən Gəncə əhalisi artıq rahat edəmməyirlər. Cinayət kimi, oğurluq da gün-gündən artmaqdadır. Xainlər yenə əvvəlki vəhşi hərəkətlərini davam etdirirlər. Yüzlərcə milislərdən heç bir müvəffəqiyyət, heç bir fədakarlıq göstərilməyir. Yalnız maaş alaraq dörd qatar, bir mauzer daşımağı öyrənmişlər. Öylə bir haldır ki, hökumətimizin xaricdən çox, daxili düşmənləri vardır. Bir köylü arxadaşımın söylədiyinə görə, köylər bundan daha fənadır. Canilər və oğrular köylərə qaçırlar. Polis tərəfindən təqib edilməyir. Bu alçaqlar, bu qatillər yalnız biri-birini öldürməyir. Onların qarı-qızlarını, ana və bacılarını müdafiə edəcək, namuslarını saxlayacaq gənc Azərbaycanın kökünə balta çalırlar. Bu vəhşi hərəkətlərin çoxalmasının səbəbini bir dürlü həll edəmməyirəm. İdarələrin səhlənkarlığımı, əhalinin vəhşiliyimi? Əgər əhali vəhşi isə, əvvəldən də vəhşi deyilmiydilər? Yoxsa şimdimi vəhşiləşdilər? Nə isə, səbəb nə olduğunu anlayanlar dərk edəcəkdir. Bunları yazaraq gənc hökümətimizin nəzər-diqqətini şəhərimiz və ətrafına cəlb ilə bu xüsusda bir çox tədabirdə [tədbirlərdə] bulunacağını ümid edirəm.

*Davud*

**Göyçaydan**

Bir sənəlik İstiqlaliyyət bayramı Göyçayda təntənəli bir surətdə davam etdi. Bütün çarşı-bazar, evlər istiqlalın üçrəngli, ay-ulduzlu bayrağı ilə donadılmış, bütün əhali o günə məxsus bəşuş [sevincli] bir çöhrə ilə tətilə iştirak edir və böyük bulvara cəm olmağa başlayırdılar. Çocuqların çalğı ilə şəhəri gəzməsi bu bayrama başqa bir lətafət verirdi. Saat İldə hər kəs meydana cəm olmuş, böyük bir mitinq tərtib olunaraq Göyçay qazıları Mahmud əfəndi və Seyid Məhəmmədzadə həzrətləri mitinqə rəyasət edərək, hər birisi qəyət bəliğ [ifadəli, təsirli] nitqlər söyləyərək istiqlaliyyətin yalnız mühafizəsi qəvi [güclü] və möhkəm bir əsgəri təşkilatla mümkün olacağını bəyanla, əhalini əsgərliyə təşviq edirlərdi.

Göyçay uyezdinin məbusu Əfəndizadə Hacı Hüseyn tərəfindən Azərbaycan istiqlaliyyətinin tarixi yollu bir nitqi və ən nəhayət "Türk qardaşlarımızın məzarlarını ziyarət bir vəcibədəndir" [vacib olan işlərdəndir, borcdur] deyə təklifi ümuma qəbul və müəllimlərdən Əbdülqafur Süleymanzadə, Əlizadələrin nitqindən sonra əhali bayraqlarla şühəda [şəhidlər] məzarlığına yönəldi.

Camaatda böyük bir hüzün və xüşu [təvazö] hiss olunurdu. Məzarlıqda bir əşir [on ayə] Qurani-kərim tilavət edildikdən [oxunduqdan] sonra istirahəti-ruhları üçün uzun bir dua oxundu. Əhali təkrar çarşıya gələrək ümumən qəbul edilmiş, Azərbaycan Məclisi-Məbusanına istiqlalımızın müdafiə və mühafizəsi üçün bütün mövcudiyyətlərini fəda edəcəklərini təmin yollu bir teleqraf göndərilməsini mitinq rəislərinə həvalə edərək dağıldılar. Axşam isə Məktəb Tələbələri Cəmiyyəti tərəfindən tərtib edilmiş teatro mütəntən [təntənəli] bir surətdə keçdi.

### GÜRCÜSTANDA

**Çxeidze Pişon yanında**

Gürcüstan Xariciyyə Nəzarəti Parisdən, Sülh Konfransında olan gürcü heyətindən böylə bir məlumat almışdır:

Gürcüstan Cümhuriyyəti heyətinin rəisi N. S. Çxeidze Sülh Konfransı üzvü, Fransa Cümhuriyyətinin Xariciyyə Naziri Pişonu ziyarət edib, Gürcüstan heyəti tərəfindən Sülh Konfransına təqdim edilən tələbatın xülasəsini ona söyləmişdir. Pişon Çxeidzeyə demişdir ki, Gürcüstan məsələsi aşkardır və bu məsələnin gözəl bir surətdə həll ediləcəyinə heç bir mümaniət [maneçilik] görməyir.

**Soçi nahiyəsində atışma**

*"Borba" qəzetəsində böylə bir teleqraf dərc edilmişdir:*

*"İki yüz nəfərdən ibarət düşmən dəstəsi 202 nömrəli hündürlüyə hücum etmişsə də, böyük tələfatla dəf edilmişdir. Düşmən qaraqolları Xristaforovoya daxil olmuşdur. Bizim kəşfiyyatçılarımız təzə şəhərdə və Eston hündürlükləri cənubunda düşmən qaraqolxanaları olduğunu kəşf etmişdir. Bizim əsgərlərimiz Roqozin kəndinə çatanda atışma başlanmışdır. Bir atlı qətl edilib, digəri yaralanmışdır.*

*Suxum qrupu əsgəri komandanı polkovnik Karqarateli"*

**Könüllü ordu nə cürə müharibə edir?**

Qaqra şəhərinin komendantı Novikov xəbər verir ki, Qaqra işğal edildiyi zaman gürcü narodnı qvardiya [xalq qvardiyası] əsgərləri tərəfindən əsir edilən 163 nəfər Könüllü ordu zabitlərindən 31 nəfəri izhar etmişlər [bildirmişlər] ki, hərbi əsirlər dəyişdirildiyi təqdirdə onları Könüllü orduya göndərməsinlər. Bunlar öz istidalarını [xahişlərini] bununla təfsir [izah] edirlər ki, Könüllü ordu amalına onlar razı deyillər və onlar güclə orduya daxil edilmişlər.

### ERMƏNİSTANDA

Qarsdan və Naxçıvandan ingilis əsgərləri çıxıb getmişlərdir. Bir qaç kişidən ibarət ancaq cüzi bir heyət qalmışlardır. İştə, bunların çıxıb getməsindən daha artıq fürsət qazanıb ortalığı boş və müsəlmanları sahibsiz görən ermənilər öz təbeiyyətindəki müsəlmanları utanmayıb genə öldürməyə, məhv etməyə başlamışlardır. Heç olmazsa, Azərbaycanda ermənilərin nasıl rahatlıqla yaşadıqlarını görüb utansalardı...


**Bəhri-Xəzər İstehlak Cəmiyyəti "Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan

Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov

Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld

Cərrahiyyə 9-11 Sander

Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron

Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]

Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik

Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan

Qulaq və boğaz ağrısı 12-2 B. K. Finkelşteyn;

Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 itkin

Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Satılır**

Avtomobil, karetası qoz ağacından. 60x40 güclü. Adres: Bazarnaya küçə, nömrə 6. İbrahimov.

*10224*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Berlin Darülfününu doktoru S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17,2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

Doktor **M.M.Kərimov** göz naxoşlarını və diş həkimi **A.Əmirov** naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

Xarici məmləkətlərə yun yollamağı və komisyon təriqi ilə xarici məmləkətlərdə satmağı İ. V. Denisovun bankir kantorası qəbul edir (Olqinski, Nikolayevskinin küncündə, telefon nömrə 37-75). Sifarişlər saat 5-dən 7-yə dək qəbul olunur.

*10220*

Batumdan xarici məmləkətlərə yun yollamağı və xarici məmləkətlərdə komisyon təriqi [yolu] ilə satmağı İ. V. Denisovun bankir kontorası qəbul edir. (Velikoknyajeski, nömrə 1).

*8799*


***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"məhkum millətlər zülümdən qurtarmaq istəyəcəklər": qəzetdə "zülümdən" yerinə "zülmündən" getmişdir.

***Milislərin hərəkatına dair***

"dvornik" (dalandar): Çar Rusiyasında "dvorniklər" xüsusi döş nişanı daşıyır və sadəcə məhəllələrin təmizliyinə deyil, nizam-intizamına da baxırdılar.

"strajnik" (qoruqçu): Çar Rusiyasında kəndlərdə xidmət edən aşağı rütbəli polis.

***Bakı xəbərləri***

"bu gün həziranın 13-də": tarixdə səhv var; qəzetdə belə getmişdir.

"Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Qəhqə": Türkmənistanın cənubundakı Kaka şəhəri əvəllər "Qəhqə", "Qəhqəhə" adlarını daşımışdır.

***"Çəkil, dəf ol!" şeiri (səh. 221) üçün lüğət punar: bulaq***

cidal: müharibə; qalmaqal

əbus: acıqlı, hirsli

***Bakı və Ətraf[ının] Zəhmətkeş Ziyalılar İttifaqında***

"işxanyan adlı bir şəxsin yazdığı kitabçanı": burada söhbət erməni publisisti Baxşı işxanyandan və onun "Zaqafqaziyada əksinqilab" adlı kitabından gedir.

***Gürcüstanda***

"Suxum qrupu əsgəri komandanı": qəzetdə "qrupu" sözü təhrif edilmişdir.

# Bakı bulvarı dünya səviyyəsində etalona çevrilir



## Prezident İlham ƏLİYEV: "Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir və gələcəkdə də şəhərin inkişafı ilə bağlı əlavə addımlar atılacaqdır"

**Bu günlərdə yayılan xəbər hamıya xoş ovqat bəxş etdi: Xəzərin mirvari boyunbağısı adlandırdığımız Dənizkənarı Milli Park nüfuzlu "Green Flag Award" beynəlxalq mükafatına layiq görülüb.**

Xatırladaq ki, bu beynəlxalq mükafat dünyanın ən mötəbər park idarəçiliyinin qiymətləndirilməsi sistemlərindən biri kimi ictimai istirahət məkanlarında yüksək idarəetmə standartlarını, cəmiyyət üçün əlçatan, təhlükəsiz və baxımlı, ekoloji baxımdan dayanıqlı yaşıl ərazilərin saxlanmasını və inkişaf etdirilməsini dəyərləndirir.

"Green Flag Award" proqramı 1996-cı ildə təsis edilib və hazırda 20-dən artıq ölkədə tətbiq olunan beynəlxalq ekoloji qiymətləndirmə sistemidir. Mükafat yalnız yaşıllıqların qorunması, təmizlik və təhlükəsizlik, infrastrukturun vəziyyəti, idarəetmə səmərəliliyi, təbiətə qayğı, ictimai iştirak və inklüzivlik kimi çoxsaylı meyarlar üzrə yüksək göstəricilər əldə edən park və istirahət məkanlarına təqdim olunur.

Dənizkənarı Milli Parkın "Green Flag Award"a namizədliyi bir neçə mərhələdən ibarət beynəlxalq qiymətləndirmə prosesi çərçivəsində həyata keçirilib. Parkın saxlanma və idarəetmə sistemi, ətraf mühit siyasəti, xidmət strukturu və sair ilə bağlı əhatəli müraciət və sənədlər toplusu qiymətləndirilib. Məlumatlar mükafatın beynəlxalq ekspertlərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndirilib və yekun mərhələdə sözügedən münsiflərin iştirakı ilə 30-a yaxın meyar üzrə bilavasitə Milli Park ərazisində ətraflı monitorinq aparılıb.

Unikal tarixi, təbii-ekoloji və mədəni kompleks kimi Dənizkənarı Milli Parkın qiymətləndirilməsi prosesində onun estetik əhəmiyyəti, Bakı şəhərinin tarixini və müasir inkişafını əks etdirməklə, unikal şəhər mühiti yaratması, ictimai əhəmiyyəti, habelə saxlanması və idarə edilməsində dövlət tərəfindən tətbiq edilən unikal idarəetmə modeli xüsusilə qeyd edilib.

Xatırladaq ki, Dənizkənarı Milli Park öz unikallığı, ekoloji və ictimai əhəmiyyəti, həmçinin saxlanması və qorunması sahəsindəki uğurlarına görə ötən il Niderlandda "International Large Urban Parks Award" (Beynəlxalq Böyük Şəhər Parkları Mükafatı) mükafatına da layiq görülmüşdü.

Xəzərin mirvari boyunbağısı adlandırılan və beynəlxalq mükafatlara layiq görülən Bakı bulvarı Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü və sərəncamına əsasən genişləndirilərək 3,5 hektardan 16 hektara çatdırılıb.

Bu gün hər sahədə qazandığımız uğurların təməlində Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, əzmkarlığı və Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqincə davam etdirilməsi dayanır.




Ötən 20 il ərzində Azərbaycan həm bölgədə, həm də dünya miqyasında ən sabit və dinamik inkişaf edən ölkələrdən birinə çevrilib. Möhtərəm Prezidentin rəhbərliyi ilə reallaşdırılan ümummilli inkişaf strategiyası hər bir sahənin paralel inkişafını ən yüksək səviyyədə təmin edib.

Ölkə həyatı üçün strateji əhəmiyyət daşıyan inkişaf proqramları hazırlanıb, işlək mexanizmlər əsasında həyata keçirilib. Ən müxtəlif sahələrdə intibah prosesi geniş vüsət alıb. Respublikanın investisiya və sosialyönümlü mahiyyət daşıyan milli inkişaf modeli tərəqqi prosesində yeni keyfiyyət göstəricilərinin əldə olunması, qeyri-neft sektorunun inkişafı yolu ilə regionların balanslı və davamlı inkişafının sürətləndirilməsi, yeni iş yerlərinin açılması üçün milli sahibkarlığın hərtərəfli dəstəklənməsi kimi vacib məsələləri özündə ehtiva edib. Bu gün Azərbaycan nümunəvi inkişaf modelinə malik olan ölkəyə çevrilib.

Azərbaycan Prezidenti İlham Əliyev şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edir, hətta bir çox layihənin təşəbbüskarı olub. Nəticədə bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən beynəlxalq tədbirlərdə, simpozium və konfranslarda iştirak edən rəsmilər Prezident İlham Əlievlə görüşlərində, eləcə də mətbuata açıqlamalarında paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir.

Prezident İlham Əliyev mütəmadi olaraq Bakının rayonlarında və qəsəbələrində olur, həyata keçirilən quruculuq və abadlıq işləri ilə yaxından tanış olaraq, aidiyyəti qurumlara müvafiq tapşırıqlarını verir.

Bakının simasının dəyişdirilməsi, yaşıllıqların genişləndirilməsi istiqamətində atılan addımlar sakinlərin rahat yaşayışının təmin edilməsinə yönəlib.

Görünən odur ki, Şərqin Parisi adlandırılan, qədimliklə müasirliyi özündə ehtiva edən Bakı son illər daha da gözəlləşib. Yeni göydələnlər, dünya standartları səviyyəsində çəkilən yollar, günün tələblərinə uyğun yaradılan istirahət guşələri və parklar Bakının qədim görkəminə möhtəşəmlik gətirir.

Bu möhtəşəmliklər sırasında Dənizkənarı bulvarın öz yeri, gözəlliyi var. Xatırladaq ki, "bulvar" sözü fransız mənşəlidir və sahil boyunca gəzinti zolağı deməkdir. Xəzərin mirvari boyunbağısı adlandırılan bu gəzinti zolağında rahat hərəkət üçün çəkilən xüsusi xətlər, müxtəlif dekorativ kollar və ağaclar, çiçək-gül qarışıq çəmənliklər, rəngbərəng işıqlandırma fanarları, oturacaqlar, istirahət guşələri və digər gözoxşayan görüntülər insanları məmnun edir.

Keçən əsrin 50-60-cı illəri Dənizkənarı bulvarın "qızıl dövrü" kimi qiymətləndirilsə də, burada sonradan bir neçə dəfə yüksəksəviyyəli təmir, yenidənqurma və yaşıllaşdırma işləri aparılıb. 116 yaşlı Bakı bulvarı əsl inkişaf mərhələsinə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci hakimiyyəti illərində qovuşub. 1970-ci illərdə respublikada və Bakı şəhərində yaşıllaşdırma və abadlaşdırma işlərinin genişləndirilməsi nəticəsində Dənizkənarı bulvarda da yenidənqurma işləri aparılıb. Bulvar şərq və qərb istiqamətlərində genişləndirilərək uzunluğu 3,7 kilometrə çatdırılıb. Yerli sakinlər bəzən bura Sahil bağı da deyirdilər.

Sahil bağının əhəmiyyətini nəzərə alan Heydər Əliyev 1998-ci il dekabrın 29-da Dənizkənarı bulvara Milli Park statusu verilməsi haqqında fərman imzalayıb. Məhz bu fərmandan sonra Sahil bağının taleyində inkişafa doğru böyük dönüş yaranıb. Ən başlıcası, Nazirlər Kabinetinin 29 dekabr 2001-ci il tarixli 132 nömrəli qərarına əsasən, Dənizkənarı Milli Park ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin tapşırığı ilə bulvar ərazisinə diqqət və qayğı daha da artırılıb. Dövlət başçısının 10 yanvar 2008-ci il tarixli fərmanı ilə Dənizkənarı bulvarın təbii landşaftının bərpası, onun tarixi simasının saxlanılması, ərazisinin zəngin florasının inkişaf etdirilməsi, mühafizə olunması, sosial-mədəni tədbirlərin həyata keçirilməsi məsələlərinin həllini təmin etmək məqsədilə Dənizkənarı Bulvar İdarəsinin yaradılması Sahil bağının inkişafında böyük quruculuq işlərinə səbəb olmuşdur. 2015-ci ildə bulvar ərazisinin iki istiqamətdə - birinci Dövlət Bayrağı Meydanından (Daş Salnamə Muzeyinin qarşısından) Bibiheybət məscidinə kimi Bayıl bulvarının, digəri isə Dəniz Ticarəti Limanından "Bulvar" hotelə kimi uzadılan "Ağ Şəhər" bulvarının yaradılmasına start verilmişdir. Hazırda Bakı "Ağ Şəhər" bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 34,6 hektardır. Bayıl bulvarının uzunluğu 2,3 kilometr, sahəsi 24 hektardır. Bu ərazilərdə yenidənqurma və abadlıq işləri ilə yanaşı, müxtəlif istirahət, iaşə və müasir mədəniyyət obyektləri inşa edilib.

Ümumilikdə 200 hektardan çox sahəni əhatə edən Bakı bulvarının ərazisi 16 kilometrdir. Bulvarın Bakının müasir memarlıq tələblərinə uyğun qurulması, mühafizəsi, qorunması, bərpası və inkişafı baxımından xeyli işlər görülüb. Yeni çəmənliklər salınıb, xan çinarlar, sərv və küknar ağacları, müxtəlif çeşidli gül kolları əkilib, yeni attraksionlar quraşdırılıb. Parkın "Azneft" meydanı ilə üzbəüz ərazisində musiqili fəvvarə kompleksi yaradılıb. Kukla teatrı yenidənqurmadan sonra istifadəyə verilib. 2008-ci ildə isə Hökumət evinin qarşısında yaradılan ikinci fəvvarənin tikintisi və həmin il dekabrın 27-də Beynəlxalq Muğam Mərkəzinin açılışı hamının ürəyincə olub. Təsadüfi deyil ki, Bakı bulvarı dünya ölkələrində mövcud olanlardan öz gözəlliyi və yaşıllığı ilə seçilir.

Qərblə Şərqin memarlıq elementlərini özündə birləşdirən, turistlərin və şəhər sakinlərinin sevimli gəzinti və istirahət yeri olan bu ərazidə tarixi əhəmiyyətli məkanlar yaradılır. Dövlət Bayrağı Meydanı, Dövlət Bayrağı Muzeyi və "Avroviziya" müsabiqəsinin keçirildiyi idman-əyləncə kompleksi olan "Bakı Kristal Zalı" da bu ünvanlar sırasına daxildir. Azərbaycan torpaqlarının 30 illik erməni işğalından azad edilməsini və tarixi Zəfər salnaməsini özündə yaşadan Hərbi Qənimətlər Parkı ziyarətçilərin ən çox üz tutduqları ünvanlardandır. Bu gün erməni işğalından azad edilmiş bütün torpaqlarımızda üçrəngli, şanlı Azərbaycan bayrağı dalğalanır.

Beynəlxalq mükafatlara layiq görülmüş Dənizkənarı Milli Parkda diqqətçəkən amillərdən biri də səliqə-sahman və təmizlik işləridir. Bunlar üçün ən müasir avadanlıqlardan istifadə olunur. Hiss edilir ki, buraya müxtəlif xarici ölkələrdən gətirilib əkilmiş hər çiçəyə, hər kola, hər ağaca ciddi nəzarət edilir, özünəmüvafiq üsulda qayğı göstərilir. Bir sözlə, mənəvi sərvətimiz olan bu milli parkda hər bir layihə gözoxşayandır. Bütün bunlar qürur duyduğumuz Bakı bulvarının daha da gözəlləşməsinə xidmət edir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Dünya olduğu kimi

## Ağcaqanad yetişdirmə fabriki



**Braziliyanın Kampinas şəhərində dünyanın ən böyük ağcaqanad yetişdirmə fabriki işə salınıb.**

Ölkədə denge qızdırmasına qarşı irimiqyaslı mübarizə proqramının bir hissəsi olan fabrik həftədə təqribən 190 milyon həşərat istehsal etmək gücündədir.

Min üç yüz kvadratmetr sahəsi olan obyektdə denge virusunun çoxalmasının qarşısını alan zərərsiz "Wolbachia" bakteriyası yeridilmiş ağcaqanadlar yetişdirilir. Çoxalma prosesinə güclü nəzarət edilir, sürfələr müəyyən temperaturlu xüsusi lotlarda böyüyür, yaşlı erkəklərə şirin məhlul, dişilərə isə insan dərisini imitasiya edən paketlərdə heyvan qanı verilir. Ağcaqanadlar təqribən bir ay qəfəslərdə saxlanılır, çoxalır və yumurta qoyur.

Mütəxəssislərin sözlərinə görə, bu metodun səmərəliliyi bir sıra ölkələrdə öz əksini tapıb, lakin məhz Braziliya onu ilk dəfə belə miqyasda tətbiq edib. Bu da xəstəliyin görünməmiş dərəcədə tüğyan etməsi ilə bağlıdır. Məsələn, 2024-cü ildə dünyada qeydə alınmış denge qızdırmasına yoluxma hallarının 80 faizi məhz Braziliyanın payına düşüb.

## Laplandiyanın "qızıl ağacları"

**Finlandiyanın Laplandiya bölgəsində aparılan araşdırma zamanı nəhəng Norveç şamlarının iynəyarpaqlarında qızıl hissəcikləri tapılıb.**



Oulu Universitetinin tədqiqatçıları 23 şam ağacından 138 nümunə toplayıblar. Ağacların bəzilərində bakterial bioplyonkalarla əhatə olunmuş qızıl nanohissəciklər aşkarlanıb.

Alimlərin fikrincə, ağacların içərisində yaşayan mikroblar torpaqdan suda həll olunmuş qızılı udur və onu bərk nanohissəciklərə çevirir. Biominerallaşma adlanan bu proses əvvəllər Avstraliyadakı bəzi evkalipt ağaclarında müşahidə olunub. Qərbi Avstraliyada aparılan tədqiqatlarda evkalipt yarpaqlarında 8 mikrometrə çatan qızıl hissəciklər tapılıb. Lakin yarpaqlardan qızıl əldə etməyin çətin olduğu da qeyd edilir. Belə ki, 100 ton evkalipt yarpağından yalnız 8 qram qızıl əldə etmək olur.

## Vaxtı ölçmək üçün yeni üsul



**Beynəlxalq fiziklər qrupu əqrəbsiz işləyən kvant saatı təqdim ediblər. Cihaz zamanı ölçmək üçün mexaniki sayğaclara ehtiyac duymur.**

Tədqiqatçılar helium atomlarını yüksək enerji vəziyyətlərinə gətirərək dalğa paketləri yaradıblar. Bu paketlər işıqla qarşılıqlı təsirə girəndə hər biri özünəməxsus və təkrarlanmayan izlər formalaşdırır. Məhz bu unikal izlər vasitəsilə zamanı femtosaniyə səviyyəsində, yəni saniyənin kvadrilyonda bir hissəsi qədər dəqiqliklə ölçmək mümkündür.

Ən maraqlısı isə odur ki, bu saatlar adi saatlar kimi titrəyişləri saymır. Onlar dalğa paketinin yaranma anını qeydə alaraq "mütləq zaman" anlayışını ölçürlər. Bu, elm adamlarına ölçülən vaxtın tam real olduğuna və heç bir sistematik səhv buraxılmadığına əmin olmağa imkan verir.

Tədqiqat zamanı alimlər çox qısa lazer impulsları ilə helium atomlarına təsir ediblər. Bu zaman yaranan fotoeffektlər nəticəsində toplanan məlumatlar nəzəri modellərlə tam üst-üstə düşüb. Maraqlıdır ki, belə dəqiqlik üçün cəmi bir neçə nanosaniyəlik müşahidə bəs edir, halbuki kvant dalğa paketləri bu məlumatı onlarla, hətta yüzlərlə nanosaniyə ərzində yadda saxlaya bilir.

Yeni texnologiya gələcəkdə spektroskopiya və yüksək enerji fizikası sahəsində tamamilə yeni tədqiqatlara yol aça bilər. Ən vacib məqam isə odur ki, bu metod hadisənin vaxtını hesablamaq üçün başlanğıc nöqtəyə ehtiyac duymur. Bu, sürətlə gedən kvant proseslərində inanılmaz dərəcədə vacibdir. O, femtosaniyə dəqiqliyi tələb edən eksperimentlərdə inqilab yarada bilər. Yeni kvant saatları göstərir ki, zamanın fiziki mahiyyəti bizim indiyə qədər düşündüyümüz kimi olmaya da bilər, yəni zaman bəlkə də tamamilə başqa cür işləyir.

## Nefud səhrasının sirli rəsmləri

**Səudiyyə Ərəbistanının şimalındakı Nefud səhrasında aparılan qazıntılar zamanı 12 min il əvvələ aid qayaüstü rəsmlər aşkarlanıb.**



Yüz otuza yaxın rəsmdə insan fiqurları, dəvələr, vəhşi eşşəklər, dağ keçiləri və qədim öküzlər təsvir olunub. Rəsmlər təxminən 12 min il əvvəl bu quraqlıq bölgədə insanların firavan yaşadığını deməyə əsas verir.

Almaniyanın Maks Plank adına Geoantropologiya İnstitutunun arxeoloqu Mariya Quanyinin sözlərinə görə, bu tapıntılar Səudiyyə Ərəbistanında indiyədək aşkar edilmiş ən qədim monumental qayaüstü rəsmlərdir: "Biz bilirik ki, insan icmaları rütubətli dövrlərdə Ərəbistan səhrasında yaşayırdı, həmin vaxt yağıntıların miqdarı artırdı, çəmənliklər və göllər isə indiki səhra olduğu ərazilərə yayılırdı. Lakin qədim insanların Şimali Ərəbistanda 25-10 min il əvvəl məskunlaşdığına dair çox az dəlil var. Həmin vaxt həddindən artıq quraqlıq və susuzluq dövrləri bir-birini əvəzləyirdi və insanların bu ərazini tərk etdiyi hesab olunurdu". Bu kəşf Şimali Ərəbistanın arxeoloji tarixində mühüm boşluğu doldurur və qədim icmaların sərt səhra şəraitinə uyğunlaşma qabiliyyətini işıqlandırır.

## Su altından çıxan tarixi kənd

**Türkiyənin Sivas şəhərinin Hafik rayonunda Pusat-Özen su anbarında suyun səviyyəsi quraqlıq səbəbindən kəskin şəkildə azalıb.**



Nəticədə təxminən 15 ildir su altında qalan tarixi Pusat kəndi üzə çıxıb. Məlumata görə, 2006-cı il Pusat dərəsi və Madenköy çayı üzərində suvarma məqsədilə inşa edilən Pusat-Özen su anbarı 2008-ci ildə tam dolub və tarixi Pusat kəndi tamamilə su altında qalıb. Təkcə məscidin minarəsinin üst hissəsi suyun səthində qalıb. İllərdir kəndlilər bu minarəyə baxaraq anbarda suyun səviyyəsini ölçüblər.

Suyun səviyyəsinin azalması şəhərin içməli su təchizatının dəyişdirilməsi ilə əlaqədardır. 2023-cü ildə "4 Eylül" su anbarına su ötürülməsi üçün 50 kilometrlik boru xətti çəkildikdən sonra Pusat-Özendə su sürətlə azalıb, əvvəlcə minarənin eyvanları, sonra məscidin günbəzi, hazırda isə bütün tarixi kənd tam şəkildə üzə çıxıb.

## Marsda qasırğa gücündə küləklər olur

**Son 20 ildə orbitdə olan kosmik gəmilər tərəfindən qeydə alınan görüntülər süni intellekt və dərin öyrənmə üsulları vasitəsilə təhlil edilib və məlum olub ki, Marsda toz burulğanları gözləniləndən daha güclü küləklər yaradır.**



Tədqiqatçılar 2004-2024-cü illər arasında qeydə alınan 1039 toz burulğanını təhlil ediblər. Məlumatlar "Mars Express" və "ExoMars TGO" kosmik gəmisindəki kameralardan əldə edilib. Nəticələr göstərir ki, bəzi burulğanlar saniyədə 44 metrə (təxminən 158 km/saat) qədər sürətlə fırlanır ki, bu da Mars səthində indiyə qədər ölçülən ən yüksək küləyin sürətini belə üstələyir.

Marsın atmosferi Yerin atmosferindən qat-qat incə olduğundan, hətta 100 km/saat sürətlə əsən külək də insan üçün çətin hiss oluna bilər. Lakin bu güclü küləklər planetin səthinin niyə bu qədər tozla örtüldüyünü və bu tozun havada necə qala biləcəyini izah edir. Əksər burulğanlar gün ərzində, xüsusən yaz-yay aylarında səhər saat 11-dən günorta 2-yə qədər əmələ gəlir. Günəş səthi qızdıraraq, isti hava axınlarının yüksəlməsinə səbəb olur ki, bu da öz növbəsində burulğanların əmələ gəlməsinə və tozun aerasiyasına səbəb olur.

Alimlər vurğulayırlar ki, bu tapıntılar Marsın iqlimini daha yaxşı öyrənmək və gələcək eniş missiyaları üçün hava şəraitini dəqiq proqnozlaşdıran çox vacib məlumat mənbəyidir.

## Kolizeyin gizli keçidi



**Arxeoloqlar İtaliyanın paytaxtı Romanın simvolu sayılan Kolizeyin altında bünövrəyə oyulmuş gizli tunel aşkar ediblər.**

Uzunluğu 55 metr olan keçidin imperatorların arenadan insanlara görünmədən çıxması üçün istifadə olunduğu bildirilir.

Birinci və ikinci əsrlərdə tikildiyi düşünülən tunel bərpa olunaraq işıqlandırma və ventilyasiya sistemi ilə təmin edilib. Kolizey Arxeoloji Parkının məlumatına görə, hazırda tarixi keçid ziyarətçilər üçün açıqdır.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**İnsanın orqanizmi yaşlandıqca bir çox orqan kimi beyin də "yorulur". Amma digər orqanlarımız kimi beyin də düzgün yanaşma ilə uzun illər gənc qala bilər. Onu tənbəlliyə, laqeydliyə və monotonluğa təslim etməsək...**

Beyin də əzələ kimidir - işlədikcə möhkəmlənir. Onun yaşı təqvimlə ölçülmür. Hər gün eyni düşüncələri təkrarlamaq, eyni yollar, eyni insanlar, eyni söhbətlər beyni sanki yuxuya verir. Halbuki gündəlik kiçik yeniliklər - fərqli bir kitab oxumaq, yad dildə bir neçə söz öyrənmək, yeni bir hobbiyə başlamaq beyin üçün əsl "idman"dır.

# Müsbət emosiyalar beynin fəaliyyətini gücləndirir



Mütəxəssislər bildirirlər ki, insan orqanizmi 40 yaşından sonra da yeni sinir əlaqələri, neyron bağlantılar yarada bilər. Yəni beynin öyrənmə potensialı heç vaxt bitmir, sadəcə onu çalışdırmaq lazımdır. Zəka yalnız genlərlə bağlı deyil, həyat tərzi ilə də sıx əlaqəlidir. Daimi stres, yuxusuzluq, oturaq həyat tərzi və balanssız qidalanma beynin ən böyük düşmənləridir. Xüsusilə şəkər və yağla zəngin qidalar beyin hüceyrələrinin fəaliyyətini zəiflədir.

Təbiətdə vaxt keçirmək, sosial əlaqələri qorumaq və ətrafdakılara müsbət münasibətlər qurmaq beyni aktiv saxlayır. Çünki insan beyninin ən böyük qidası ünsiyyətdir. Elm sübut edib ki, sevinc, maraq, təşəkkür hissi və pozitiv emosiyalar beynin sağ yarımkürəsindəki fəaliyyətləri gücləndirir. Əksinə, mənfi emosiyalar və tənqid dolu düşüncələr beyin enerjisini tükəndirir.

Alimlərin sözlərinə görə, beyni gənc saxlamağın əsas yolları daim yeni məlumatlar öyrənmək, kitab oxumaq, əl işləri, musiqi və ya rəsm kimi yaradıcılıq fəaliyyətləri ilə məşğul olmaq, fiziki aktivlik (xüsusilə gəzinti və üzgüçülük), sağlam yuxu (gecə ən azı 7 saat), sosial əlaqələri qorumaq və tənhalıqdan uzaq durmaq, mineral və vitaminlərlə zəngin məhsullarla qidalanmaqdır.

Beynimizin 60 faizi yağlardan ibarətdir. Bu miqdarın yarısını omeqa-3 yağları təşkil edir. Doymamış yağ turşuları insan orqanizmində istehsal olunmur, onu yalnız qida yoluyla almaq mümkündür. Bütün balıq növləri, xüsusən yağlı dəniz balıqları yüksək miqdarda doymamış yağ turşuları ehtiva edirlər.

Polifenol, omeqa-9 və doymamış yağ turşusu qaynağı olan zeytun yağı da beyni qüvvətləndirən məhsullardandır. Onun antioksidant və antiinflamatuar təsiri Altsheymer xəstəliyinə tutulma riskini azaldır, tərkibindəki E vitamini isə beyin hüceyrələrini və beyni zərərli xarici təsirlərdən qoruyur. Müxtəlif vitamin və liflərlə zəngin yumurta, avakoda, gül kələmi, brokoli, balqabaq toxumu, paxlalı bitkilər və tam taxıllı məhsullar da faydalı məhsullar silsiləsindəndir.

Beyni gənc saxlayan ən vacib amillərdən biri yuxudur. Çünki beyin yuxu zamanı istirahət etmir, gün boyu toplanmış informasiyaları çeşidləyir, lazımsızları silir, vacibləri yaddaşa ötürür. Alimlər bildirirlər ki, yuxu zamanı beyin hüceyrələri arasında maye axını artır, nəticədə Altsheymerə səbəb olan zərərli maddələri orqanizmdən təmizlənir. Deməli, yuxusuzluq sadəcə yorğunluq deyil, həm də beynin vaxtından əvvəl qocalmasıdır.

Yetkinlər üçün 7-8 saat, uşaqlar üçün isə 9-10 saat ideal yuxu müddəti hesab olunur. Yuxudan əvvəl televizor, kompüter və smarton ekranından uzaqlaşmaq, otağı sərin və qaranlıq saxlamaq dərin yuxuya keçidi asanlaşdırır. Təəssüf ki, müasir dövrdə bu qaydalara çox az insan əməl edir. Nəticədə yuxusuzluq və beyin yorğunluğu yeni "səssiz epidemiya"ya çevrilir.

Nevroloqların sözlərinə görə, gec yatmaq qısa müddətdə zərərsiz görünsə də, uzun vədədə beyin üçün ciddi risklər yaradır. Xüsusilə 34 yaşdan yuxarı fərdlər üçün gec yatmaq ilk vaxtlar sadəcə yorğunluğa səbəb olsa da, tədricən unutqanlıq, diqqət dağınıqlığı, qərar vermə bacarığı, hətta Altsheymer kimi ciddi sağlamlıq problemlərinə yol açır.

Yuxu zamanı beyin öyrənilən məlumatları nizamlayır, yaddaşda saxlayır və duyğuları tarazlaşdırır. Gec yatanlarda bu proses yarımçıq qalır. Üstəlik, erkən yatmamaq kortizol (stres hormonu) səviyyəsini artırır. Kortizolun uzun müddət yüksək qalması nəticəsində ürək-damar sağlamlığı pisləşir, immunitet sistemi zəifləyir, beyin kiçilir və yaddaş mərkəzi olan hipokampus zədələnir.

Nizamsız yuxu həm də orqanizmdə iltihabı artırır. O, yalnız oynaqları deyil, beyin damarlarını və neyronları da zədələyir. Nəticədə zehni yavaşlama və sürətli qocalma baş verir.

İnsanın bioloji ritmi gecə yatmaq, gündüzlər isə aktiv olmaq üzərində qurulub. Gecə ekran işığına məruz qalmaq isə melatonin hormonu ifrazını azaldır. Melatonin isə təkcə yuxuya getməyə kömək etmir, həm də beynin qocalmasını ləngidir, antioksidant və antikanserogen təsiri ilə beyin hüceyrələrini iltihabdan qoruyur, mənfi xolesterini azaldır, enerji mübadiləsində rol oynayır. Melatonin azaldıqca bədəndə insulin müqaviməti artır, piylənmə və metabolik pozğunluqlar yaranır. Bu, xüsusilə gecə növbəsində işləyənlər və texnoloji asılılıq yaşayanlar üçün risklidir.

Erkən yatmaq beynimizin gəncliyini uzun illər qoruya bilər. Bioloji vaxtın sabit qalması üçün hər gün eyni vaxtda yatmaq, yatmazdan 1-2 saat əvvəl ekrandan uzaq durmaq, melatonin qaranlıqda artdığı üçün qaranlıq və sərin otaqda yatmaq, beynin təmizlənməsi və yaddaşın güclənməsi üçün 7-8 saat yuxu almaq vacibdir. İnsanlar bəzən yuxunu qaydaya salmaq üçün həblərdən istifadə edirlər. Bu isə yalnız "saxta yuxu" yaradır. Bunun əvəzində sakitləşdirici bitki çayları və sakit musiqi tövsiyə olunur. Unutmamaq lazımdır ki, beyin yaşlandıqda deyil, fəaliyyətsiz qaldıqda qocalır.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Xalq artisti Əminə Yusifqızı dəfn olunub





**Oktyabrın 10-da Təzəpir məscidində Xalq artisti Əminə Yusifqızı ilə vida mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Mədəniyyət Nazirliyinin rəsmiləri, mərhumun ailə üzvləri, sənət dostları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov bildirib ki, Əminə Yusifqızı həm gözəl sənətkar, həm də gözəl insan olub. Qeyd edib ki, onun yaradıcılığı və insani keyfiyyətləri həmişə yaddaşımızda yaşayacaq.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxışında Əminə Yusifqızının Azərbaycan musiqi və mədəniyyətinə misilsiz töhfələr verdiyini deyib.

Mərasimdə mərhumun sənət dostları - Xalq artistləri Şəfiqə Məmmədova, Şükúfə Yusupova, Təranə Muradova, Yeganə Axundova, Hacı İsmayılov, Brilyant Dadaşova, Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Əminə Yusifqızı ilə bağlı xatirələrini bölüşüblər. Diqqətə çatdırılıb ki, Əminə xanım həm böyük sənətkar, həm də səmimi və mehriban insan idi. Onun səsi, ifası və yaradıcılığı xalqımızın yaddaşında dərin iz buraxıb.

Bildirilib ki, Əminə xanım xalqımızın sevgisini qazanmış nadir sənətkarlardandır. Onun şeirləri və yaradıcılığı hər kəsin yaddaşında əbədi qalacaq.

Vida mərasimindən sonra Xalq artisti Əminə Yusifqızı Bakının Yasamal rayonunda, "Qurd qapısı" qəbiristanlığında dəfn olunub.

# Bilmək istəyirəm

*On il əvvəl birinə zamin olmuşdum. Həmin şəxs kreditlə maşın almışdı, amma ödəyə bilmədiyi üçün icra işi açıldı və üzərimə öhdəlik qoyuldu. İndiyə qədər bu məsələ bitməyib və yenə rayon icra şöbəsinə çağırılmışam. Getməsəm, məcburi gətirmə tədbiri görüləcəyi barədə bildiriş almışam. Bu icra işindən birdəfəlik necə qurtula bilərəm?*

***Süleyman MƏMMƏDOV, Bakı şəhəri***

✓ Sualınıza cavab olaraq bildiririk ki, mülki və icra haqqında qanunvericiliyin tələbinə əsasən, icra işindən birdəfəlik qurtulmaq üçün əsas yollar:

- borcun tam ödənilməsi,
- zaminlik müddətinin bitməsi və kreditorun iddia müddətini keçirməsi,
- yaxud icra sənədinin ləğvi üçün məhkəməyə müraciət etməkdir.

Zaminlik müqaviləsinin müddətini və şərtlərini dəqiqləşdirin, əgər müddət bitibsə və kreditor iddia irəli sürməyibsə, zaminliyə xitam verilməsi barədə məhkəməyə müraciət edə bilərsiniz. Əks halda, borc ödənilməyənədək icra tədbirləri, o cümlədən məcburi gətirmə və inzibati məsuliyyət tətbiq oluna bilər.

*Yetkinlik yaşına çatmayan şəxs hansı hallarda mülki müqavilə bağlaya bilər və bunun üçün hansı qanuni prosedurlar mövcuddur?*

***Nazilə VƏLİXANLI, Qəbələ rayonu***

✓ - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, yetkinlik yaşına çatmayan şəxs dedikdə bir qayda olaraq 18 yaşı tamam olmamış şəxslər başa düşülür və qanunvericilik belə şəxsləri bir neçə kateqoriyalara bölür:

**** 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar (azyaşlılar):***

- yalnız xırda məişət əqdləri,
- əvəzsiz fayda götürməyə yönəlmiş və notariat təsdiqi və ya dövlət qeydiyyatı tələb olunmayan əqdləri,
- habelə qanuni nümayəndənin verdiyi vəsaitlə bağlı əqdləri müstəqil bağlaya bilərlər.

Digər bütün əqdləri yalnız valideynləri, övladlığa götürənləri və ya qəyyumları onların adından bağlaya bilər və ya sonradan onların tərəfindən bəyənildikdə etibarlıdır.

**** 14-18 yaş arası yetkinlik yaşına çatmayanlar:***

- valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə müqavilə bağlaya bilərlər;
- yalnız öz qazancı, təqaüdü və digər gəlirləri,
- eləcə də xırda məişət əqdləri üzrə müstəqil sərəncam vermək hüquqları var.

Notariat qaydasında müqavilə bağlanarkən, yetkinlik yaşına çatmayanın yaşı və müqaviləni onun adından bağlayan şəxsin səlahiyyəti təsdiqlənməli, razılıq notarius tərəfindən qeydiyyata alınmalı və müqavilə imzalanmalıdır. Əks halda müqavilə etibarsız sayılacaqdır.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 15-18, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət isə gecə 75-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 21-26, dağlarda gecə 5-10, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15, gündüz 23-28 dərəcə isti olacağı gözlənilir.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 15-20 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 13-18, bəzi yerlərdə 20 dərəcə isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17, gündüz 20-25 dərəcə isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 11-16, gündüz 18-23, dağlarda gecə 6-10, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, gecə və səhər bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-17, gündüz 21-26 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-17, gündüz 21-25, dağlarda gecə 14-16, gündüz 16-19 dərəcə isti olacaq.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4095
Sifariş 2054

Qiyməti 60 qəpik